Hər kəs ədalətli olacaq
ƏDALƏT

## Akar: "Azərbaycanın haqlı mübarizəsini dəstəkləməyə davam edəcəyik"



**"Başda Azərbaycan və Liviya olmaqla dost, qardaş və müttəfiqlərimizin haqlı mübarizəsinə dəstək verməkdə davam edəcəyik".**

Adalet.az "Star"a istinadən xəbər verir ki, bunu Türkiyənin milli müdafiə naziri Hulusi Akar deyib.

O bildirib ki, indi hakimiyyət həm fevralın 6-da baş vermiş zəlzələnin nəticələrinin aradan qalxmasına çalışır, həm də ölkənin sərhəd təhlükəsizliyini təmin edir: "Biz relyef və iqlim şəraitindən asılı olmayaraq terrorla mübarizəmizi davam etdiririk. Bununla yanaşı, həm də "Taxıl sazişi" kimi təşəbbüslərlə regional və qlobal sülhə töhfə veririk. Bu fəaliyyətlərimizi davam etdirmək istəyirik". H.Akar söyləyib ki, milli müdafiə sənayesindəki mövcud imkanlar nəticəsində Türkiyə dünya orduları sırasında sayılıb-seçilən mövqeyə sahibdir: "Biz Türkiyə əsrində müdafiə sənayesi sahəsindəki imkanlarımızı daha da genişləndirmək istəyirik. Müdafiə və təhlükəsizlik sahəsində görülən hər iş Türkiyənin qlobal siyasi aktor kimi gücünü göstərir". Nazir xatırladıb ki, Türkiyənin müdafiə sənayesinin 80 faizi artıq yerli istehsaldır: "Mövcud resurslar Türkiyə Silahlı Qüvvələrinin ehtiyacını təmin etməklə, qardaş və müttəfiq ölkələrin müdafiə ehtiyaclarını da ödəməyə qadirdir".

## Əli Əsədovdan "Laçın" sərhəd-buraxılış məntəqəsi ilə bağlı qərar




Azərbaycan Respublikasının dövlət sərhədindən buraxılış məntəqələrinin sayı və yerləşdiyi ərazilərin siyahısa dəyişiklik edilib.

Adalet.az-ın xəbərinə görə, bununla bağlı Baş nazir Əli Əsədov müvafiq qərar imzalayıb. Qərarla Laçın dövlət sərhədindən buraxılış məntəqəsi (Laçın rayonu (Malxələf kəndinin yaxınlığı), Azərbaycan Respublikası ilə Ermənistan Respublikası arasında) siyahıya daxil edilib.

## Çavuşoğlu: Ermənistan Qarabağa silah daşıyır



**"Qarabağ müharibəsi başa çatdıqdan sonra Azərbaycan və Türkiyə Ermənistanla münasibətlərin normallaşmasını istəyir".**

Adalet.az xəbər verir ki, bunu Türkiyə xarici işlər naziri Mövlud Çavuşoğlu NTV-yə müsahibəsində deyib.

O bildirib ki, Azərbaycan Ermənistana sülh təklif edib:

"Ermənistan başqasının torpaqlarından çıxarılmağı həzm edə bilmir. Ermənilər gərginlik yaradır, Qarabağa silah daşıyır".

## Zakir Həsənov Rusiya sülhməramlılarının yeni komandanını qəbul etdi

**Mayın 4-də Azərbaycan Respublikasının müdafiə naziri general-polkovnik Zakir Həsənov Azərbaycan ərazisində müvəqqəti yerləşdirilən Rusiya sülhməramlı kontingentinin yeni komandanı general-polkovnik Aleksandr Lentsovu qəbul edib.**

Adalet.az xəbər verir ki, bu barədə Müdafiə Nazirliyi məlumat yayıb.

Görüşdə Rusiya sülhməramlılarının müvəqqəti yerləşdirildiyi Qarabağ iqtisadi rayonundakı əməliyyat şəraiti müzakirə olunub.

## Hikmət Hacıyev David Katlerlə görüşdü



**Azərbaycan Prezidentinin köməkçisi - Prezident Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyev Brüsseldə NATO Baş katibinin köməkçisi general David Katlerlə müzakirə etdiyi məsələlər açıqlanıb.**

Adalet.az xəbər verir ki, bu barədə D.Katler tviterdə yazıb:

"Azərbaycan və NATO bizim əməkdaşlığımızdan təhlükəsizlik, müdafiə sahəsində islahatlar və terrorçuluqla mübarizə də daxil olmaqla bir sıra sahələrdə faydalanır".

O səmərəli müzakirəyə və 20 ildən artıqdır davam edən tərəfdaşlığa görə Azərbaycana təşəkkür edib.

## DİN Bərdədə əməliyyat keçirdi

### Silahlı dəstə saxlanıldı




**Bərdədə heroin alveri ilə məşğul olan silahlı dəstə saxlanılıb.**

Daxili İşlər Nazirliyindən Adalet.az-a verilən məlumata görə, Bərdə Rayon Polis Şöbəsi əməkdaşlarının əldə olunan məlumat əsasında keçirdikləri əməliyyat tədbiri ilə rayon sakinləri Pərviz Bədirov, Sərdar Talıbov, Vüsal Məmmədov və qardaşı Pərviz saxlanılıblar. Şəxsi axtarış zamanı onlardan müxtəlif çəkidə heroin və marixuana aşkar olunub.

Davam etdirilən tədbirlərlə Pərviz Məmmədovun yaşadığı evə baxış zamanı oradan da heroin və qanunsuz saxladığı "TOZ-16" markalı ov tüfəngi aşkar olunaraq götürülüb.

Araşdırma aparılır.

Hər kəs ədalətli olacaq

www.adalet.az

ƏDALƏT

Qurucusu: Adil Minbaşıyev | İctimai-siyasi, hüquq qəzeti | Qəzet 1990-cı ilin iyulundan çıxır | № 17 (6010) 5 may 2023-cü il | Qiyməti 40 qəpik

# "Heydər Əliyevin ən böyük arzusu Şuşanı azad görmək idi"

**"Heydər Əliyevin ən böyük arzusu Şuşanı azad görmək idi. Biz onun bu arzusunu reallaşdırdıq. Biz bununla fəxr edirik, xoşbəxtik.**

**Bütün azərbaycanlılar - təkcə Azərbaycan vətəndaşları deyil, bütün dünya azərbaycanlıları bizim Qələbəmizlə fəxr edirlər".**

**Adalet.az xəbər verir ki, bu fikri Azərbaycan Prezidenti İlham Əliyev mayın 3-də Şuşada keçirilən ümummilli lider Heydər Əliyevin 100 illik yubileyinə həsr olunmuş "Böyük Avrasiya geosiyasətinin formalaşması: keçmişdən bu günə və gələcəyə" mövzusunda dördüncü beynəlxalq konfransda çıxışında deyib.**

**Dövlətimizin başçısı bildirib ki, bu Qələbə ədalətin, tarixi ədalətin və beynəlxalq hüququn Zəfəridir.**



## DYP-dən müraciət - Mayın 1-dən iyunun 1-dək...



**DİN-in Baş Dövlət Yol Polisi İdarəsi tərəfindən avtomobillərdən atmosferə atılan zərərli tullantıların ətraf mühitə və insan sağlamlığına vurduğu zərərin qarşısının alınması istiqamətində tədbirlər həyata keçirilir.**

İdarədən Adalet.az-a verilən məlumata görə, may ayının 1-dən iyun ayının 1-dək Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin Baş Dövlət Yol Polisi İdarəsi Ekologiya və Təbii Sərvətlər Nazirliyi ilə birgə respublika ərazisində "Təmiz hava" aylığına start verib. Keçirilən tədbirlər zamanı avtonəqliyyat vasitələrinin texniki sazlığının daim diqqət mərkəzində saxlanılmasının əhəmiyyəti barədə sürücü və sahibkarlarla mütəxəssislərin iştirakı ilə maarifləndirici söhbətlər aparılır, ətraf mühitə atılan tullantılarda müəyyən edilmiş normadan artıq çirkləndirici maddələr olan avtomobillərin idarə edilməsinə və onların istismara buraxılmasına yol verən şəxslər barəsində qanunvericiliyə uyğun tədbirlər görülür.

Bir daha sürücülərdən, eləcə də sərnişin və yük daşıma fəaliyyəti göstərən fiziki və hüquqi şəxslərdən istifadələrində olan avtonəqliyyat vasitələrini texniki cəhətdən saz vəziyyətdə istismar etmələrini xahiş edirik.

## Ərdoğan zəlzələdən zərərçəkənlərin pulsuz protezlərlə təmin olunması barədə qərar verdi



**Türkiyədə zəlzələ nəticəsində travma alan, sinir sistemi, qol və ayaq zədəsi olan şəxslərə pulsuz və ya güzəştli protezlər veriləcək və ortopedik müalicə tətbiq olunacaq.**

Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın "Resmi Gazete"də dərc olunan müvafiq qərarı fevralın 6-da zəlzələdən zərər çəkmiş vətəndaşları əhatə edir. Heç bir sosial təminatı olmayan vətəndaşların xərcini ölkənin Daxili İşlər Nazirliyi öhdəsinə götürəcək.

## "Mediada davamlı inkişafa nail olmaq üçün yenilikləri öyrənmək lazımdır"




**"Dövlət qurumlarının mətbuat xidmətləri üçün təlimin təşkilində əsas məqsəd ictimaiyyətlə əlaqələrə məsul şəxslərin peşəkar bacarıqlarının təkmilləşdirilməsi və inkişaf etdirilməsi, kommunikasiya sahəsində ən son tendensiyaların və qabaqcıl təcrübələrin öyrənilməsidir".**

Adalet.az xəbər verir ki, bunu Medianın İnkişafı Agentliyinin icraçı direktoru Əhməd İsmayılov dövlət qurumlarının mətbuat xidmətləri üçün keçirilən təlim proqramının açılış mərasimində deyib. Ə.İsmayılov bildirib ki, təlim qurum və təşkilatların kommunikasiya siyasətinin təhlili və tədqiqi, uğurlu modellərin araşdırılması, faydalı metodik mexanizmlərin və texnikaların müəyyən edilməsi, PR menecerlərin fəaliyyətinin səmərəliliyinin artırılması baxımından mühüm əhəmiyyət kəsb edir. O qeyd edib ki, strateji planlaşdırma mətbuat xidmətlərinin rəhbərləri üçün çox vacibdir: "Rəqəmsal mediada məlumatların toplanması, öyrənilməsi hazırkı dövrdə əhəmiyyətli məsələdir. Bu səbəbdən də mediada davamlı inkişafa nail olmaq üçün yenilikləri öyrənmək lazımdır".

## Mərkəzi Bank uçot dərəcəsini artırdı




**Azərbaycan Respublikası Mərkəzi Bankının İdarə Heyətinin qərarı ilə uçot dərəcəsi 0.25 faiz bəndi artırılaraq 9%-ə, faiz dəhlizinin aşağı həddi 0.5 faiz bəndi artırılaraq 7.5%-ə, faiz dəhlizinin yuxarı həddi isə 0.25 faiz bəndi artırılaraq 10%-ə qaldırılıb.**

Adalet.az xəbər verir ki, bu barədə Mərkəzi Bankın məlumatında bildirilib. Qeyd olunub ki, bu qərar daxili və xarici mühitdə inflyasiya proseslərinə təsir göstərən amillərin dəyişimi və yenilənmiş makroiqtisadi proqnozlar nəzərə alınmaqla verilib. Bu qərar 4 may 2023-cü il tarixindən qüvvəyə minir. Pul siyasəti ilə bağlı növbəti qərar barədə məlumat ictimaiyyətə 2023-cü il iyun ayının 21-də açıqlanacaq.

## Hərbçimiz intihar etdi



**Müdafiə Nazirliyinin N saylı hərbi hissəsinin hərbi qulluqçusu, əsgər Məmmədov Ramil İlham oğlunun odlu silahdan atəş açmaqla özünü öldürməsi barədə Füzuli hərbi prokurorluğuna məlumat daxil olub.**

Adalet.az xəbər verir ki, bunu hərbi prokurorun böyük köməkçisi - Hərbi Prokurorluğun Mətbuat xidmətinin rəhbəri, baş ədliyyə müşaviri Firad Əliyev deyib.

Daxil olmuş məlumat əsasında Füzuli hərbi prokurorluğunun əməkdaşları tərəfindən hadisə yerinə və meyitə baxış keçirilib, iş üçün əhəmiyyət kəsb edən predmetlər maddi sübut kimi götürülüb, izahatlar alınıb və digər hərəkətlər icra edilib.

Fakt üzrə Füzuli hərbi prokurorluğunda Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 125-ci (özünü öldürmə həddinə çatdırma) maddəsi ilə cinayət işi başlanılaraq şahidlər dindirilib, müvafiq ekspertizalar təyin edilib və təxirəsalınmaz zəruri istintaq hərəkətləri həyata keçirilib.

Hazırda istintaq davam etdirilir və qanunvericiliyin tələblərinə uyğun olaraq bütün tədbirlərin görülməsi təmin olunacaq.

## Ukraynada səfərbərlik müddəti uzadıldı



**Ukraynada hərbi vəziyyət və səfərbərliyin müddəti avqustun 18-nə qədər uzadılıb.**

Adalet.az xəbər verir ki, Ali Rada bununla bağlı təklifi qəbul edib.

## Türkiyə səfirindən seçki ilə bağlı çağırış



**Türkiyə səfiri Cahit Bağçı Azərbaycanda yaşayan Türkiyə vətəndaşlarına çağırıb edib.**

Adalet.az xəbər verir ki, mayın 14-də Türkiyədə prezident və parlament seçkilərinin keçiriləcəyini xatırladan diplomat vətəndaşları səsvermədə iştirak etməyə çağırıb.

"Azərbaycanda 15 seçki məntəqəsi yaradılıb. Onlardan 9-u Bakıda olacaq. Vətəndaşlarımız mayın 5-i saat 9:00-21:00 arasında 12 saat ərzində Bakı, Naxçıvan və Gəncədə səs verə biləcəklər. Səsvermə prosesinin həyata keçirilməsi üçün bütün lazımi şərait yaradılıb. Vətəndaşlarımızı səsvermədə aktiv iştirak etməyə çağırırıq", - deyə səfir bildirib.

## "Trendyol"dan sifariş edənlərə şad xəbər




**Türkiyənin məşhur alış-veriş saytı olan "Trendyol"a daxil olarkən Azərbaycan istifadəçilərinə yeni seçim imkanı təklif edilir.**

Adalet.az xəbər verir ki, təklifdə "Trendyol" sifarişlərini artıq Azərbaycan adresində təslim almaq mümkündür" seçimi yer alıb.

Yeniliklə vətəndaşlar Azərbaycan nömrəsi ilə qeydiyyatdan keçərək, sifarişi "Trendyol" saytından izləyə bilərlər. Eyni zamanda sifarişçi adres olaraq öz ev ünvanını qeyd edərək, malın evinə təslim edilməsini seçə bilər.

Qeyd edək ki, indiyədək "Trendyol"un Azərbaycana birbaşa çatdırılma xidməti yox idi.

## Reznikov: "Ukrayna Krımı döyüşsüz alacaq"



**Hazırda Ukrayna işğal olunmuş yarımadaya sırf hərbi hücumu nəzərdə tutmur. Əvəzində hərbi-siyasi azadlıq fəal şəkildə müzakirə olunur.**

Adalet.az xəbər verir ki, bu barədə "The Atlantic"ə Ukraynanın müdafiə naziri Aleksey Reznikov məlumat verib.

Onun sözlərinə görə, yarımadanın işğaldan azad edilməsi ilə bağlı artıq müfəssəl planlar var. "Rusiya üçün Krım hərbi bazadır və həmişə də olacaq. Ukrayna üçün Krım müxtəliflik məkanıdır - bizim qlobal cənuba körpüdür", - Reznikov bildirib.

Aqil ABBAS
aqilabbas@rambler.ru

## "HOP-HOPNAMƏ", QARABAĞ BƏYLƏRİ, DAY ÇƏRLƏTMƏYİN DƏ...



*Beş manat itirəndə, ya maşınınızın farası qırılanda, ya ürəyiniz istəməyən toya gedib yüz manat pul yazdıranda bir ay deyinirsiniz. Camaatın varı-dövləti gedib, topdağıtmaz evləri yandırılıb. O villalar yandırılıb ki, Bakıda və digər rayonlarda onu hələ indi-indi tikməyə başlayıblar. Bunlar hamısı cəhənnəm, boş şeydi. Var-dövlət də qazanıla bilər, villa da tikilə bilər, topdağıtmaz evi yenidən qurmaq olar. Amma doğulduğun torpağı, ilk dəfə iməklədiyin, hətta yediyin və qəribə bir dadı olan torpağı itirmək, əzizlərinin yatdığı qəbiristanlıqları itirmək - bu dəhşətdi. Bu dəhşəti bir Ermənistandan qaçqın düşənlər, bir də qarabağlılar yaxşı bilir. Ay bizə lağ eləyənlər, heç bilirmisiniz ki, Qarabağdan kənarda basdırılan qarabağlılar əmanət basdırılır, hətta xristianlar kimi tabutda basdırılırlar, haçansa Qarabağ azad olunanda aparsınlar əzizlərinin yanında dəfn eləsinlər, öz əzizlərinə qovuşsunlar. Tanrı heç kimə qismət etməsin bunu.*

*Sözgəlişi, bu gün Bakıda və digər bölgələrdə tikilən villalalardan da daha yaraşıqlı bir villanı ana babam 1957-ci ildə Ağdamda tikdirmişdi. İstəyirsiniz, ünvanı da deyim: Bünyad Sərdarov küçəsi 10.*

*20 minə yaxın şəhid vermişik, statistikanın rəqəmlərində çox qəribədir ki, bu rəqəm təxminən 13 min göstərilir. Bəs, evlərində, həyətlərində, küçədə erməni bombardmanından ölənlər kim sayılır? Bəs, taleyi məlum olmayan girov götürülənlər (təxminən 4 min nəfər), itkin düşənlər kim sayılır ? Nə isə, bu ayrı bir mövzudu.*

**Bax:səh-2**

## GÜNÜN LƏTİFƏSİ

**Bir gün bir restorana kişi gəlir. Qarsona deyir bəs sizin soyuq çayınız var? Qarson deyir yox.**

Kişi çıxır gedir. Hər gün bu hadisə 4-5 dəfə təkrar olunur. Axırı qarson bezib restoran sahibinə məsələni danışır.

O da deyir ki, çayı qoy dəmlənsin, sonra qoy soyuducuya, gələndə o kişiyə ver içsin.

Qarson belə də edir. Elə həmin gün kişi gəlir, deyir bala soyuq çayın var?

**Qarson yekə-yekə deyir hə. Kişi deyir onda qoy isinsin, gətir içək.**

# Prezident Şuşada beynəlxalq konfransda iştirak edib




**Mayın 3-də ADA Universitetinin təşkilatçılığı ilə Şuşada Ümummilli Lider Heydər Əliyevin 100 illik yubileyinə həsr olunmuş "Böyük Avrasiya geosiyasətinin formalaşması: keçmişdən bu günə və gələcəyə" mövzusunda dördüncü beynəlxalq konfrans keçirilib.**

Adalet.az xəbər verir ki, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev konfransda iştirak edib.

# "Əgər Ermənistan sülh istəmirsə, sülh olmayacaq"

**"Əgər Ermənistan sülh istəmirsə, sülh olmayacaq. Tarixdən bilirik ki, sülh sazişini imzalamayan ölkələr də var. Bu, nə Ermənistan, nə də region üçün yaxşı olmayacaq. Əlbəttə ki, Azərbaycan üçün də yaxşı olmayacaq. Buna görə də biz hələ də ümid edirik ki, onlar məntiqli davranacaqlar, sabiq Minsk qrupu fəaliyyətdə olanda işğal zamanı istifadə etdikləri taktikadan istifadə etməyəcəklər".**

Adalet.az xəbər verir ki, bu fikri Azərbaycan Prezidenti İlham Əliyev mayın 3-də ADA Universitetinin təşkilatçılığı ilə Şuşada keçirilən ümummilli lider Heydər Əliyevin 100 illik yubileyinə həsr olunmuş "Böyük Avrasiya geosiyasətinin formalaşması: keçmişdən bu günə və gələcəyə" mövzusunda dördüncü beynəlxalq konfransda çıxışında bildirib.

# "28 il ərzində Minsk qrupu heç bir nəticə vermədi"

**"Yeri gəlmişkən, nəticə nöqteyi-nəzərdən 28 il ərzində Minsk qrupu heç bir nəticə verməmişdir. Bunun əsas səbəbi isə o idi ki, Ermənistan torpaqları geri qaytarmaq istəmirdi".**

Adalet.az xəbər verir ki, bu barədə Azərbaycan Prezidenti İlham Əliyev mayın 3-də Şuşada keçirilən "Böyük Avrasiya geosiyasətinin formalaşması: keçmişdən bu günə və gələcəyə" mövzusunda konfransda ABŞ-nin Prinston Universitetindən olan Maykl Reynoldsun sualına cavabında bildirib.

İşğal dövründə Minsk qrupunun Azərbaycanda çox populyar olmadığını deyən dövlətimizin başçısı qeyd edib:

"İndi isə o artıq fəaliyyətini dayandırdığı üçün biz yəqin ki, bu məsələni dərindən müzakirə etməməliyik. Münaqişənin sülh yolu ilə həllini tapa bilməməsinin əsas səbəbi o idi ki, Ermənistan bunu istəmirdi".

# "Üçtərəfli Bəyanat atəşkəs razılaşması deyil, sülh sazişi də deyil"

**"İkinci Qarabağ müharibəsi bitəndə heç də çoxu sonra nəyin baş verəcəyini bilmirdi. Çünki üçtərəfli Bəyanat atəşkəs razılaşması deyil. O, həmçinin sülh sazişi də deyil. Beləliklə, sonra nəyin baş verəcəyi böyük sual işarəsi idi".**

Adalet.az xəbər verir ki, bu fikri Azərbaycan Prezidenti İlham Əliyev mayın 3-də ADA Universitetinin təşkilatçılığı ilə Şuşada keçirilən ümummilli lider Heydər Əliyevin 100 illik yubileyinə həsr olunmuş "Böyük Avrasiya geosiyasətinin formalaşması: keçmişdən bu günə və gələcəyə" mövzusunda dördüncü beynəlxalq konfransda çıxışında bildirib.

Dövlətimizin başçısı qeyd edib: "Beləliklə, biz təşəbbüs göstərdik, biz inteqrasiya olunmuş Cənub Qafqaz, regional əməkdaşlıq, münasibətlərin normallaşması üçün gələcəyə baxışı irəli sürdük. Buna görə biz sülh danışıqlarına başlamaq təşəbbüsünü irəli sürdük. Bütün istiqamətlərdən səs çıxmadı. Biz müəyyən vaxt gözlədikdən sonra tamamilə beynəlxalq hüququn norma və prinsiplərinə uyğun gələn beş prinsipi irəli sürdük. Ermənistan rəsmən ya bunları rədd etməli idi, ya da onları qəbul etməli idi. Rədd etsəydilər, bu, yenə də onların qeyri-konstruktiv olduğunu göstərəcəkdi, çünki bu prinsiplərdə beynəlxalq hüquqa zidd olan heç nə yox idi. Onların qəbul edilməsi isə psixoloji nöqteyi-nəzərdən, normal davranış sərgiləməyə razı olmaq nöqteyi-nəzərindən yəqin ki, onlar üçün çətin idi. Sonra isə bizdə Ermənistanın ciddi danışıqlarda iştirak etmək istəməməsi səbəbindən yenə də uzun fasilə oldu".

# İlham Əliyev və Mehriban Əliyeva Ağdam rayonuna səfər ediblər

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Birinci vitse-prezident Mehriban Əliyeva mayın 2-də Ağdam rayonuna səfər ediblər.**

Adalet.az xəbər verir ki, dövlətimizin başçısı "Azərişıq" ASC-nin Ağdam şəhərində Rəqəmsal İdarəetmə Mərkəzi və Təlim-Tədris Kompleksinin təməlini qoyub. Sonra Prezident İlham Əliyev və Birinci vitse-prezident Mehriban Əliyeva Ağdam Muğam Mərkəzinin, Ağdam şəhərində salınacaq 2-ci və 3-cü yaşayış məhəllələrinin, Ağdam şəhərində inzibati binanın təməlini qoyublar. Daha sonra dövlətimizin başçısı Bərdə-Ağdam dəmir yolu xəttinin tikintisi ilə tanış olub.

Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Ağdam Muğam Mərkəzinin, "Azərişıq" ASC-nin Ağdam şəhərində Rəqəmsal İdarəetmə Mərkəzi və Təlim-Tədris Kompleksinin, Ağdam şəhərində salınacaq 2-ci və 3-cü yaşayış məhəllələrinin, Ağdam şəhərində inzibati binanın təməlini qoyublar.

# İlham Əliyev Zəngilana getdi

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 4-də Zəngilan rayonuna səfər edib.**

Adalet.az xəbər verir ki, dövlət başçısı Zəngilan şəhərində Konqres Mərkəzinin tikintisi ilə tanış olub, inzibati binanın təməlini qoyub, "Azərenerji" ASC-nin "Sarıqışlaq" Su Elektrik Stansiyasında tikinti işlərinin gedişi ilə tanış olub, otel kompleksinin, 91 çarpayılıq Zəngilan Rayon Mərkəzi Xəstəxanasının və Cahangirbəyli kəndinin təməlini qoyub.

# Prezident İlham Əliyev Laçın və Qubadlı rayonlarına səfər edib

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 4-də Laçın və Qubadlı rayonlarına səfər edib.**

Adalet.az xəbər verir ki, dövlətimizin başçısı Laçın rayonunda Güləbird kənd yaşayış məntəqəsinin, Qubadlı şəhərində ilk yaşayış məhəlləsinin, inzibati binanın, 600 şagird yerlik tam orta məktəbin, 91 çarpayılıq Mərkəzi Xəstəxananın, Xanlıq, Mahruzlu və Zilanlı kəndlərinin təməllərini qoyub.

# Baş nazir: <u>*"Heydər Əliyevin*</u> kadrlarıyıq"

**"Bu gün biz böyük iftixar hissi ilə deyirik ki, Heydər Əliyev məktəbinin məzunları, Heydər Əliyevin kadrlarıyıq".**

Adalet.az xəbər verir ki, bunu Baş nazir Əli Əsədov Ümummilli Lider Heydər Əliyevin anadan olmasının 100 illiyinə həsr edilən "Azərbaycandan kənarda təhsil almış mütəxəssislərin toplantısı"nda çıxışı zamanı deyib.

O bildirib ki, H.Əliyevi fenomenal şəxsiyyət, nüfuzlu dövlət xadimi, nadir natiqlik istedadına malik olan təkrarolunmaz lider hesab edirdilər: "Görkəmli siyasi və dövlət xadimləri, diplomatlar, tanınmış insanlar Heydər Əliyevə böyük hörmət və ehtiram göstərirdilər. Bunu mən 6 il ərzində Ulu Öndərin yanında çalışmaq, onun köməkçisi olmaq, əksər görüşlərində və qəbullarında iştirak etmək, xarici səfərlərdə onu müşayiət etmək şərəfinə və xoşbəxtliyinə nail olan bir insan kimi tam səmimiyyətimlə deyirəm. Heydər Əliyevin yanında işləmək çox böyük məsuliyyət tələb edirdi. Eyni zamanda, həm də çox qürurverici idi. Onunla işləyən, ünsiyyətdə olan hər kəs ondan çox şey öyrənib".

"Həm Ali məktəbdə müəllim, həm Milli Məclisin deputatı, həm də Heydər Əliyevin köməkçisi işlədiyim dövrdə Ulu Öndər mənim müəllimim olub, ondan çox şey öyrənmişəm - həm peşəkar fəaliyyətimdə, həm şəxsi həyatda Heydər Əliyevi hər zaman özümün ən böyük müəllimi hesab etmişəm. Ulu Öndərin məşhur kəlamına əsaslanaraq bu gün demək istəyirəm ki, mən hər zaman fəxr etmişəm və hər zaman fəxr edəcəm ki, Heydər Əliyevin köməkçisi olmuşam, Heydər Əliyev məktəbini keçmişəm. Hər birimiz böyük həyat yolu keçərək şəxsiyyət kimi formalaşmışıq, müxtəlif peşələrə yiyələnmişik, müxtəlif vəzifələr tutmuşuq. Lakin bizi birləşdi-



rən mühüm bir faktor var - əksəriyyətimiz Ulu Öndərin böyük diqqət və qayğısı nəticəsində Azərbaycandan kənarda ali təhsil almaq şərəfinə nail olmuşuq. Və bu gün biz böyük iftixar hissi ilə deyirik ki, Heydər Əliyev məktəbinin məzunları, Heydər Əliyevin kadrlarıyıq", - Ə.Əsədov vurğulayıb. Baş nazir bildirib ki, Azərbaycanın ən yeni tarixinin bütöv bir dövrü Ulu Öndərin şərəfli adı və möhtəşəm fəaliyyəti ilə bağlıdır: "Heydər Əliyev istəyirdi ki, hər bir azərbaycanlı gənc valideynlərinin kimliyindən, ailəsinin maddi vəziyyətindən asılı olmayaraq, əgər istedadı varsa və ali təhsil almaq istəyirsə, buna nail ola bilsin. Ulu Öndər Azərbaycandan kənarda təhsil alan gəncləri hər zaman diqqət mərkəzində saxlayır, onların inkişafına hər cür qayğı göstərirdi".

O xatırladıb ki, 2007-2015-ci illərdə Azərbaycan gənclərinin xarici ölkələrdə təhsili üzrə Dövlət Proqramı" çərçivəsində 32 ölkənin 350-dən çox ən nüfuzlu ali təhsil müəssisəsində təhsil almaları məqsədilə ümumilikdə 3500-dən artıq gənc xaricə göndərilib və onlara təqaüd verilmiş, bu məqsədlər üçün 200 milyon manat vəsait xərclənib: "Prezident İlham Əliyev müvafiq sərəncamı ilə "Gənclərin xarici ölkələrin nüfuzlu ali təhsil müəssisələrində təhsil almalarına dair 2022-2026-cı illər üçün Dövlət Proqramı"nı təsdiq edib. Dövlət Proqramının icrası müddətində hər il 400 nəfər olmaqla, ümumilikdə 2000 nəfərədək vətəndaşın xaricdə nüfuzlu ali təhsil müəssisələrində bakalavriat və magistratura səviyyələrində təhsil alması təmin ediləcək".

"Heydər Əliyevin heç kəslə müqayisə edilməz güclü məntiqi və dəmir iradəsi var idi. Öz fikirlərini elə köklü surətdə əsaslandırıb deyirdi ki, qarşı tərəf tamamilə arqumentsiz qalırdı. Eyni zamanda, qəbul etdiyi insanlarla çox mehriban ünsiyyət yaradırdı, sadə və səmimi idi, tərəf-müqabilinin problemlərinə çox böyük həssaslıq, diqqət və qayğı ilə yanaşırdı. Bu gün öz Vətənini, xalqını, dövlətini sevən hər bir Azərbaycan vətəndaşının qəlbində Heydər Əliyev abidəsi ucaldılıb. Və nə qədər Azərbaycan xalqı, Azərbaycan dövləti varsa, Heydər Əliyev də yaşayacaq", - Baş nazir əlavə edib.

# <u>*Politoloq:*</u> "Bununla ermənilərə psixoloji mesaj ötürmüş oluruq ki, hara getsəniz..."

**"Təbii ki, ermənilər artıq yavaş-yavaş reallığı qəbul etməyə başlayıblar. Qarabağdan Ermənistana, Ermənistandan isə Qarabağa gedən ermənilər birbaşa Azərbaycanın sərhəd keçid məntəqələrindən keçməklə, orda yoxlanılmaqla hərəkətlərini davam etdirirlər"**



Bunu Adalet.az-a açıqlamasında politoloq Samir Hümbətov deyib. Politoloq bununla Azərbaycanın prosesləri öz istədiyi kimi idarə edə biləcəyini bildirib:

"Məncə, bu artıq Azərbaycanın ən böyük uğurlarından biri kimi dəyərləndirilə bilər.

Biz bunu etməklə həm Ermənistana, həm də ermənilərə bir psixoloji mesaj ötürmüş oluruq ki, hara getsəniz, nə etsəniz də son nəticədə bizim təsirimiz altında olduğunuzu hiss etməlisiniz və sizə bütün şəraiti yaradırıq.

Keçid məntəqəsi qurulsa da, orda problem yaratmırıq, rahat keçib-gələ bilirsiniz. Amma qəbul etməlisiniz ki, bura Azərbaycanın ayrılmaz, suveren ərazisidir və siz də Azərbaycan vətəndaşısınız, yəni söhbət Qarabağ ermənilərindən gedir. Məncə, bunların hamısı artıq ermənilər tərəfindən də qəbul edilməyə başlayıb. Verilən mesaj da ondan ibarət olur ki, hər hansı bir dövlətlər, böyük güclər Azərbaycana hansısa bir formada təsir edib bizim təsirimizdən sizi çıxarda bilməz. Bura Azərbaycan ərazisi olduğu üçün siz də Azərbaycan qanunları ilə hərəkət etməlisiniz. Bütün bu mesajlar ermənilərə verilib və bunu onlar da başa düşürlər.

Laçın rayonu ərazisində belə bir addımın atılması gələcəkdə digər məsələlərin də rahat şəkildə həll edilməsinə imkan verir. Çünki əsas olan bizim sərhəd keçid məntəqəsinin qurulması idi və o da quruldu. Bundan sonrakı mərhələdə proseslər artıq mərhələli şəkildə həll olunacaq. Yəni ermənilərin Azərbaycanın suverenliyi altında yaşaması da bu prosesin tərkib hissəsi kimi dəyərləndirilə bilər.

Beynəlxalq birlik də artıq bundan sonra Ermənistanın yalançı vədlərində və yaxud Qarabağ ermənilərinin başında duran separatçı qüvvələrin separatçı çıxışlarına əhəmiyyət verməyəcək. Bu xüsusi önəm daşıyır. Burda bir sıra məqamlar var ki, Azərbaycan Laçın dəhlizində keçid məntəqəsini qurmaqla prosesləri öz istədiyi kimi davam etdirə biləcək".

**Vasif Əlihüseyn**

# Hərbi ekspert: «Dünyanın ən çox tələb olunan PUA-larını istehsal edən bir şirkətin...»

**"Nəzərə alsaq ki, Türkiyənin müdafiə sənayesinin istehsal etdiyi istənilən məhsul Azərbaycan üçün əlçatandır, o zaman Türkiyə məhsullarının Azərbaycanda istehsalı da normal qarşılanmalıdır. Bu, ictimaiyyət tərəfindən də kifayət qədər müsbət qarşılanan bir addımdır"**

Bunu Adalet.az-a açıqlamasında hərbi ekspert Ədalət Verdiyev deyib. Ə.Verdiyev Türkiyə və Azərbaycanın birgə pilotsuz uçuş aparatı (PUA) istehsal etməsini belə şərh edib: "Yadınızdadırsa Vətən müharibəsi başa çatandan bir müddət sonra Ali Baş Komandan "Bayraktar" şirkətinin rəhbərlərini Selcuk və Haluk Bayraktar qardaşlarını "Qarabağ" ordeni ilə təltif etmişdi. O vaxt verdiyim müsahibələrdə bildirmişdim ki, bu şirkətin məhsulları yaxın müddətdə Azərbaycanda birgə istehsal oluna bilər. Hətta bu istehsal müəssisəsinin də Qarabağ ərazisində, xüsusilə Ağdam sənaye parkında quraşdırıla biləcəyinə diqqət çəkmişdim. Son günlər Azərbaycan və Türkiyə arasında imzalanan sə-



nədlər də artıq bu prosesin aktiv fazaya daxil olduğunu və birgə sitehsal üçün çalışmaların rəsmi sürətdə təsdiqləndiyini nümayiş etdirir. İstənilən halda müsbət addımdır, bu ilk növbədə Azərbaycanın kadır potensialının yetişməsində kifayət qədər müsbət rol oynayacaq. Digər tərəfdən biz dünyanın ən böyük və ən çox tələb olunan PUA-larını istehsal edən bir şirkətin müsbət təcrübəsini Azərbaycana gətirmiş olacağıq. Bu, Azərbaycana müəyyən vəsaitlər də cəlb edəcək. Təbii ki, bizim pilotsuz aviasiya parkımızın da yeni vasitələr əldə etməsinə imkan yaradacaq. Bütün sadalananlar isə Azərbaycanın hərbi qüdrətinin artmasına və potenasialının güclənməsinə gətirib çıxardacaq".

**Vasif Əlihüseyn**

# <u>*Vayleyto:*</u> *"Amerika Rusiyaya qalib gələ bilməyəcək"*



**Amerikanın "Vircinisya ştatının azadlıqın, ədalətin və bərabərliyin müdafiəsi" ictimai təşkilatnın , "Odessa ilə həmrəylik şirkəti"nin koordinatoru Fil Vayleyto, Ukraynaya silah göndərilməsinin dayandırılması şərtlərini açıqlayıb. Onun fikirincə, bu yalnız Vaşinqtonun Rusiyaya qalib gələ bilməyəcəyini başa düşəndən sonra baş verə bilər.**

Ekspert qeyd edib ki, Bilrləşmiş Ştatların Kiyevə kömək etməsinin əsas məqsədi, Pentaqonun rəhbəri Lloyd Ostin, Avropanın və NATO-nun rəsmilərinin də dəfələrlə bəyan etdikləri kimi, Rusiyanı zəiflətməkdir.

"Bunları kim saxlaya bilər? Açıq danışsaq, onlar bilməlidilər ki, Rusiyaya qalib gələ bilməyəcəklər"- deyə Vayleyto bildirib və əlavə edib ki, vaxt gələcək amerika ictimayyəti sual verməyə başlayacaq, Ukraynaya göstərilən hərbi və humanitar dəstək ölkəyə hansı vəsair hesabına başa gəlir və onda etirazlar artmağa başlayacaq.

Daha əvvəl Guardian qəzetinin şərhçiləri Emma Qrem-Harrison və Artem Majulin bəyan etmişdilər ki, Qərb Kiyevə göstərilən çoxmilyardlıq köməyə rəğmən Ukraynanın silahlı qüvvələri əks-hücuma keçməyə hazır deyillər.

**Rüstəm Hacıyev**

# *Separatçılar Xankəndidən Şuşaya gedən yolda aksiya başlatdı*

**Azərbaycanın Qarabağ İqtisadi rayonunda separatçılar tərəfindən yaradılmış qondarma rejim növbəti təxribata strat verdilər.**

Adalet.az xəbər verir ki, qondarma rejimdə fəaliyyət göstərən "artsaxda etnik təmizləməyə yox" hərəkatının təşəbbüs qrupunun üzvləri dünən Xankəndidən Şuşaya gedən yeganə yolun açılmasını tələb edərək dinc aksiyaya başlayıblar.

Təşəbbüs qrupunun üzvü Davit Baqryan bildirib ki, Ermənistana gedən yoldakı Azərbaycan keçid məntəqəsi Laçın dəhlizindən dərhal çıxarılmalıdır. Onlar imzatoplama ilə yanaşı, Xankəndidən Şuşaya gedən yolun başlanğıcında da dinc aksiyaya başlayıblar.

Qeyd edək ki, 23 aprel tarixindən Azərbaycan Ermənistanla sərhəddə, Həkəri körpüsü üzərində sərhəd-buraxılış məntəqəsi qurub.

Artıq Azərbaycanın suveren ərazisinə gələn və gedən hər kəs pasport yoxlamasından keçir. Bu proses nəinki Qarabağdakı separatçıları, həm də Ermənistandakı erməniləri bərk narahat edib.

**Əntiqə Rəşid**

<u>*Aqil ABBAS*</u>

# *"HOP-HOPNAMƏ", QARABAĞ BƏYLƏRİ, DAY ÇƏRLƏTMƏYİN DƏ...*

*Beş manat itirəndə, ya maşınınızın farası qırılanda, ya ürəyiniz istəməyən toya gedib yüz manat pul yazdıranda bir ay deyinirsiniz. Camaatın varı-dövləti gedib, topdağıtmaz evləri yandırılıb. O villalar yandırılıb ki, Bakıda və digər rayonlarda onu hələ indi-indi tikməyə başlayıblar. Bunlar hamısı cəhənnəm, boş şeydi. Var-dövlət də qazanıla bilər, villa da tikilə bilər, topdağıtmaz evi yenidən qurmaq olar. Amma doğulduğun torpağı, ilk dəfə iməklədiyin, hətta yediyin və qəribə bir dadı olan torpağı itirmək, əzizlərinin yatdığı qəbiristanlıqları itirmək - bu dəhşətdi. Bu dəhşəti bir Ermənistandan qaçqın düşənlər, bir də qarabağlılar yaxşı bilir. Ay bizə lağ eləyənlər, heç bilirmisiniz ki, Qarabağdan kənarda basdırılan qarabağlılar əmanət basdırılır, hətta xristianlar kimi tabutda basdırılırlar, haçansa Qarabağ azad olunanda aparsınlar əzizlərinin yanında dəfn eləsinlər, öz əzizlərinə qovuşsunlar. Tanrı heç kimə qismət etməsin bunu.*

*Sözgəlişi, bu gün Bakıda və digər bölgələrdə tikilən villalalardan da daha yaraşıqlı bir villanı ana babam 1957-ci ildə Ağdamda tikdirmişdi. İstəyirsiniz, ünvanı da deyim: Bünyad Sərdarov küçəsi 10.*

*20 minə yaxın şəhid vermişik, statistikanın rəqəmlərində çox qəribədir ki, bu rəqəm təxminən 13 min göstərilir. Bəs, evlərində, həyətlərində, küçədə erməni bombardmanından ölənlər kim sayılır? Bəs, taleyi məlum olmayan girov götürülənlər (təxminən 4 min nəfər), itkin düşənlər kim sayılır ? Nə isə, bu ayrı bir mövzudu.*

*Şəhid. Bu bir ailənin oğludu, bir ailənin kürəkənidi, bir bacının qardaşıdı, bir atanın oğludu, bir ananın oğludu, bir nəslin övladıdı. Qarabağda şəhid olanların təxminən 70 faizi qarabağlılardı. Qarabağda elə bir nəsil tapmazsınız ki, onun şəhidi yoxdu! Şuşanın 15 min əhalisi vardı, şəhidlərinin sayı əhalisi Şuşa əhalisindən 10-20 dəfə böyük rayonların şəhidlərinin sayından bir neçə dəfə artıqdı. Eləcə də olsun Kəlbəcər, Laçın, Qubadlı, Xocalı, Xocavənd. Mən heç bura Ağdamla Füzulini salmıram.*

*Söhbət ondan gedir ki, bu qarabağlıların Xankəndi ilə müharibəsi deyildi. Bu, Ermənistanla, Rusiya ilə, Ermənistanın arxasında duran dövlətlərlə müharibə idi. Və bu savaşda Qarabağa Azərbaycanın başqa bölgələrindən gəlib qeyrətlə savaşan, şəhid və qazi olanların önündə də baş əyirəm. Amma söhbət ondan gedir ki, bir daha təkrar edirəm, şəhidlərin 70, bəlkə də 80 faizi qarabağlılardı.*

*Azərbaycanda ilk şəhid iki ağdamlı gənc - Əli və Bəxtiyardı. İnşallah, Cıdır düzündə Azərbaycan bayrağı qaldırılan vaxt, Qarabağ azad olunan vaxt da son şəhidimiz bizlər olacağıq.*

*Şəhidlərimizin*
*Çiyninə qalxaraq yüksəliyoruz*
*Vaxtımız yox,*
*Onları basdırmağa!*

*İnşallah, o günü görəcəyəm.*

*Bu yazını niyə yazdım? Xeyli vaxtdı bir məsələ məni həm çərlədir, həm üzür, həm də bərk narahat edir.*

*Nədir bu məsələ?*

*Görkəmli şəxsiyyətimiz, bütün jurnalistlərimizin ustadı Şirməmməd Hüseynov hər hansı bir tədbir olur-olmasın orda mütləq Həsən bəy Zərdabinin bir məqaləsini misal çəkir. Sonra da qəzetlər, saytlar, sosial şəbəkələr Şirməmməd müəllimin çəkdiyi bu misalı elə ürəklə paylaşır, elə şərhlər yazırlar ki, oxuyanda adama elə gəlir ki, Azərbaycan xalqının düşmənləri heç də ermənilər deyil, qarabağlılar, daha doğrusu, Qarabağ bəyləridi.*

*Nədir məsələ?*

*Zərdabi yazıb ki, gedir Şuşaya, istəyir Qarabağ bəylərindən bir yardım alsın və "Hop-hopnamə"ni çap etsin. Erməni qadınları yığışıb pul qoyub "Hop-hopnamə"ni çap etdirirlər, hətta həmin vaxt bir erməni də gətirir 980 publ yardım yığanlara pul verir ki, bu pulu İsa bulaqdan su daşımaqla qazanmışam, istəyirəm erməni uşaqları təhsil görsünlər. Amma Qarabağ bəylərinin Həsən bəy Zərdabiyə verdikləri qonaqlıqların xərci bir yox, iyirmi "Hop-hopnamə"ni çap etdirməyə çatsa da, kitabın çapına pul vermirlər.*

*Bilmirəm bunu Həsən bəy Zərdabi niyə yazıb, bu nə qədər doğrudu? Və təbii ki, Həsən bəy Zərdabinin yazdığı "Quran" ayələri deyil, ustad yazıb də. Gərək ustad da deyəydi ki, qardaş, o qoyunu kəsməyin, onun puluyla gedim Sabirin kitabını çap etdirməyə.*

*Ola bilər ki, Zərdabinin yazdığı həqiqətdi. Bu gün XXI əsrdi, hələ də bu millətdə Sabiri qəbul etməyənlər var, Sabirə həqarət edənlər var, söyənlər var, onu Allahsız, dinsiz, imansız adlandıranlar var. Zaman-zaman mətbuatda belə yazıları oxuyursuz. İndi fikirləşin, bir əsrdən də bir az çox əvvəli. Ola bilər ki, Zərdabinin üz tutduğu bəylər də XXI əsrdə düşünənlər kimi düşünüb. Nə isə, bunu qoyaq bir kənara.*

*Qarabağlıları, yuxarıda hansı dərdləri çəkdiklərini yazdığım, hansı ağrıları yaşadıqlarını yazdığım qarabağlıları bu qədər türklər demiş, aşağılamaq, alçaltmaq görəsən, kimlərə lazımdı? Bunları mətbuata çıxarıb onsuz da üstlərində göz yaşlarından başqa, içlərində ağrı-acılardan başqa heç nəyi olmayan bu camaatı niyə çərlədirsiz?*

*Doğrudanmı Qarabağ bəyləri belə nanəcib insanlar olublar? Qarabağ bəylərini xəsislikdə ittiham edənlərə çox yox, bir neçə misal örnək gətirəcəm.*

*Bəy böyük tituldu. Nə bilim, ruslar buna qraf deyir, knyaz deyir, ingilislər lord, milord deyir, ümumiyyətlə, Avropada baron, markiz deyirlər, yəni əsilazadələr.*

*Təbii ki, Qarabağ bəyləri də əsilzadələr idi. Ən aşağısı Qarabağ xanlığının əsasını qoyan, Şuşanı tikən Pənah xanın nəslindən idi. Düzdür, Qarabağda Səfəvilərin və Qacarların nəslindən olan bəylər də vardı.*

*Xan qızı Natəvan, yadımdan çıxıb, deyəsən təxminən 17 kilometrdən öz şəxsi vəsaiti hesabına Şuşaya saxsı borularda su çəkdirmişdi. Su çəkilərkən bəzən sərt qayalıqlar çıxırdı qarşılarına. Xan qızı həmin qayalıqlar çıxan vaxt hər metrəyə fəhlələr üçün bir qızıl onluq qoyurdu ki, çapın bu qayaları. İki tərəfdən Şuşaya su gətirmişdi. Bütün var-dövlətini xeyriyyə işlərinə xərcləyirdi, şairlərə, sənət adamlarına xüsusi imtiyaz tanımışdı.*

*Məmməd bəy Batmanqılıncın nəvəsi Əhməd bəy Cavanşir Ağdamla Ağcabədinin arasındakı kəndlərə kəhriz vurdurmuşdu ki, kasıb camaatın məhsulu yanmasın. Məktəblər açmışdı və hətta özü kasıb balalarına dərs deyirdi ki, millət təhsil alsın. Aclıq illərində öz taxılını pulsuz-parasız camaata dağıdırdı ki, xalq aclıq çəkməsin. (Əhməd bəyin qəribə bir rəvayətini yaxın nömrələrdə yazaram).*

*Əhməd bəyin qızı Həmidə bəy (bəli, xalq ona xanım demirdi, hünərinə, cəsarətinə, mərdliyinə görə bəy deyirdi) Qarabağda yoluxucu xəstəlik yayılanda eşi Mirzə Cəlillə birlikdə kəndbəkənd düşüb bəlkə minlərlə adamı öz vəsaiti hesabına peyvənd edirdi. Həmin vaxt yalnız Zeynalabdin Tağıyev kömək üçün Həmidə bəyə müəyyən qədər pul göndərmişdi. Həmidə bəy Səttar xan hərəkatına maddi yardım eləmişdi.*

*"Qeyrət" mətbəəsini alıb Mirzə Cəlilə bağışlamışdı ki, "Molla Nəsrəddin" , (özü də bu gün bizim üçün az qala müqəddəs bir kitaba çevrilmiş) jurnalını nəşr etdirib bu millətin ağrılarını bütün Şərqə çatdıra bilsin.*

*Deyə bilərsiniz ki, bunu eşinin (ərini yazmıram, bu sözü xoşlamıram, elə eşi gözəldi, yəni özünün bir parçası) Mirzə Cəlilin xətrinə eləmişdi. Elə deyil, o, bunu Azərbaycan xalqının xətrinə eləmişdi.*

*Sabir xəstələnəndə ona ilk yardımı da Həmidə bəy eləmişdi. Nəinki yardım eləmişdi, hətta onu öz evinə gətirmiş və uzun müddət Mirzə Cəlillə birgə sağlamlığı ilə məşğul olmuşdu. İndi Həmidə bəy eşitsəydi ki, "Hop-hopnamə"nin nəşri ilə bağlı pul lazımdı, o pulu artıqlaması ilə Zərdabiyə göndərməzdimi?! Sabir Həmidə bəy haqqında demişdi ki, mən belə bir mərd, qeyrətli, kişi xasiyyətli xanım görməmişəm.*

*Yoxsa indiki bəylər kimi həmin pula villa tikdirərdi, birini Bayatda, birini Kəhrizlidə, birini Şuşada, birini Parisdə, birini Karlovı Varıda və sair və ilaxır. Həmidə bəydən çox yazmıram, imkanınız varsa Mehriban Vəzirin çox böyük çətinliklə üzə çıxarıb nəşr etdirdiyi "Xatirələrim" kitabını oxuyun.*

*Kərim bəy Cavanşir (Bayat bəylərbəyi) öz vəsaiti hesabına Qarabağda xəstəxanalar tikdirirdi, məktəblər tikdirirdi.*

*İsmayıl bəy Qarabağ atlarının nəslinin kəsilməməsi üçün Ağdamda Atçılıq zavodu tikdirib.*

*Qasım bəy Zakir bütün var-dövlətini kasıb-kusuba paylayırdı.*

*Bədəlbəylilər Şuşada, Ağdamda, Ağcabədidə məktəblər tikirdilər, teatr açırdılar. Hətta Bakıda ilk məktəbi də onlar açıb.*

*Qarabağ bəyləri Şuşada bu günki universitet təhsili verə biləcək Realnıy məktəblər açırdılar ki, kasıb-kusubun, yetim-yesirin uşağı gəlib olxusun.*

*Qarabağ bəyi Firudin bəy Köçərli öz vəsaiti hesabına Qazaxda Qori seminariyasının filialını açmışdı.*

*Şərqdə ilk operanı yazan və bu gün Azərbaycanı dünyada tanıdan Üzeyir Hacıbəyov Qarabağ bəyi idi.*

*Qarabağ bəylərinin sonuncu mogikanlarından olan Seyid Şuşinskinin nə qədər gənci oxutmasından, nə qədər insanlara xeyirxahlıq göstərməsindən xəbəriniz yoxdusa, günah məndə deyil.*

*Fikrət Əmirov Qarabağ bəyinin oğlu idi.*

*Fərhad Bədəlbəyli Qarabağ bəyinin nəvəsidi.*

*Day bəsdi. Yoxsa, gərək bütün qəzeti doldurum.*

*Çox güman ki, Zərdabi Şuşada Əbdürrəhim bəy Haqverdiyevin yazdığı "çertvyortıy sort" bəylərə rast gəlib.*

*İndi 25 ildi Qarabağ yoxdu, torpaq yoxdusa onun yetişdirdiyi bəylər də yoxdu. Əgər bizə mane olan Qarabağ bəyləri idisə, indi onlar da yoxdu. İndiki bəylər məsələni həll eləsin də. Vaqif Cəbrayılzadənin bir şeirində gözəl bir yer var:*

*Çərx başına gəlməyənləri*
*Çərlədin,*
*Çərlədin,*
*Öldürün!*

*Bəsdir də bu camaatı çərlətdiniz, gedin işinizlə məşğul olun. Gedin görün Təranə Qumralla Nazəninin davasının axırı nə təhər oldu?!*

*30.12.2017*



*Seyfəddin Altaylı*

# UZUN ZAMANDAN SONRA

*"Yoldaşların ən yaxşısı gözəl əxlaq, dostların ən yaxşısı ağıl, ədəb və tərbiyə ən gözəl miras, özünü bəyənməkdən daha böyük cəhalət və təəssüb ola bilməz"*

*Hz. Əli*

**Əziz və istəkli dostlar!**

**Uzun müddət oldu yazılarıma fasilə vermişdim. Səbəbi səhlənkarlığım və ya özgə bir problem deyildi. İzzəddin Həsənoğlunun "Kitabi-Sirətün-Nəbi" adlı əlyazma əsərini çapa hazırlayırdım. əsər üstündə dörd ildən artıq işlədim. Düzünü deyim məni çox yordu. Yalnızca o da deyil. O əsərlə bağlı elmlər doktorluğu dissərtasiyamı da hazırlamalıydım. Yəni nə başınızı ağrıdım, iki işi birdən görüb qurtarmalıydım, üstə gəl universitetdəki dərslərim...**

**İnşallah bundan sonra artıq yazılarımı fasiləsiz davam etdirəcəyəm, çünki ağır işlərimi artıq yola salmış kimiyəm, bircə qalıb müdafiəm onu da inşallah həll edəcəyəm...**

**Həsənoğlunun "Kitabi-Sirətün-Nəbi" adlı əsəri ədəbiyyat və dil tariximiz üçün elə əvəzsiz bir tapıntı və sərvətdir ki, düzünü deyim onu təsvir etməkdə çətinlik çəkirəm. əsəri qurtarıb çapa verdim və inşallah bu il uzaq başı sentiyabra kimi işıq üzü görəcəkdi. İndiyə kimi onun yalnızca üç türkcə qəzəlindən xəbərdar idik və onun irsini ancaq bu şeirlərlə öyrənməyə çalışırdıq. Tərcümeyi-halı barədə də yalnızca Dövlətşah Səmərqəndinin beş altı sətirlik qeydlərindən özgə heç nə bilmirdik. Bu zaman ərzində onun tərcümeyi-halı və şeyxi haqda da dolğun məlumatlar əldə etdim.**

**Həsənoğlu 13-cü yüzillikdə İsfərayində doğulub, Azərbaycanda yaşayıb və doğulduğu yerdə də Tanrısına qovuşub. Yazdığı əsərinin aradan beş yüz il ötdükdən sonra İstanbulda üzünün köçürülməsi Həsənoğlunun nə boyda böyük və Anadoluda sevilən bir şair olduğunu da sübut edir. Sözün burasında ürək ağrısı ilə deməliyəm ki, onun qəbri uçmuş halda idi. İsferayindəki dostlarla əlaqə saxladım, müəyyən işlərin görülməsi yolunda məsləhətləşdim və əvəzsiz şairimizin məzarını bərpa etdilər, ancaq molla hakimiyyəti onun məzarının Güney Azərbaycan gəncliyinə milli kimliyini aşılamaqda kömək olar deyə qorxu-hürküyə qapıldı və şovinist farslar məzarı dağıtdılar. Mollanın mədəniyyətə hörməti deməli bu qədər imiş...**

**Həsənoğlunun yaşadığı çağda Ziya Göyalp demişkən "ağzımızda anamızın ağ südü kimi təmiz" olan dilimiz təzyiq altına düşmüşdü. Biz millət olaraq 11-ci yüzillikdə İslam dinini qəbul etdik. Əslində islam orduları ilə üzləşməyimiz 7-ci yüzillikdən başlayaraq davam etmiş və ərəblər tutduqları yerlərdə qırğınlar, qarətlər törətmişdir. 751-ci ildə ərəb ordusu ilə çinlilər arasında gedən Talas döyüşündə biz ərəb ordusuna arxa durduq, çünki çinlilər tarix boyu düşmənimiz olmuşdu və Çin ordusunun məğlub olmasını istəyirdik, arzumuz reallaşmışdır. Çinlilər bu məğlubiyyətlə min il Türküstana ayaq qoya bilməmiş və bu müddət ərzində Türküstan türkləri asudə həyat yaşamışdır. Azərbaycan da satrateji mövqeyinə görə ərəb işğalına uğramış, bu olaylardan sonra ərəb dili yavaş-yavaş mənimsənməyə başlamışdır. Əslində islam dinini daha çox qonşu farslar səbəbilə qəbul etmiş və beləliklə farsca ədəbi, ərəb dili də elm dilimiz olmuşdur. 13-cü yüzilliyə gəldikdə artıq türkcə deyilə bilər ki, xorlanmağa, unudulmağa başlanmışdır. 13 may 1227-ci ildə Qaramanoğlu Məhməd bəyin vəzir seçildiyi divan yığıncağında dilimizlə bağlı bir fərman yayılaraq "İndən belə divanda, dərgahda, bargahda türkcədən özgə dil danışılmayacaqdır" deyilərək xalqa xəbərdarlıq edilmişdir. Bu hadisədən sonra da türkcəyə dönüş başlamışdır. Belə bir zamanda İzzəddin Həsənoğlu Azərbaycanda, Əhməd Fəqih, Yunus Əmrə, Şəyyad Həmzə, Aşıq Paşa kimi şəxsiyyətlər də Anadoluda ölmək üzərə olan dilimizə can vermişlər. 14-cü yüzillikdə yaşayıb 15-ci yüzilliyin şairi olan Şeyxoğlu Mustafa (1340-1409) Xurşidnamə adlı əsərində bunları yazmışdır:**

**"Türkcə kobud, ədəbi yöndən zəif və digər dillərə nisbətlə o qədər də məşhur deyil. Ancaq türk dilində şeir yazmağımın səbəbi Anadoluda hər bir şəxs bu dildə danışır buna görə bu dildə yazdım."**

**Düşünün ki, Şeyxoğlu Mustafadan iki əsr öncə yaşamış Həsənoğlu 367 vərəqlik bir əsər yazır və onun dili bugün Güneyli Qüzeyli Azərbaycanın hər tərəfində, Anadolunun ucqar kəndlərində yaşayır. Həsənoğlunun nəhəngliyi də bundandır. Nümunə olaraq onun həmin əsərindən dörd beyti təqdim ədirəm.**

**Söyləgil ey ğeyb elinin bülbüli
Ğeyb elindən mi gətürdün bu güli**

**Könlüni tutma cihanda qayğulu
Bu cihan qayğuyilə toptolu**

**Sən nəsin bu cihanın kim ğəmin
Ha cəkərsin bir qonuğısın həmin**

**Dəxi yerdən sən buna aldanmağıl
Tiz gidərsin əglənürüm sanmağıl**

**Yaşadığımız bu müstəqillik çağında türk dünyasının hər bir küncündə yeni nəsillərimizi dilimizlə, mədəniyyətimizlə, mifologiyamızla, tariximizlə silahlandıra bilirikmi!?**

**Düzünü deyim o qədər də nikbin deyiləm. Bir neçə ay bundan əvvəl bir jurnalist şəhərdə əlindəki mikrofonu xüsusilə cavanlara tutub sorğu aparırdı. Hər gəncə sual verirdi ki, Türkiyənin qonşuları kimlərdirə Gənclərin verdiyi cavablar isə vahiməli idi: Rizə, Antalya, Trabzon, Adana, və s. Yaşadığı ölkəsinin qonşuları kimdir, bunu bilməyən gənclərdən nə gözləmək olar!? Türkiyənin təlim sistemi bu hala salınmışdır, böyüklər duysun...**

**İndi ölkələrimizdə artıq uşaq bağçasından etibarən balalar xarici dilləri öyrənirlər. Əlbəttə bir insan neçə dil bilirsə o qədər insan sayılır və yaxşıdır, ancaq bir insanın ağız qurğusu yeddi yaşına kimi öz ana dilinə görə uyğunlaşır. Uşaqlara xarici dilləri öyrədək, ancaq öz ana dilini və tarixini kamilən mənimsədikdən sonra, yəni orta məktəbdən başlayaraq.**

**Hz. Əli demişkən, uşaqlarımıza gözəl əxlaqı, yaxşı dost seçməsini bacarmağı, ata-ananın ən gözəl mirası kimi ədəb və tərbiyəni, təvazökarlığı öyrətməz isək onları özünə yadlaşmış, tarixindən, kimliyindən xəbərsiz, ancaq öyrəndiyi xarici dildə təfəkkür edərək özünü bəyənən cahillər kimi yetişdirmiş olarıq.**



*Elxan Şükürlü*

# Tehranın qarşısında əsas tələblərdən biri...

***İran-Azərbaycan münasibətlərindəki gərginliyin götürülməsi istiqamətində daha bir mühüm addım atılıb.***

***Yayılan qeyri-rəsmi xəbərlərə görə, Azərbaycanda müxtəlif cinayətlər törətməkdə suçlandırıldıqlarından qaçıb İrana sığınan və bu ölkə üzərindən Azərbaycan dövləti əleyhinə fəaliyyət göstərən, Azərbaycanda hakimiyyəti devirməyə çağırışlar edən və bu məqsədlə də ölkəmizdəki dindar təbəqənin inancından sui-istifadəyə çalışan "Hüseyniyyun" təşkilatının rəhbərləri həbs ediliblər. Həmin adamların fəaliyyətlərinin qarşısının alınması, ölkəmizə və ya üçüncü bir dövlətə təhvil verilməsi, ardınca da Azərbaycan və İran arasında qarşılıqlı şəkildə bir-birinin ərazi bütövlüyünə, dövlət suverenliyinə hörmət əsasında qurulan münasibətlər, şübhəsiz ki, regionda sabitlik və tərəqqi düsturu sayılan "3+3 formatı"nın Türkiyədəki prezident seçkilərinin başa çatmasından sonra daha sürətlə gerçəkləşdirilməsi işinə də təkan verəcək.***

***Xatırladaq ki, Azərbaycan tərəfi İranla münasibətlərin bərpası üçün həmin şəxslərin tutulub ölkəmizə təhvil verilməsini rəsmi Tehranın qarşısında əsas tələblərdən biri kimi irəli sürmüşdü.***

# Aqil Abbasla görüş keçirildi



**Mayın 3-də Ağcabədi Regional Mədəniyyət İdarəsi Ağcabədi rayon MKS-nin Bayat kənd kitabxana filialının təşkilatçılığı ilə yazıçı, jurnalist, Azərbaycan Milli Məclisinin deputatı, əslən Ağcabədinin Bayat kəndindən olan Aqil Abbasla görüş təşkil edilib.**

Adalet.az xəbər verir ki, görüşdə Ağcabədi rayon Mərkəzi Kitabxanasının əməkdaşları, 1 N-li Hindarx qəsəbə, Bayat, Qaraxanlı, İmamqulubəyli, Poladlı, Hacılar kənd kitabxana filialları, Hindarx qəsəbə Klubları, Bayat kənd orta məktəbinin müəllim və sagird kollektivi və kənd əhalisi iştirak ediblər.

Tədbirdə çıxış edən Ağcabədi rayon MKS-nin direktoru M. Əliyeva, Ağcabədi rayon MKS-nin direktor müavini T.Məmmədova, Bayat kənd kitabxana filialının müdiri T.Quliyeva, Bayat kənd orta məktəbinin kitabxanaçısı İ.Hüseynova, 1 N-li Hindarx qəsəbə kitabxana filialının müdiri V.Məmmədova, Müharibə Veteranı Qadınlarına Sosial yardım İctimai Birliyinin sədri Radə Abbas, şair, publisist Əbülfət Mədətoğlu, məktəblilər, kənd əhalisi və başqaları Aqil Abbasın öz həmyerlilərinə olan qayğısından, yazdığı əsərlərindən ətraflı söhbət açıblar. Görüş zamanı Aqil Abbas həm kitabxana əməkdaşlarının, həm də tədbirdə iştirak edənlərin suallarını cavablandırıb.

Daha sonra Aqil Abbas təzə nəşr olunmuş kitabı - "Çay qırağında bitib, susuz qalan ağacların sağlığına" adlı kitabını hədiyyə olaraq həm kitabxanaya həm də onu sevənlərə hədiyyə edib.

**Sonda Aqil Abbasla xatirə şəkli çəkdirilib.**

**Sübhan**



# Mətbuat xidmətlərinin rəhbərləri üçün master-klas təşkil olunur

**Media Təhlil Mərkəzi Heydər Əliyev Mərkəzinin, Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin, ADA Universitetinin dəstəyi və MAS MMC-nin texniki köməkliyi ilə dövlət, qeyri-hökumət və digər təşkilatların mətbuat xidmətlərinin rəhbərləri üçün növbəti dəfə master-klas təşkil edir.**

Adalet.az xəbər verir ki, tədbirdə açılış nitqi ilə çıxış edən Azərbaycan Respublikası Prezidentinin Administrasiyasının Qeyri-hökumət təşkilatları iş və kommunikasiya şöbəsinin əməkdaşı Cəmalə Əliyeva qeyd edib ki, təlimin məqsədi ölkədə həyata keçirilən media və kommunikasiya islahatlarına töhfə vermək, kommunikasiya sahəsinin hazırki dinamik mühitdə inkişafını təşviq etmək, kommunikasiyaya məsul şəxslərin bilik və bacarıqlarını daha da təkmilləşdirməkdir. Media Təhlil Mərkəzinin baş mütəxəssisi Yunis Orucov isə çıxışında bildirib ki, MTM tərəfindən növbəti dəfə təşkil olunan beynəlxalq təlim mətbuat xidmətlərinin rəhbərlərinin peşəkar bacarıqlarının daim təkmilləşdirilməsi və inkişafı, bu sahədə effektivliyin artırılması məqsədi daşıyır: "Təlim müddətində iştirakçılar müzakirələrə qoşulacaq, sosial media təşəbbüslərinin inkişaf etdirilməsi ilə bağlı sessiyalarda iştirak edəcəklər.



Əminəm ki, bugünkü təlimdə veriləcək məlumatlar onlar üçün çox faydalı olacaq". Tədbirdə çıxış edən Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin İcraçı direktoru Əhməd İsmayılov bildirib ki, təlimin təşkil edilməsində əsas məqsəd ictimaiyyətlə əlaqələrə məsul şəxslərin peşəkar bacarıqlarının təkmilləşdirilməsi və inkişaf etdirilməsi, kommunikasiya sahəsində ən son tendensiyaların və qabaqcıl təcrübələrin öyrənilməsi, effektiv ünsiyyətin təmin edilməsi, dövlət və qeyri-hökumət təşkilatları ilə ictimaiyyət arasında qarşılıqlı münasibətlərin möhkəmləndirilməsidir. Əhməd İsmayılov vurğulayıb ki, qurum və təşkilatların kommunikasiya siyasətinin təhlili və tədqiqi, uğurlu modellərin araşdırılması, faydalı metodik mexanizmlərin və texnikaların müəyyən edilməsi PR menecerlərin fəaliyyətinin səmərəliliyinin artırılması baxımından mühüm əhəmiyyət kəsb edir. Media Təhlil Mərkəzi yerli media nümayəndələrinin, xüsusilə də mətbuat xidmətlərinin rəhbərlərinin peşəkar bacarıqlarının təkmilləşdirilməsinin və inkişafının vacibliyini, bu sahədə effektivliyin artırılmasının zəruriliyini nəzərə alaraq beynəlxalq təşkilatlarla sıx əməkdaşlıq edir. Bu əməkdaşlıq çərçivəsində artıq ikinci dəfə baş tutacaq master-klası London şəhər Universitetinin jurnalistika üzrə professoru, "The Media Society" təşkilatının vitse-prezidenti, İcmalar Palatasında media məsləhətçisi kimi çalışan Barni Cons və qlobal kampaniyaların, mürəkkəb məsələlərin idarə edilməsi sahəsində təcrübəli kommunikasiya və marketinq üzrə mütəxəssis Tobi Orr aparacaq.

Müxtəlif sessiyaları əhatə edəcək 3 günlük təlim 3-5 may tarixlərində ADA Universitetində keçiriləcək. İştirakçılar müsahibələr yolu ilə fərqli və peşəkar müzakirələrə qoşulacaq, sosial media təşəbbüslərinin inkişaf etdirilməsi ilə bağlı praktiki sessiyalarda iştirak edəcəklər. Sonda iştirakçılara sertifikatlar təqdim olunacaq.

**Qeyd edək ki, master-klasın keçirilməsində əsas məqsəd mətbuat xidmətlərinin rəhbərlərinin işini daha da təkmilləşdirmək, onların fəaliyyətini müasir kommunikasiya sistemlərinə uyğunlaşdırmaq və şəffaflığı təmin etməkdir.**

# Şəhid hərbçimizin xanımı: "İkinci dəfə ailə qurmağımın peşmançılığını çəkirəm..."

**Adalet.az-ın əməkdaşı "qadın taleyi" rubrikasında daha bir qadının həyat hekayəsini təqdim edir. Bu dəfə sizə Nazilənin (adı şərtidir) həyat hekayəsini təqdim edəcəyik. Nazilə deyir ki, həyat yoldaşı birinci Qarabağ savaşında şəhid olduqdan sonra ikinci dəfə ailə qurub və bu ailə həyatı da uğursuz olub. O, olanları belə nəql edib:**

### *"Onun bu qərarına qarşı çıxsam da..."*

"Həyat yoldaşım öz kəndlimizdi, indi şəhid kimi hamı onu tanıyır. 1992-ci ildə biz ailə quranda Qarabağda müharibə gedirdi. Ailə qurduq və bir neçə ay sonra o, könüllü olaraq Qarabağ müharibəsinə getdi. Onun bu qərarına qarşı çıxsam da, razılaşmadı və mən onda artıq hamiləydim.

Döyüşdə olanda ayda imkan olanda bir dəfə evə gəlib dəyib qayıdırdı. Həmişə də deyirdim ki, qayıt bu yoldan, elə bil hiss edirdim ki, nəsə olacaq".

"1993-cü ilin qarlı qış günüydü. Doğuş sancılarım başladı və məni xəstəxanaya yerləşdirdilər. Oğlum dünyaya gəldi. Amma yaxınlarım yanıma gəlib-gedəndə heç də üzləri gülmürdü. Bilmirdim nə olub. Soruşanda da deyirdilər ki, heç nə olmayıb, salamatçılıqdı.

Həyat yoldaşımdan xəbər bilmək istəyirdim və deyirdilər ki, elə sonuncu dəfə evdən gedəndi, biz də xəbər bilmirik".

### *"Həmin an elə bil dünya başıma uçdu..."*

"Mən bir neçə gün sonra körpəmlə xəstəxanadan evə qayıtdıqdan sonra dedilər ki, həyat yoldaşın şəhid olub. Həmin an elə bil dünya başıma uçdu.

Ondan sonra elə ata evimizdə qalmağa başladım. Bir ili tamam olandan sonra yaxınlarım dedi ki, ailə qurmalısan, belə yaşaya bilməzsən. Özüm də fikirləşdim və övladımı anamgildə qoyub bir adamla ailə qurdum. Amma o, qonşu rayonlardan birində yaşayırdı".

"Oğlum nənəsigildə böyüyürdü. Həmişə gəlib ona dəyirdim. Amma bu qərarıma görə kənddə məni çox adam qınadı. Heç kim istəmirdi ki, şəhid yoldaşı olduğum üçün ikinci dəfə ailə qurum. Bu dəfə bir qızım dünyaya gəldi. Qızım böyüdü indi isə ailəlidir. Amma qızımın 15 yaşı olanda atasıyla yola getmədik və ayrıldıq.

Mən qızımı da götürüb oğlumun yanına qayıtdım. Oğlum böyükdü, ailə də qurub, öz



ev-eşiyi var. Oğlum bizi öz evində saxladı, bacısını ərə verdi. Mən isə hələ də ikinci dəfə ailə qurmağımın peşmançılığını çəkirəm. Elə şəhid ərimin adını daşısaydım, bundan yüz dəfə yaxşıydı".

**Vasif Əlihüseyn**

# "Komandos"un 4 mayda imzaladığı "əmr" - 31 il əvvəl "Dağlarda toy"a hazırlıq

**May ayının ilk günləri başlar- başlamaz yadımıza əbədi həkk olunan günlərin acısını yenidən yaşamağa başlayırıq.**

Azərbaycan xalqının mübarizə əzminin qırılılmasına, Qarabağın sarsılmaz qalası Şuşanın Ermənistan və Rusiya silahlı birləşmələrinin birgə əməliyyatları nəticəsində işğala məruz qalmasına sayılı günlər qalıb.

Adalet.az xəbər verir ki, ermənilərin "komandos" adlandırdıqları general-mayor Arkadi Ter-Tadevosyan Şuşanın işğalında adı keçən cinayətkarlardan biri idi. 4 may 1992-ci il tarixdə Ter-Tadevosyan Şuşa şəhərinə hücum üçün əmr imzaladı. Həmin əmr Şuşanın işğalını nəzərdə tutan "Dağlarda toy" əməliyyatının başladılmasına "qanuni



şəkildə" göstəriş idi. Əslində Xocalı soyqırımından sonra qarşılarında onları cəzalandıra biləcək güc görməyən işğalçılar Şuşa üzərinə hücumlara elə o vaxtdan hazırlıq görməyə başladılar. Amma Arkadi Ter-Tadevosyanın "əmr"indən sonra ermənilərin cəbhə boyu Azərbaycan kəndlərinə hücumlarını daha da genişləndirdilər. 1992-ci il may ayının 6-da Yura Ovanesyan Canhəsən istiqamətindəki Azərbaycan mövqelərinə bir neçə sarsıdıcı zərbələr endirərək, mövqeyini dəyişib Şuşa şəhərinə doğru istiqamətləndi. Canhəsən-Kosalar istiqamətindəki Yura Ovanesyanın başladığı döyüşün davam etdirilməsi tapşırığını 26-cı bölmə öz üzərinə götürdü.

Burada erməni ordusunun əsas məqsədi Azərbaycan döyüşçülərinin diqqətini Canhəsən-Kosalar istiqamətiə cəlb etməklə Şuşa şəhərini mühasirəyə salmaq idi. Əsas yol olan, 37 km-lik Ağdam - Şuşa yolu da ermənilərin əlinə keçdi.

Ermənilər 1992-ci ilin 28 yanvarında Şuşa səmasında içərisində 44 sərnişin olan təyyarəni amansızcana partlatdıqdan sonra hava yolu da ermənilərin nəzarətinə keçdi.

Şuşalıların ermənilərə əsir düşməməsinin yeganə səbəbi və Azərbaycanla yeganə əlaqəsi 537 kilometrlik- Akara yolu oldu .

**(Davamı olacaq)**

**Əntiqə Rəşid**

*Aqil ABBAS*

# ŞAİR, QƏZƏL OXUMA, GET ŞEİRİNİ YAZ DANA...

***Bir istedadlı şair var - Şəhriyar del Gerani, maraqlı və gözəl də şeirlər yazır, ədəbi cameədə də az-çox hörməti var. Amma nədənsə oturub şeirlərini yazmaq əvəzinə ucuz gündəmə qaçır. Yetənə yetir, yetməyənə də bir daş atır.***

***O gün Mirzə Cəlilə daş atmışdı, bu gün də Qarabağ camaatına daş atmayıb ey, top atıb.***

***Qarabağ camaatının indi-indi yarası qaysaqlayır, indi-indi özlərinə gəlirlər. Otuz ildən sonra gedib doğmalarının məzarlarını da tapa bilmirlər. Yenidən bu yaranın qaysağını qoparmaq kimə lazımdı, nəyə lazımdı, kimin sifarişidi, haranın sifarişidi?***

***Həsən bəy Zərdabi haçansa Qarabağ bəylərini qeyrətsiz adlandırıb, zaman-zaman da bunu təkrar eləmək, on mindən çox şəhid vermiş bir camaatı təhqir eləmək və bunu gündəmə gətirmək, camaatın heysiyyatı ilə oynamaq heç kimə şərəf gətirməz.***



***Heç Zərdabiyə də. Əvvəla, Zərdabiyə pul lazım idisə niyə Bakı milyonerlərindən istəmirdi? Sonra da öz elindən-obasından, Şirvan bəylərindən istəmirdi, basa-basa gedirdi Şuşaya?!***

***Yeri gəlmişkən. Əlimərdan bəy Topçubaşov Həsən bəy Zərdabinin qızına elçi gedəndə bizim bu görkəmli ziyalı Topçubaşovdan 10 min rubl başlıq parası istəmişdi. Əlimərdan bəy də demişdi ki, indi o pulum yoxdu, söz verirəm ki, toydan yığılan puldan həmin başlıq parasını ödəyərəm. Nə isə...***

***Mən bu məsələ ilə əlaqədar bir dəfə bir ciddi yazı yazmışam, yəqin ki, beşinci gün qəzetində təkrar çap edərəm.***

***Şair, erməni kitabını çap eləmək istəyir eləsin də, sən qarabağlıları niyə təhqir edirsən?!***

***Bir status yazıb, belə qərara gəldim ki, həmin statusu da çap edim, altında yazılan şərhləri də. Qoy oxucu görsün kim haqlıdır.***

***Vurğun vurmuş, çər dəymiş bir camaatı yenidən çərlətməyin dana, indi-indi özümüzə gəlirik.***

***Buyurun, statusu da oxuyun, altındakı şərhləri də, özünün sosial şəbəkədəki paylaşımında.***

***Yeni kitab çıxarmaq istədiyimizi və maddi imkanımızın olmadığını yazmış idim o gün. Dünən əslən öz ermənimiz olan bir oxucum bütün xərcləri qarşılayacağını dedi və məni tarixə yenidən baxmağa sövq etdi. Əvvəla Azərbaycan vətəndaşı olan əslən erməni oxucuma dəruni ehtiramımı bildirir, əllərindən öpür, bağrıma basıram. Demək istəyirəm ki, narahat olmasın, qədim dostum, naşir Şahbaz Xuduoğlu məsələni üzərinə götürdü, söhbət ən peşəkar səviyyədə həll olunacaq sağlıq olsun.***

***Sözüm ona, bəs Mirzə Ələkbər Sabirin İLK kitabını niyə ERMƏNİLƏR çıxardıb?***

***Həsən bəy Zərdabinin kədərli bir qənaəti var. Yazır, "Bir erməni Mkrtçda olan qeyrət Qarabağ bəylərinin tamamında olmadı."***

***Bütün bunlara aydındıq gətirmək həvəsim yoxdur. Kimə maraqlıdır zəhmət çəksin, axtarış verib oxusun, öyrənsin, namusunu itiləsin. Bilmək istədiyim isə bu: Müasir Azərbaycanda elə bir adam varmı hansısa ciddi bir şairin, yazıçının kitabını çap etdirsin? Gördüyümüz və bildiyimiz kimi tariximizdə bu mübarək işi yalnız və yalnız ERMƏNİLƏR edib bizim qələm adamları üçün. İndi də ERMƏNİLƏR etməyə hazırdır. Gördüm. Niyə belədir? Sual budur: Ni-yə be-lə-dir? Vəs-Salam!***

***P.S.** Axundovun "Tüpürüm sizin üzünüzə!" nidası son vaxtlar dilimin virdidir. Lənət şeytana!*

# İSVEÇRƏ DƏ CƏNNƏTDİ, AMMA KƏLBƏCƏRİN YANINDA YOX

**Müsahibələrimin birində (əslində birində yox, dəfələrlə müsahibələrimdə) demişəm ki, Kəlbəcər cənnətdi və yer üzündə də tayı-bərabəri yoxdu. Sözümün üstündə dururam, hamıyla da mübahisə etməyə hazıram. Həmin müsahibəmi sosial şəbəkədə paylaşıblar və altından da insanlar öz fikirlərini bildiriblər.**

**Bir dost isə bunu mənə irad tutub və yazıb ki, bəs İsveçrə?**

**İsveçrə də cənnətdi, səfalı bir yerdi, gözəl bir yerdi, amma Kəlbəcərin yanında yox. Allah Kəlbəcərdən heç nə əsirgəməyib. Elə təkcə Ağdərədən Kəlbəcərə gedən yoldakı təbiətin gözəlliyi, yolun sağ tərəfində Allahdan başqa heç bir heykəltəraşın imkanları xaricində olan qayalardakı sal sütunlar. Həmin sütunları "Bir qalanın sirri" filmində rejissor çox gözəl nümayiş etdirib. Baxmaq istəyən baxa bilər. Mən hələ İstisuyu-filanı kənara qoyuram, Dəlidağın bir gündə ən azı on dəfə dəyişən havası, kiçik bir ərazidə hərəsinin öz dadı olan Yüzbulaqdakı yüz bulaq, Xanım dərəsi, bal dadan min bir çiçək və sair və ilaxır, bunlar İsveçrədə yoxdu. Sadəcə olaraq, İsveçrəyə gözəllik qatan səliqəli qəsəbələridi və bu qəsəbələrdəki hasarsız kənd evləridi. Və bir də səliqə-sahmanlı tarlaları, əkin yerləri.**

**İnşallah, Kəlbəcər yenidən tikilir və elə İsveçrədəki qəsəbələr kimi, səliqəli-sahmanlı tikiləcək və qəsəbələrdəki, bu şəhərdəki evlərin də hasarı olmayacaq. Ağalı kəndində və Talışda olduğu kimi.**

**Necə ki Laçın da indi elə tikilir.**

# AZTV-nin adından dələduzluq: Sosial şəbəkələrdə....




**Sosial şəbəkələrdə müxtəlif adlarla fəaliyyət göstərən qumar, mərc oyunları şəbəkəsinin reklam çarxlarında AZTV-nin loqosu, həmçinin tanınmış xəbər aparıcılarının görüntülərindən istifadə etməsi ilə bağlı AZTV-nin mətbuat katibi Rüfət Seyidovla əlaqə saxladıq.**

Adalet.az-a danışan Rüfət Seyidov qeyd etdi ki, mənim özümün də "ARB 24"-də işləyəndə görüntümdən istifadə ediblər. Deməli bunların heç biri müəllif hüquqlarının qorunmasına məhəl qoymurlar və kökləri də bilinmir. "ARB 24"-dən Anar Rəsulovun ," Məşğulluq agentliyi"ndən Əsmər Nəcməddinqızının da görüntülərindən istifadə ediblər. Mən hələ tam başa düşə bilmirəm ki, bunu hardan götürürlər, necə istifadə edirlər. Televiziya bir addım ata bilmir, çünki bunun kökü gedib fərqli-fərqli yerlərə çıxır. Hüquq-mühafizə orqanlarına xəbər vermişik. Şəxsən nazirliyin mətbuat xidmətinin əməkdaşı Nurlan Əliyevlə də danışmışam. Onlar araşdırdılar, belə nəticə çıxdı ki, bu şəbəkənin kökü bilinmir. Amma yenə də məsələ nəzarətimizdədir.

**Eminquey**

# Heydər Əliyev və Məhkəmə-Huquq Sistemi



***Kərim Xudayev,***
***Baki şəhəri Yasamal Rayon Məhkəməsinin hakimi***

**Dünyada hər bir dövlətin qüdrəti, inkişafı və dayanıqlığı onun mənsub olduğu xalqın siyasi liderinin adı ilə bağlıdır. Güclü təməllər üzərində dayanan müasir Azərbaycan dövləti Ümumilli lider Heydər Əliyevin zəngin biliyi, siyasi təcrübəsi və nüfuzlu şəxsiyyətinin bəhrəsidir. Xalqımız Ulu öndər Heydər Əliyevin anadan olmasının 100 illik yubileyini yüksək səviyyədə qeyd edir və əziz xatirəsini ehtiramla anır. Dahi Heydər Əliyev müstəqil Azərbaycan Respublikasının dövlət quruluşunun konstitusion əsaslarını yaratmışdır.**

Azərbaycanın demokratik dəyərlərə sadiq müstəqil dövlət kimi formalaşması Ümummilli liderin böyük xidmətləri sayəsində mümkün olmuşdur. Bu baxımdan, 1993-cü ildə Heydər Əliyevin xalqın tələbi və çağırışı ilə hakimiyyətə qayıdışı Azərbaycan dövlət idarəçiliyinin yaradılması istiqamətində yeni mərhələnin əsasını qoymuşdur. Azərbaycan Respublikasında demokratik, hüquqi dövlətin qurulmasına nail olmaq, bu yolda öz tarixi, milli ənənələrindən bəhrələnərək ümumbəşəri dəyərlərdən səmərəli istifadə edilməsi Heydər Əliyev strategiyasının əsasını təşkil etmişdir.

Müstəqil Azərbaycan dövlətinin bütün sahələrində olduğu kimi, məhkəmə-hüquq sisteminin demokratik prinsiplər əsasında bərqərar edilməsi də məhz Ümummilli lider Heydər Əliyevin adı ilə bağlıdır. Azərbaycanın məhkəmə sisteminə innovativ hüquqi islahatları məhz Ulu öndər gətirmişdir. Böyük dövlət xadiminin rəhbərliyi ilə yeni Konstitusiya layihəsinin hazırlanması Azərbaycanda suveren məhkəmə hakimiyyətinin yaradılması istiqamətində mütərəqqi addım oldu. 1995-ci ilin noyabrında isə ümumxalq səsverməsi yolu ilə Azərbaycan Konstitusiyasının qəbul edilməsi məhkəmə-hüquq sisteminin inkişafı üçün dahi liderin özünün dediyi kimi, çox böyük bir sənəd idi. Yeni Konstitusiyanın qəbulu ölkədə hüquqi dövlətin qurulması istiqamətində geniş və hərfətərfli islahatların aparılmasına təkan verdi. Bu baxımdan, Azərbaycanda hakimiyyət bölgüsünün yeni əsaslarla təşkili, məhkəmə hakimiyyətinin yaradılması xüsusi qeyd edilməlidir. 1995-ci ildə ilk dəfə Azərbaycanda müstəqil məhkəmə hakimiyyəti Konstitusiyada təsbit edilmişdir. Ulu öndərin Azərbaycan xalqına bəxş etdiyi böyük töhfələrdən biri də Azərbaycanda Konstitusiya Məhkəməsinin yaradılmasıdır. Ölkəmizin Ali qanununun bir sıra maddələri 1998-ci ildə Konstitusiya Məhkəməsinin təşkili üçün zəruri olan mühüm hüquqi bazanı formalaşdırıb.

İctimai həyatın bütün sahələrində konstitusiya qanunlarının aliliyiı, insanların və vətəndaşların hüquq və azadlıqlarının həyata keçirilməsinin təmin edilməsi, dövlətin konstitusiya və qanunlar çərçivəsində fəaliyyət göstərməsi, beynəlxalq hüququn hamılıqla tanınmış prinsiplərinin və normalarının üstünlüyü, dövlət tərəfindən insan və vətəndaş hüquqlarının və azadlıqlarının tanınması və müdafiə edilməsi, dövlətlə şəxsiyyət arasında qarşılıqlı məsuliyyətin olması, məhkəmənin müstəqilliyi, hakimiyyət üzərində və konstitusiyaya əməl olunması üzərində məhkəmə nəzarəti, qanunçuluğun, şəxsi təhlükəsizliyin, ictimai qaydanın və ictimai təhlükəsizliyin təmin edilməsi müdrik Heydər Əliyevin Azərbaycanda demokratik, hüquqi dövlət quruculuğu siyasətinin əsas fəlsəfəsini təşkil edir.



Ümummilli liderin təşəbbüsü ilə 1997-ci ildə "Məhkəmələr və hakimlər haqqında" Qanun qəbul edildi. Qanunun tətbiq edilməsi və məhkəmə islahatlarının həyata keçirilməsinə dair Fərman imzalandı. Adıçəkilən qanun ədalət mühakiməsini həyata keçirərkən Azərbaycan Respublikası Konstitusiyasında təsbit edilmiş insan və vətəndaş hüquqlarının və azadlıqların, mülkiyyət formasından və ictimai mövqeyindən asılı olmayaraq digər şəxslərin hüquqlarının və qanuni mənafelərinin müdafiəsini nəzərdə tutur. Eyni zamanda, hər kəs qanun və məhkəmə qarşısında bərabərdir. Qeyd edilən müddəalar Heydər Əliyev şəxsiyyətinin böyük humanizm prinsiplərinə yüksək dəyər verdiyini təsdiq etməklə bərabər, Azərbaycan məhkəmə orqanlarının və hakimlərin vəzifə məsuliyyətini müəyyən edir. Qərəzsizlik, obyektvlik, ədalət, qanunun aliliyi və hakimlərin müstəqilliyinin təmin edilməsi Azərbaycan məhkəmə sisteminin fəaliyyətinin konstituson norma və prinsiplərini təşkil edir. Dahi liderin məhkəmə orqanları və hakimlər üçün təqdim etdiyi və müasir çağırışlara əsaslanan bu iş üsulu hal-hazırda Prezident İlham Əliyevin rəhbərliyi altında, beynəlxalq hüquqi standartlara uyğun həyata keçirilən məhkəmə islahatları vasitəsilə özünün mütərəqqi inkişaf mərhələsini yaşayır.

Ümummilli lider Azərbaycanda məhkəmə-hüquq sistemində aparılan geniş quruculuq işlərini və islahatları dəyərləndirərək demişdir: "Biz Azərbaycanın məhkəmə sistemini tamamilə yeni səviyyəyə qaldırdıq və demokratik prinsiplər əsasında yaratdıq".

Ulu öndər xalq və dövlət qarşısında böyük xidmətlər göstərərək Azərbaycanda üç instansiyadan ibarət müstəqil məhkəmə hakimiyyətinin yaranmasına uğurla nail olmuşdur. 1998-ci ildə Azərbaycan Respublikası Prezidenti yanında məhkəmələrin təşkil edilməsi, hakim vəzifəsinə namizədlərin seçilməsi, habelə məhkəmələr və hakimlərlə bağlı digər məsələləri öz səlahiyyətləri dairəsində həyata keçirmək məqsədilə Məhkəmə-Hüquq Şurasını təsis edən Dahi Heydər Əliyev Azərbaycan ədliyyə sisteminə özünün növbəti töhfəsini verdi. Ulu öndərin ardıcıl, məqsədyönlü və uğurla həyata keçirdiyi hüquqi islahatlar beynəlxalq səviyyədə Azərbaycana şöhrət gətirdi. 2001-ci ildə Azərbaycan Avropa Şurasının üzvlüyünə qəbul edildi.

Azərbaycan xalqının böyük oğlu Heydər Əliyev məhkəmələrin inkişafına daim diqqət yetirmişdir. Ulu öndərin təşəbbüsü ilə ədalət mühakiməsi zamanı işlərin prosessual baxımdan, düzgün və obyektiv həllinə şərait yaradılması, hakimlərin bilik və peşəkarlığının artırılması məqsədilə inkişaf etmiş ölkələrin təcrübəsinin öyrənilməsi, məhkəmə orqanlarının fəaliyyətinin beynəlxalq konvensiyaların və müqavilələrin tələblərinə uyğunlaşdırılması istiqamətində zəruri tədbirlər həyata keçirilmişdir.

**Azərbaycan Konstitusiyasının 8.4-cü maddəsinə əsasən, Azərbaycan Respublikasının Prezidenti məhkəmə hakimiyyətinin müstəqilliyinin təminatçısıdır. Bu, Azərbaycan məhkəmə sistemi üçün müdrik Heydər Əliyev tərəfindən müəyyən edilmiş fəaliyyət strategiyası deməkdir. Qeyd edilən maddə müstəqil məhkəmə hakimiyyətinin Ümummilli liderin banisi olduğu müasir Azərbaycan dövlətinin vacib, mühüm və dayanıqlı strukturu olduğunu bir daha təsdiq edir.**

# Ulu öndər Heydər Əliyev təhsilimizin böyük qayğıkeşi idi

**Bir milləti məhv etmək üçün onun elmini, təhsilini məhv etmək kifayətdir. Məhz bu konteksdən yanaşdıqda da, Ümummilli lider Heydər Əliyev Azərbaycan xalqını məhv olmaqdan xilas etdi. Ölkəyə rəhbərliyin ilk illərində sürətli iqtisadi inkişafın təmin edilməsini, Azərbaycanın dünyaya yaxından inteqrasiya olunmasını, beynəlxalq aləmdə nüfuzlu söz sahibinə çevrilməsini əsas məqsəd kimi seçən ümummilli lider ölkədə təhsil islahatları aparılmasının zəruriliyini vurğulayaraq, hər bir inkişafın elm və təhsildən asılı olduğunu qeyd edirdi. Ulu öndərin öz sözləri ilə desək: "Təhsil sistemimizin hazırkı vəziyyətini, onun problemlərini dərindən öyrəndikdən sonra prioritet sahələr müəyyən edilməlidir".**



Müşahidələr göstərir ki, həqiqətən də belə bir prinsipin seçilməsi Azərbaycanda təhsil siyasətinin əsas qayəsini təşkil etmişdir. Son dövrlər həyata keçirilən islahatlar proqramına əsasən fəaliyyətin prioritet istiqamətlərinə diqqət yetirdikdə, Heydər Əliyevin təhsil strategiyasının nə qədər fundamental bir konsepsiya olduğu aydınlaşır.

Məlumdur ki, milli intibahın təminatında başlıca vasitə sayılan elm və təhsil cəmiyyətdə bir çox problemlərin həllində mühüm rol oynayır. Dünyəvi təhsilə inteqrasiya yolunu seçən Azərbaycan Respublikasında müstəqilliyin bərpasından sonra bu strateji sahəyə milli təhlükəsizliyin mühüm amillərindən biri kimi xüsusi diqqətin yetirilməsi bu nəticəyə gəlməyə əsas verir ki, ölkədə elm və təhsil problemləri ümumi inkişaf və dövlət siyasəti ilə vəhdət təşkil edir. Tərəqqiyə gedən yolda uğurlar qazanmaq isə dünyanın sivil dövlətləri ilə diplomatik əlaqələrin yaradılması, sosial-iqtisadi, mədəni, elm-təhsil və digər sahələrdə beynəlxalq norma və tələblərə uyğun əməkdaşlığın qurulması zəruridir. Bunun üçün də xüsusilə strateji əhəmiyyətə malik olan təhsil sistemində köklü islahatlar aparılması Azərbaycan dövlətinin ali məqsədinə çevrilmişdir.

Bu mənada ulu öndər Heydər Əliyevin respublikaya rəhbərlik etdiyi həm birinci, həm də ikinci dönəmində reallaşdırılan təhsil siyasətinin müxtəlif aspektlərini araşdırmaq üçün bu strateji əhəmiyyətli sahənin dünəninə və bugününə diqqət yetirmək kifayətdir.

Bir məsələni də qeyd etmək lazımdır ki, ümummilli lider Heydər Əliyevin sovet Azərbaycanına rəhbərlik etdiyi illərdə ölkədə 5 yeni ali təhsil müəssisəsi açılmış və ali məktəblərdə təhsil alanların sayı 70 mindən 100 minə qədər artmışdır. Eləcə də dahi rəhbər keçmiş İttifaqın ən nüfuzlu təhsil müəssisələrində azərbaycanlıların oxumasına çalışmış və bu istiqamətdə əsaslı dönüş yaratmışdır.

Ulu öndər Heydər Əliyev müstəqillik illərində də elm və təhsilin inkişafını diqqətdən kənarda qoymamış, o cümlədən elm-təhsil problemlərinə kompleks şəkildə yanaşmışdır. Ölkə başçısı bu sahədə mövcud olan problemlərin aradan qaldırılması və Azərbaycanda dünyanın inkişaf etmiş ölkələrinin təcrübəsinə uyğun təhsil strategiyasının həyata keçirilməsi məqsədilə ciddi tədbirlər həyata keçirmiş, mühüm tarixi fərman və sərəncamlar imzalamışdır.

Heydər Əliyevin zəngin irsinin layiqli davamçısı prezident İlham Əliyev öz növbəsində təhsilə xüsusi incəliklə yanaşır. Prezident İlham Əliyevin rəhbərliyi dövründə təhsilin inkişafı əsas prioritetə çevrilib və insan kapitalının inkişafı dövlət siyasətinin əsas istiqamətlərindən birini təşkil edir.

Xalqımızın ümummilli lideri Heydər Əliyevin 100 illik yubileyinin qeyd olunduğu bu ərəfədə onun Azərbaycanın tarixində, bugünkü mövcudluğunda, ictimai-siyasi həyatın müxtəlif sahələrindəki rolunu hər sahənin mütəxəssisləri geniş təhlil edirlər. Maraqlıdır, onların hər biri hesab edir ki, ulu öndərin ən çox əhəmiyyət verdiyi, diqqət yetirdiyi, inkişafına təkan verdiyi məhz bu sahə olub. Sənaye, kənd təsərrüfatı, beynəlxalq münasibətlər, səhiyyə, ədəbiyyat, incəsənət və s. Müvafiq olaraq təhsil işçilərinin də fikrincə, Heydər Əliyev üçün ən vacib sahə məhz elm və təhsilin savadlı, bilikli, əsl peşəkar müəllim kadrlarının hazırlanması olub. Odur ki, Heydər Əliyevin ən şərəfli vəzifə hesab etdiyi Müəllim adını daşıyanlar ümummilli liderin işıqlı xatirəsini qəlblərinin ən isti guşəsində qoruyub saxlayırlar.

**Aynurə Rüstəmova,**
**Məktəb lisey komleksi**
**İngilis dili müəllimi**

# DƏMİR YUMRUQ



***Məmmədtağı Bəy,***
***Bakı Dövlət Universiteti,***
***Jurnalistika fakultəsinin tələbəsi***

**2020-ci ilin 8 noyabr günü Azərbaycanın tarixinə "Zəfər günü " kimi yazılıb. Azərbaycanın mövcud olduğu son 300 ildə hissə-hissə, şəhər-şəhər, kənd-kənd düşmənlərimiz tərəfindən zəbt edilən torpaqlarımızın bir hissəsi 44 günlük müharibə nəticəsində geri qaytarıldı. Mən özümün mövcud olduğum dövrdə ilk dəfə idi ki, 8 noyabrda azərbaycanlı olduğuma görə qürurlandım. Həmin günə qədər Cənubi Azərbaycanlı, Şimali Qafqazlı, Qərbi Azərbaycanlı, Qarabağlı və başqa həmvətənlərim haqqında edilən soyqrımlar barədə mətbuatda oxuyanda, televiziya verlişlərinə baxanda bəziləri ilə şəxsən görüşüb söhbətləşəndə oxuduqlarımdan, gördüklərindən, eşitdiklərimdən xəcalət çəkirdim və özümü təhqir olunmuş kimi hiss edirdim.**

Görüşdüyüm, həmsöhbət olduğum insanların da çoxunun mənimlə həmfikir olduğunu anlayırdım. Amma 8 noyabr 2020-ci il tarixindən üzümüz güldü. Torpaqlarımızın bir hissəsinin geri qaytarılması bizə məğrurluq bəxş etdi. İndi biz özümüzü təkcə qalib kimi hiss etmirik, həm də dünyada haqqın-ədalətin öz gücümüzlə icrasının mümkünlüyünə inamımız yarandı. Sözsüz ki, bu qələbə Azərbaycan ordusunun cəsurluğu hesabına mümkün olmuşdur. Şəhidlərimiz, qazilərimiz öz yenilməzliklərini bütün dünyaya nümayiş etdirdilər. Amma bu qələbənin bir əsas amili də vardır. Bu da orduya rəhbərlik edən Ali Baş Komandandır. Bu qələbə təkcə hərbi üstünlük hesabına əldə edilməyib. Müharibəni başlamaq üçün torpaqlarımızın işğal olunduğu 30 ildə hər gün bəhanə olub. Amma bu vaxtın düzgün seçilməsi və hərbidən qabaq dünya dövlətləri arasında aparılan diplomatik münasibətlər qələbənin təminatının atributlarından biri idi. Və bu istiqamətdə işlər zərgər dəqiqliyi ilə aparılmışdır. Döyüş meydanında taktiki, strateji, siyasi, iqtisadi üstünlüklərdən də əsas bir amil vardır. O da cəsarət və qətiyyətdir. Biz bu gün fəxrlə deyirik ki, bizim möhtərəm cənab Prezidentimiz, Ali Baş Komandanımız bu 44 günlük qələbədə özünün cəsarəti, qətiyyəti, uzaqgörənliyi və dəmir iradəsi ilə qalib gəlib. Dəmir iradə dedim, "Dəmir yumruq" yadıma düşdü. Son aylarda "Dəmir yumruq" bir qədər də ilahiləşdirilib və aldığım məlumatlara görə bir neçə yerdə "dəmir yumruğa" abidə də qoyulub. Bəs dəmir yumruğun açması nədir? Bu bir neçə variantda izah oluna bilər.

Birincisi, "Dəmir yumruq" xalqımızın vətənpərvərliyinin torpaqlarımızın işğaldan azad edilməsi məsələsində cənab Prezidentimizlə həmrəy olmasının, birliyin təsdiqidir.

İkinci variant isə budur ki, "Dəmir yumruq" birbaşa cənab Prezidentimiz, Ali Baş Komandanın qətiyyətli iradəsinin, cəsarətinin, vətənpərvərliyinin təzahürüdür.



"Dəmir yumruq" abidəsində təkcə yumruq deyil, yumruğu saxlayan bilək və qüvvətli qol da görünür. Mən bu abidəyə iftixar hissi ilə baxdıqca, Şah İsmayıl Xətainin dəmir əli, biləyi, qolu və dəmir yumruğu yadıma düşür. Tarixi faktla deyə bilərəm ki, bir dəfə Şah İsmayıl Xətai ordunun qarşısında ağır toplardan birini öz qılıncı ilə bir zərbədə iki yerə bölür. Çoxları buna heyrətlənir. Bu xəbər Osmanlı hökmdarı Sultan Səlimə çatır. O, Şah İsmayıl Xətaiyə məktub yazır və həmin qılıncı ondan hədiyyə kimi istəyir. Şah İsmayıl Xətai də bu məşhur qılıncı hökmdar Sultan Səlimə göndərir. Sultan Səlim bu qılıncla topa bir neçə zərbə endirir. Lakin bu zərbələr topa təsir etmir. O, yenidən Şah İsmayıl Xətaiyə məktub yazır ki, mən sənin göndərdiyin qılıncla bir neçə dəfə vurdum, amma top heç zədələnmədi. Yəqin, sən mənə həmin qılıncın əvəzinə başqa qılınc göndərmisən. Şah İsmayıl Xətai də ona cavab məktubunda yazır ki, qılınc həmin qılıncdır, amma sən topa zərbə vuranda öz qolunun gücü ilə vurmusan. Ona görə də nəticəsi mən vuran kimi olmayıb. Bunu təsdiq edən başqa bir faktı da yada salmaq mənə elə gəlir yerinə düşər. Döyüşlərin birində Şah İsmayıl Xətainin qarşısına ən qüdrətli bir pəhləvan çıxarırlar. O, Şah İsmayıl Xətainin zərbəsindən qorunmaq üçün ağır metal qalxanını başı üzərində tutur. Şah İsmayıl Xətai ona elə bir zərbə endirir ki, qılıncı rəqibin qalxanını da, onun arxasında gizlənən pəhləvanın başını da iki yerə bölür. Deməli, qələbə qazanmaq üçün dəmir yumruqla yanaşı sərkərdədə qətiyyət, özünə inam və mətin iradə də lazımdır. Gərək zərbəni elə yerdə, elə vaxtda endirəsən ki, düşmən bu zərbədən bayılsın. 44 günlük müharibədə bizim Ali Baş Komandanımızın zərbələri kimi . Burada fəlsəfə qanunları da məntiqlə öz təsdiqini tapır. Belə ki, zaman və məkan qələbənin təminatında mühüm əhəmiyyət kəsb edir. Bu da Ali Baş Komandanımız tərəfindən düzgün müəyyən edilmişdi və bu məntiq indi də ağılla davam etdirilərək, Laçın -Xankəndi yolunda Sərhəd Qoşunlarının nəzarət buraxılış məntəqəsi quruldu. Separatçılar, Xankəndində toplaşan qanunsuz silahlı dəstələr hər cür hərbi təminatdan məhrum oldular. Bu da bizi mütləq qələbəyə aparan mühüm tədbirlərdən biridir.

Möhtərəm cənab Prezidentimiz, Siz öz işinizlə, ağıllı tədbirlərinizlə bizi hər gün qürurlandırırsınız. İndi düşmən "Dəmir yumruq" dəyməmiş onun görüntüsündən vahimələnir, yeni zərbə almamaq üçün qaçıb canını qurtarmağa çalışır. Müasir dünya azərbaycanlıları, türk xalqları, xüsusilə də XXI əsrin azərbaycanlı gəncləri Sizinlə fəxr edirlər. Mən inanıram ki, uzun illər sonra da ölkəmizin vətənpərvər insanları bu "dəmir yumruq" abidəsini ziyarətgaha çevirəcək. "Dəmir yumruğa" və onun sahibinə səcdə edəcəklər. Ona görə ki, dəmir yumruğun sahibi öz qeyrəti, vətənpərvərliyi, cəsarəti, uzaqgörənliyi, dərrakəsi, tam kamilləşmiş idarəetmə qabiliyyəti, əvəzolunmaz işgüzarlığı, bacarığı və bütün qeyri-adi ali xüsusiyyətləri ilə biz gənclərə nümunədir və Dankonun ürəyi kimi "dəmir yumruq" bizim həm gələcəyə gedən inkişaf yolumuzu işıqlandırır, həm də bizi cəsarətləndirir.

**Bütün bunlara görə biz Sizi çox sevirik. Dəmir yumruğunuz daim düşmənin başı üzərində olsun. Tanrı Sizi qorusun, Siz də xalqımızı hər cür bəlalardan qoruyasınız. Amin! Amin! İlahi Amin!**

# Tural İsmayılov: "Qərbin apardığı danışıqlar daha işləkdir"

**"Hesab edirəm ki, Qərbin moderatorluğu altında aparılan danışıqlar daha işləkdir, daha çevikdir. Çünki Rusiya bu vaxta qədər prosesdə inkişafın əldə edilməyində o qədər də maraqlı görünməyib".**

Bu fikirləri Sosial Tədqiqatlar Mərkəzinin baş məsləhətçisi, politoloq Tural İsmayılov Adalet.az-a danışarkən deyib.

Onun sözlərinə görə, Moskvadakı görüş Vaşinqtondakı görüşdən həmən sonra təşkil edilib.

Ümumiyyətlə hadisələrin anoloji təhlilini apardıqda görürük ki, adətən Qərbdə görüşlər keçirildikdən çox qısa bir müddət sonra Rusiya həm bu prosesin əleyhinə açıqlamalar verir, həm də növbəti görüşü təşkil edir. Əlbəttə Vaşinqton Azərbaycanla Ermənistan arasında real sülhün əldə edilməsində daha səmimi görünür. Çünki Vaşinqtonun siyasi maraqları həm də Rusiyanın xüsusilə Ukrayna ilə müharibəsindən sonra başqa coğrafiyalarda və siyasi cəbhələrdə müdaxiləsinin zəifləməyinə yönəlib. Ona görə də Vaşinqton Azərbaycanla Ermənistan arasında əlaqələrin normallaşdırılmasına təşviq etməyə çalışır və bu konteksdə sonuncu Vaşinqton görüşündə həm Azərbaycan, həm də Ermənistan xarici işlər nazirlərinin bir neçə gün ABŞ-da qalmağı, Entoni Blinkenin moderatorluğu altında uğurlu danışıqlar aparması ortadadır.



Hesab edirəm ki, Qərbin moderatorluğu altında aparılan danışıqlar daha işləkdir, daha çevikdir. Çünki Rusiya bu vaxta qədər prosesdə inkişafın əldə edilməyində o qədər də maraqlı görünməyib.

Təəssüflər olsun ki Rusiya etnik separatçılıq, həmçinin Güney Qafqazda Ermənistandan forpost kimi Azərbaycan əleyhinə və güclənən Türk dünyası faktoruna qarşı istifadə etməyə davam etməyə çalışır. Rusiya elə başa düşür ki, əgər Azərbaycanla Ermənistan arasında münasibətlər bitərsə bu iki ölkəyə təsir imkanlarını sıfıra endirər.

Lakin istənilən halda hesab edirəm ki, Moskva görüşü də iki ölkənin münasibətlərində növbəti addıma səbəb ola bilər. Nəzərə alsaq ki, artıq ən sonuncu görüş noyabr ayında keçirilib, artıq aylardır iki ölkənin siyasiləri arasında görüş keçirilmir, hər halda pozitiv-məqam kimi qeyd edə bilərik.

**Eminquey**



***Rüstəm Hacıyev***

# ABŞ tərəfdaşlarını müharibəyə hazırlayır

*Avstraliya Birləşmiş Ştatlardan 5 ədəd "Tomaqafk" qanadlı raketləri ilə təmin olunmuş "Virginia" atom sualtı qayıqları almağa hazırlaşır. Avstraliya çoxdan sualtı donanmasını yeniləməyi planlaşdırdı. Hələ 2016-cı ildə yeni sualtı qayıqların hazırlanması ilə bağlı müsabiqə də elan etmişdi. Lakin mütəxəsislər müasir tipli sualtı qayıqların hazırlanması əvəzinə ABŞ -dan "Virginia" atom sualtı qayıqlarının alınmasının daha məqsədəuyğun olduğunu bildirirdilər.*

*Müsabiqəni Fransa udsa da, AUKUS təşkilatının yaradılmasından sonra, Avstraliya tərəfi 2021-ci ildə onunla bağladığı müqaviləni ləğv etdi. Nəticədə indi məlum olub ki, Avstraliya Birləşmiş Ştatlardan bir neçə "Virginia" tipli atom sualtı qayıqları almaq istəyir. Bundan başqa AUKUS tərəfdaşlığı çərçivəsində Böyük Britaniya ilə birgə öz hərbi donanmalarlnı gücləndirmək məqsədilə çoxməqsədli atom sualtı qayıqlarının quraşdırılmasına başlamaq niyyətindədir.*

*Təbii ki, Avstraliyanın hərbi dəniz donanmasının gücləndirilməsi ABŞ-ın göstərişi ilə həyata keçirilir. "İlanı seyid Əhmədin əli ilə tutmağa" daha çox üstünlük verən Birləşmiş Ştatlar, Sakit okean hövzəsində Çinə qarşı yeni qüvvələr hazırlamağı planlaşdırır. Gücləndirilmiş donanma, İndoneziya ətrafında daha inamlı hərəkət edə bilər.*

*ABŞ hazırladığı bu planları bəyənir və dəstəkləyir, çünki əsas məqsəd Çinin bir neçə istiqamətdə kommunikasiya xətlərini təhlükə altında qoymaqdır. Şimal tərəfdən Yaponiyanın hərbi bazaları, qərbdən ABŞ, cənubdan isə Avstraliya atom sualtı qayıqları Çinə zərbələr endirə bilərlər.*

*ABŞ uzun illər bundan əvvəl, hələ Corc Buşun prezidentliyi dövründən başlayayaraq, Çinin kommunikasiya xətlərinin qapadılması məqsədilə planlar həyata keçirilməyə başlayıb. Bir sözlə ABŞ Çinin bütün yollarını bağlamağa, Çin isə bunun qarşısını almaq üçün mübarizə etməyə çalışırlar. Vaşinqtonun region tərəfdaşlarının bu döyüşə hazırlamaq planları açıq ortadadır.*

# Müharibənin uzanması Qərbdə inamsızlıq yaradır

**Bir ildən artıqdır ki, davam edən Rusiya-Ukrayna müharibəsi artıq Kiyevi dəstəkləyən dövlətlərdə narahatlıq yaşatmağa başlayıb. İstər ABŞ, istərsə də Ukraynanı dəstəkləyən, antirusiya sanksiyalarına qoşulan Qərb dövlətlərində Ukraynanın müvəffəqiyyət qazanacağına inamsızlıq yaranır. Hətta bu müharibənin uzanmasında maraqlarını açıq ortaya qoymuş Birləşmiş Ştatlarda da bu inamsızlıq hiss olunmaqdadır.**

Bir çox Qərb liderləri cəbhədəki vəziyyətin getdikcə pisləşdiyini anlayırlar və Ukraynanın qələbəsinin çox uzaqda olduğunu və hətta qələbə qazana biləcəyini belə şübhə altına alırlar.

Polşanın Militaru watch magazine mətbu orqanı bildirir ki, ölkə ordusunun Baş Qərərgah rəisi, ordu generalı Raymund Andjeyçak, Polşa prezidenti yanında milli təhlükəsizlik bürosunun təşkil etdiyi debatda bildirib ki, çoxları anlamırlar ki, Ukrayna bu müharibədə qələbədən çox uzaqdadır. Ordu generalının sözlərinə görə, Rusiyanın aktivlərinin müsadirə edilməsinə baxmayaraq, müharibəni davam etdirmək üçün həm kifayət qədər vəsaiti, həm də hərbi gücü var. Ukrayna isə, göstərilən bütün hərbi və humanitar yardımlara rəğmən maliyyə problemləri ilə üzləşməkdədir. Budan başqa, Andjeyçak, Qərb hərbi sənayesinin nəinki Ukraynaya hərbi texnika və silah sursat göndərməyə, heç özlərunin bu sahədə hərbi potensialını təmin etməyə gücü çatmadığına diqqəti cəlb edib. Mətbuatda yayılan xəbərlərdən də görünür ki, Qərb Ukrayna silahlı qüvvələrinin, onlara göndərilən milyardlarla dollarlıq hərbi yardımlarına baxmayaraq, hələ də əks hücuma keçməyə hazır olmadıqlarından çox narahatlıq keçirir. Ukrayna göstərilən kifayət qədər hərbi yardımlardan, məqsədlərinə çatmaq üçün istifadə etmək qabiliyyətində deyil. Qərbin bu münaqişənin sonsuzluğa qədər uzanmasından əndişələnməsini təbii ki, müharibənin uzanmasında hələ də maraqlı olan ABŞ -da görür. Lakin qarşısına nəyin bahasına olursa olsun Rusiyanı çökdürmək məqsədi qoyan Vaşinqton geri çəkilmək niyyətində olmadığını ortaya qoymaqdadır. Görünən odur ki okeanın o tayındakılar məqsədlərinə çatmaq üçün təkcə Ukraynanı deyil, həmçinin avropalı tərəfdaşlarını da qurban verməyə hazırdılar.

**Rüstəm Hacıyev**

# Qabil Hüseynli: «Yəni sülh müqaviləsinin əsas konseptual istiqamətləri...»

**"Məncə, Azərbaycan və Ermənistan xarici işlər nazirlərinin görüşündə irəliləyiş mütləq olacaq. Çünki işin başında Amerika Birləşmiş Ştatları dayanır. Rusiya zənnimcə, proseslərdən bir xeyli kənar saxlanılıb"**



Bunu Adalet.az-a açıqlamasında politoloq Qabil Hüseynli deyib. Politoloq yeni sülh müqaviləsinin konseptual istiqamətlərinin müəyyənləşdiyini bildirib: "Ona görə proseslərə destruktiv təsirlər xeyli azalıb. Dövlət departamentinin sədri Blinken də Azərbaycan xarici işlər naziri ilə və daha sonra Ermənistan xarici işlər naziri ilə görüşdü.

Yəni sülh müqaviləsinin əsas konseptual istiqamətləri müəyyənləşdirilib.

Demək olar ki, bütün prinsipial məqamlar üzərində ya qarşılıqlı anlaşma, ya da buna doğru cəhdlər var. Həftənin sonuna kimi onlar orda görüşlərini keçirəcəklər və günan edirəm ki, bu həftə ərzində sülh müqaviləsinin ilkin variantını razılaşdırmaq mümkün olacaq.

Sülh müqaviləsinin sonrakı taleyinə isə hər iki ölkənin prezidenti və baş nazirinin görüşündə son nöqtəni qoymaq ola bilər. Hər halda proseslər ona doğru aparır".

Qeyd edək ki, Azərbaycan və Ermənistan xarici işlər nazirlərinin Moskvada görüşü keçirləcək.

**Vasif Əlihüseyn**

# Heydər Əliyevin gərgin fəaliyyəti sayəsində dəmir yolu nəqliyyatında köklü inkişafa təkan verildi



***Nazim Behbudov,***
***"Fəxri dəmiryolçu" müharibə veteranı***

**Ölkə nəqliyyat sisteminin əsas qollarından olan Azərbaycan polad magistralı özünün sürətli inkişaf mərhələsindədir. Bu nəhəng işlər, şübhəsiz ki, böyük siyasi xadim, anadan olmasının 100 illik yubileyini təntənə ilə qeyd etdiyimiz ümummilli lider Heydər Əliyevin şəxsi köməyi, dəmir yoluna daim qayğısı sayəsində həyata vəsiqə almışdır.**

Ulu öndərin Azərbaycana rəhbərlik etdiyi 1969-2003-cü illəri Azərbaycan dəmir yolunun texniki tərəqqi və hərtərəfli inkişaf dövrü adlandırmaq olar. 1969-cu ildə ilk dəfə respublika rəhbərliyinə gələn Heydər Əliyevin gərgin fəaliyyəti sayəsində bütün respublika iqtisadiyyatında olduğu kimi, dəmir yolu nəqliyyatında da əsaslı dəyişikliklərə və köklü inkişafa təkan verildi.

Təkcə bir faktı demək lazımdır ki, Azərbaycan dəmir yolunda istifadəyə verilən mühüm obyektlərin böyük əksəriyyəti məhz onun təşəbbüsü və ciddi nəzarəti sayəsində istismara verilmişdir. Böyük öndərin qayğısı ilə dəmir yolunda həyata vəsiqə alan yenilikləri sadalamaqla qurtarmaq olmaz. Məhz bu illərdə istehsalatda əsas fəaliyyətlə yanaşı, 14300 texniki yeniləşmə metodları tətbiq edilmiş və bunlar dəmir yolunun bütün sahələrini əhatə etmişdir. O, istər bilavasitə Respublikaya rəhbərlik etdiyi 1969-1982-ci illər, istərsə də keçmiş SSRİ hökuməti rəhbərliyində fəaliyyətində olduğu 1983-1987-ci illər ərzində, dəmir yolu müasir xarici texniki maşın-mexanizmlərlə və avadanlıqlarla təchiz edilmişdir. Bütün sahələrdə olduğu kimi, dəmir yolunda da rəhbər vəzifələrdə çalışan mütəxəssislərin böyük əksəriyyəti məhz böyük siyasət adamı Heydər Əliyevin qayğısı ilə 1970-1987-ci illərdə ölkədən xaricdə təhsil almışlar.

İyirminci əsrin 90-cı illərində ümummilli liderimiz Heydər Əliyev iqtisadiyyatın əsas qollarından biri olan polad magistralda yaranmış gərgin vəziyyəti çox düzgün qiymətləndirdi. 18-19 iyul 1996-cı ildə Heydər Əliyevin sədrliyi ilə Nazirlər Kabinetinin yığıncağı keçirildi və dəmir yolundakı neqativ hallar ölkə başçısı tərəfindən kəskin tənqid olunaraq prinsipial qiymət verildi. Yaranmış gərgin vəziyyətin aradan qaldırılması üçün ciddi tədbirlər görüldü.

Heydər Əliyev hər sahəni mükəmməl bilən, yüksək intellektual səviyyəyə malik bir şəxsiyyət idi. Heydər Əliyev hələ imperiya dövründə Azərbaycana rəhbərlik etdiyi zamanlarda milli dəyərlərə böyük önəm verərək milli kadrların hazırlanması işini yüksək səviyyədə həll etmişdir. Məhz bu böyük insanın qayğısı və təşəbbüsü ilə azərbaycanlı gənclər keçmiş SSRİ-nin müxtəlif ali məktəblərində oxumağa göndərilmişdir. Təsadüfi deyil ki, həmin gənclərin bir çoxu məhz dəmir yolu mühəndisi ixtisasına yiyələnmişdilər və onların əksəriyyəti bu gün nəqliyyatın müxtəlif sahələrində mühüm vəzifələri ləyaqətlə icra edirlər.



Bütün bunlar gələcəyə hesablanmış mətin addımlar idi. Azərbaycanın indi dünyanın bütün hegemon dövlətləri ilə bir sırada dayanması, beynəlxalq qurumlara tam hüquqlu üzv olması, haqq səsimizin beynəlxalq kürsülərdən eşidilməsi də bu dahi siyasət adamının mübarizəsinin nəticəsidir. Sevindiricidir ki, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev ulu öndərin siyasi kursunu uğurla davam etdirir. Böyük öndərin qayğısı ilə dəmir yolunda həyata vəsiqə alan yenilikləri sadalamaqla qurtarmaq olmaz.

4 yanvar 1998-ci ildə Dübəndi terminalının və stansiyasının açılış mərasimi keçirilmişdir. Həmin mərasimdə ümummilli lider Heydər Əliyev iştirak etmiş, burada görülən işləri, dəmir yolunun fəaliyyətini yüksək qiymətləndirmişdir. Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev tədbirdə çıxış edərkən demişdir: "Mən bu gün burada verilən məlumatları çox məmnuniyyəit hissi ilə qəbul edirəm ki, Azərbaycan Dövlət Dəmir Yolu İdarəsi buraxılmış səhvləri artıq aradan qaldırır və öz işinin keyfiyyətini yaxşılaşdırır, yaxşı iqtisadi nəticələr əldə edir. Bu, çox vacib məsələdir. Çünki dəmir yolu Azərbaycan iqtisadiyyatının böyük bir hissəsidir. Azərbaycan dəmir yolunu on illərlə yaratmışıq, onun maddi texniki bazasını qurmuşuq. Təəssüflər olsun ki, 1990-cı ildən başlayaraq Azərbaycan Dövlət Dəmir Yolunda da çox şeylər dağılıbdır, itirilibdir. Yaxşı ki, indi bunların qarşısı alınır. Mən indi Azərbaycan Dövlət Dəmir Yolunda inkişafı hiss edirəm".

Ulu öndər Heydər Əliyev 6 dekabr 1998-ci ildə dəmiryolçular tərəfindən hazırlanmış, çadır şəhərciklərində məskunlaşmış qaçqınlar və məcburi köçkünlər üçün konteynerlərdən hazırlanmış evlərə, səhiyyə, məişət xidməti obyektlərinə, sinif otaqlarına baxmaq üçün Keşlə stansiyasına gəlmişdir. O, dəmiryolçular qarşısında çıxış edərkən demişdir: "Tərcümeyihalımdan məlumdur ki, mənim atam da dəmiryolçu olubdur. Mən dəmiryolçu ailəsində böyümüşəm. Hələ uşaq ikən dəmir yollarının üzərində, nə qədər atamın yanında olmuşam. Hesab edirəm ki, dəmir yolunu həm bilirəm, həm də sevirəm. Dəmir yolu sahəsinin Azərbaycanda dərin kökləri və böyük ənənələri var.

Dəmiryolçular həmişə çox itizamlı olublar. Dəmir yolunun özü çox intizam tələb edir. Keçmişdə belə bir ənənə var idi ki, saatları həmişə dəmir yolunun saatları ilə düzəldirdilər. Çünki dəmir yolunun saatı həddindən artıq dəqiq işləyən saat idi".

1996-cı ildən etibarən Azərbaycan dəmir yolu tranzit yol kimi bir neçə beynəlxalq nəqliyyat dəhlizlərində iştirak etməyə başladı. Lakin əsas daşıma dəhlizi TRASEKA dəhlizi hesab edilir. Bu sahə Böyük İpək Yolunun Bakıdan Böyük-Kəsik stansiyasına (Gürcüstanın dövlət sərhədlərinə) qədər məsafəni və daha sonra üçüncü dövlətlərə çıxışı əhatə edir. Sonralar bu nəqliyyat dəhlizi Qədim İpək Yolundan TRASEKA-yadək yol keçdi (əslinə qalsa, nəqliyyat dəhlizlərinin fəaliyyətinin bərpa olunması işi 1994-cü ildə "Əsrin kontraktı"nın imzalanması ilə başlanmışdır).

1998-ci il sentyabrın 7-9-də Böyük İpək Yolunun dirçəldilməsinə həsr olunmuş beynəlxalq konfrans ümummilli lider Heydər Əliyevin təşəbbüsü ilə Bakı şəhərində keçirilmişdi. Bu mötəbər tədbirdə 13 dövlətin və 32 beynəlxalq təşkilatın nümayəndələri iştirak etmişdir. İki gün davam edən konfransda Bakı bəyannaməsi qəbul edildi. Qəbul edilən sənədlər sırasında beynəlxalq tranzit daşınmaları haqqında Əsas Çoxtərəfli Razılıq, həmçinin beş texniki Əsasnamə, o cümlədən, dəmir yolu daşımaları sahəsində əməkdaşlıq barədə müqavilə də vardır.

Böyük öndərin qayğısı ilə bu dövr ərzində fədakarlıq göstərən dəmiryolçuların əməyinin qiymətləndirilməsi istiqamətində də bir sıra işlər görülmüşdür. Belə ki, 1970-ci ildən 1988-ci ilədək üç nəfər dəmiryolçu-maşinist Sosialist Əməyi Qəhrəmanı kimi yüksək ada layiq görülmüş, 21 nəfər Lenin ordeni, 241 nəfər "Qırmızı Əmək Bayrağı", 302 nəfər "Şərəf Nişanı", 27 nəfər "Xalqlar Dostluğu", 24 nəfər "Oktyabr İnqilabı" ordeni ilə təltif olunmuşdur. Cəmi 843 dəmiryolçu ordenlərlə, 380 nəfər isə medallarla təltif olunmuşdu. Respublikanın polad magistralının yüzlərlə işçisi SSRİ Yollar Nazirliyinin ən ali mükafatı olan "Fəxri dəmiryolçu" döş nişanı ilə mükafatlandırılmışdır.

Bir əsrdə ikinci dəfə müstəqilliyinə qovuşan Azərbaycan indi yeni inkişaf dönəmini yaşayır. Bütün sahələrdə olduğu kimi, nəqliyyat sektorunda da irihəcmli layihələr reallaşdırılır, beynəlxalq aləmə inteqrasiya sürətləndirilir. Ölkə nəqliyyat sisteminin əsas qollarından olan Azərbaycan polad magistralı özünün sürətli inkişaf mərhələsindədir.

**Ulu Öndərimiz Heydər Əliyev tərəfindən təməli qoyulan və möhtərəm Prezidentimiz İlham Əliyev tərəfindən uğurla davam etdirilən müasir dövrün iqtisadi islahatları respublikamıza böyük uğurlar gətirmiş, ölkə iqtisadiyyatının sürətli inkişafına səbəb olmuşdur. Ümummilli Liderin rəhbərliyi ilə yaradılmış nəqliyyat infrastrukturunun inkişaf etdirilməsi və modernləşdirilməsi prosesi Prezident İlham Əliyev tərəfindən daha intensiv şəkildə aparılır.**

# Bakıda "Müstəqil Azərbaycanın Banisi" adlı konfrans təşkil edilib

**Azərbaycan Respublikasının Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Agentliyinin təşəbbüsü ilə Ümummilli Lider Heydər Əliyevin 100 illik yubileyinə həsr olunan "Müstəqil Azərbaycanın Banisi" adlı konfrans keçirilib.**

Agentlikdən Adalet.az-a bildirilib ki, konfrans iştirakçıları əvvəlcə Fəxri xiyabana gələrək xalqımızın ümummilli lideri, müasir müstəqil dövlətimizin memarı və qurucusu Heydər Əliyevin xatirəsini ehtiramla yad ediblər.

Sonra keçirilən konfransda açılış nitqi ilə çıxış edən **Agentliyin Müşahidə Şurasının sədri Azay Quliyev**in Ulu Öndər Heydər Əliyevin Azərbaycana rəhbərlik etdiyi hər iki dönəmdə ölkəmizi zamanın mürəkkəb tarixi sınaqlarından və siyasi təlatümlərindən müvəffəqiyyətlə çıxardığını, bütün təhlükələrə və təhdidlərə baxmayaraq, qeyri-adi idarəçilik bacarığı, polad iradəsi, fitri istedadı, qətiyyəti, müdrikliyi və əzmkarlığı sayəsində ölkəmizin gerçək müstəqilliyini və inkişafını təmin etməyi bacardığını bildirib. "Ulu Öndəri hər zaman müvəffəq edən və qarşısında duran bütün çətinlikləri və maneələri dəf etməyə güc verən əsas amillər nə idi? Birincisi, xalqın Ulu Öndər Heydər Əliyevə olan möhkəm və sarsılmaz inamı və dəstəyi. İkincisi, siyasət nəhəngi olan Ümummilli Lider Heydər Əliyev şəxsiyyətinin böyüklüyü, qüdrəti və əzəməti. Üçüncüsü, Ulu Öndər Heydər Əliyevin mənsub olduğu Azərbaycan xalqına, Vətəninə sonsuz və təmənnasız sevgisi", - deyə o bildirib.

Azay Quliyev vurğulayıb ki, Ümummilli Lider Heydər Əliyevin xalqımız qarşısında mühüm xidmətlərindən biri də Azərbaycanın müstəqilliyinin və inkişafının davamını etibarlı şəkildə təmin edən, 44 günlük Vətən müharibəsində şanlı və tarixi Zəfəri xalqımıza yaşadan Prezident İlham Əliyev kimi layiqli siyasi varisin, qətiyyətli liderin yetişdirməsi idi.

Konfransda "Heydər Əliyevin Qurtuluş missiyası" mövzusunda çıxış edən **Milli Məclis sədrinin birinci müavini, Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin sədri Əli Hüseynli** diqqətə çatdırıb ki, 1990-ci ilin yay aylarında Heydər Əliyevin Bakıya qayıdışı ilə tarixi bir şans yaranmışdı. Çünki o dövr xalq Heydər Əliyevi arzulayırdı. O, çətin də olsa, Bakıya gəlmişdi. Amma yenə də o zaman hakimiyyətdə olanlar buna imkan vermədilər və Heydər Əliyev cəmi iki gündən sonra Bakını tərk edərək Naxçıvana qayıtmalı oldu. O dövrdə hələ SSRİ dağılmamışdı, Azərbaycanın üçrəngli Bayrağı Heydər Əliyev tərəfindən Naxçıvan Ali Məclisində ucaldıldı. Faktiki olaraq Azərbaycan müstəqillik tarixinin müəllifi Heydər Əliyevdir. "Təəssüf ki, Vəzirov-Mütəllibov rejimi, daha sonra Xalq Cəbhəsi-Müsavat cütlüyü Azərbaycanı Heydər Əliyev yolundan döndərməyə çalışır və bu yolun alternativi olmadığını başa düşmək istəmirdilər. Müstəqilliyin ilk illərində sağlam düşüncənin səsinə qulaq asıb böyük siyasi xadim Heydər Əliyevi respublika rəhbərliyinə dəvət etsəydilər, Azərbaycan 20 Yanvar, Xocalı faciələrini görməz, Laçın, Şuşa xəyanətlərinin qurbanı olmaz, ölkə ərazisinin 20 faizi işğal edilməz, dövlət müstəqilliyimiz ağrılı və əzablı yollardan keçməzdi", - deyə Əli Hüseynli diqqətə çatdırıb.

"Heydər Əliyevin elm, təhsil və səhiyyə siyasəti" mövzusunda çıxış edən **Milli Məclisinin Səhiyyə komitəsinin sədri Əhliman Əmiraslanov** deyib ki, Ulu Öndər Heydər Əliyevin Azərbaycan üçün gördüyü işlər misilsizdir. İstər SSRİ dövründə respublikamıza rəhbərlik edəndə, istərsə də müstəqilliyimizi bərpa edəndən sonra - 1990-cı illərin əvvəllərində, yəni, yenidən hakimiyyətə gəldikdən sonra gördüyü işlər göz qabağındadır. "Bu gün Azərbaycanda olan nə varsa, onun adı, siyasəti ilə bağlıdır. Ulu Öndərin səhiyyə, tibb təhsili sahəsində gördüyü işlər çoxdur. Hələ SSRİ dövründə dünyanın başqa ölkələrinə çıxışımız yox idi. O dövrdə Heydər Əliyev təhsil sahəsində düzgün siyasət aparırdı. Çox istedadlı gəncləri SSRİ-nin ən qabaqcıl mərkəzlərinə - Moskva, Sankt-Peterburq, Kiyev kimi güclü tibb mərkəzlərinə göndərirdi. Mən də o gənclərdən biri idim", - deyə Ə.Əmiraslanov qeyd edib.

**Milli Məclisinin Beynəlxalq münasibətlər və parlamentlərarası əlaqələr komitəsinin sədri Səməd Seyidov** "Heydər Əliyevin xarici siyasəti" mövzusunda çıxış edib. Bildirilib ki, Azərbaycanın beynəlxalq aləmə, Avropaya, onun müxtəlif strukturlarına, o cümlədən Avropa Şurasına inteqrasiyası da Ümummilli Lider Heydər Əliyevin adı ilə bağlıdır. Ulu Öndər Heydər Əliyev daxili siyasətlə yanaşı, xarici siyasət istiqamətində də mühüm addımlar atıb, qısa müddət ərzində Azərbaycanın bir çox dövlətlər və beynəlxalq təşkilatlarla səmərəli əməkdaşlığı yaranıb, ölkəmiz iri beynəlxalq layihələr həyata keçirməyə başlayıb. 1994-cü il sentyabrın 20-də Ümummilli Lider Heydər Əliyevin rəhbərliyi ilə tarixə "Əsrin müqaviləsi" kimi daxil olan neft müqaviləsinin imzalanması isə Azərbaycanın gələcək inkişafını təmin edib.

**Agentliyin icraçı direktoru Aygün Əliyeva** "Heydər Əliyevin gənclər siyasəti" mövzusunda çıxış edərək deyib ki, Ümummilli Lider Heydər Əliyev gənclər siyasətinin uğurla həyata keçirilməsi məqsədilə bu sahənin zəruri qanunvericilik bazasının formalaşdırılmasını təmin edib. Gənclərin sosial, iqtisadi və digər sahələrdə mövcud problemlərinin həllinə yönəldilən, onların öz qabiliyyətlərini inkişaf etdirmələrinə kömək edən fərman və sərəncamlar, dövlət proqramları, inkişaf strategiyaları qəbul olunub. Gənclər siyasətində idmanın inkişafına və onun kütləviliyinin artırılmasına isə xüsusi diqqət yetirilib. Bu gün Ulu Öndər Heydər Əliyevin gənclər siyasəti Prezident İlham Əliyevin xüsusi diqqət və qayğısı ilə daha səmərəli və mütəşəkkil formada davam etdirilir.

**Azərbaycanın sabiq ombudsmanı Elmira Süleymanova** "Heydər Əliyev siyasəti insan hüquq və azadlıqlarının etibarlı təminatıdır" mövzusunda məruzəsində qeyd edib ki, Ulu Öndərin diqqəti mərkəzində olan prioritet məsələlərdən biri də insan hüquqları olub. Heydər Əliyev bu istiqamətdə də mühüm qərarlar qəbul edib. Onlardan biri ölüm hökmünün ləğv edilməsi idi ki, 1993-cü ildə bu cəza növünə qadağa qoyuldu və ömürlük məhkumluq cəzası ilə əvəz edildi. Ölüm cəzasının aradan qaldırılmasına qarşı etirazlar da olmuşdu. Ulu Öndər deyirdi ki, insanın insanı öldürməsi başqa haldır, lakin hüquqi-demokratik dövlət öz vətəndaşını öldürə bilməz və təkidlə bu qərarı Qanun səviyyəsinə qaldırdı.

**Milli Qeyri-Hökumət Təşkilatları Forumunun prezidenti Rauf Zeyni** "Heydər Əliyev vətəndaş cəmiyyətinin Qurucusudur" mövzusunda məruzəsində diqqətə çatdırıb ki, Ümummilli Liderin dövlətçilik fəlsəfəsində təkcə dövlət strukturlarının gücünə deyil, həm də ictimai təşkilatların fəaliyyətinə geniş meydan verilib. Bu iki prinsip vəhdət halında Azərbaycanda vətəndaş cəmiyyətinin formalaşmasında həlledici amillərdən olub. Vətəndaş cəmiyyətinin formalaşması isə hər şeydən əvvəl, ölkədə dayanıqlı sabitlik, vətəndaşların təhlükəsizliyinin təmin olunması, sosial ədalət prinsipinin bərpası, demokratik dəyərlərə hörmət, hüququn aliliyinin təmin olunması deməkdir.

Beynəlxalq Avrasiya Mətbuat Fondunun prezidenti Umud Mirzəyev "Heydər Əliyevin müstəqil medianın formalaşmasında tarixi xidmətləri" mövzusunda məruzə ilə çıxış edərək deyib: "Vaxtilə mənim də çalışdığım və ötən əsrin 70-ci illərində tikilərək istifadəyə verilən "Azərbaycan" nəşriyyatının binası da Ulu Öndər Heydər Əliyevin hələ sovet dövründə ikən milli mətbuatımıza göstərdiyi diqqət və qayğının təzahürüdür. Həmin vaxt belə bir modern binanın istifadəyə verilməsi və çoxtirajlı qəzetlərin redaksiyalarının vahid bir yerdə fəaliyyət göstərməsi olduqca önəmli bir hadisə idi".

**Sonra Ümummilli Lider Heydər Əliyevə həsr olunan mahnılardan ibarət konsert proqramı təqdim edilib.**

**Sona Çərkəz-75**

# MƏŞƏLƏ DÖNÜB YANAN ÖMÜR

***Bəlkə də yazının sərlövhəsi ilk baxışdan şablon kimi görünəcək. Çox yazılıb, çox deyilib. Amma 30 ilə yaxın tanıdığım və tanıdıqca da mükəmməl bir şəxsiyyət kimi göz önümdə canlanan, bu mükəmməlliyi bütün incəliklərinə qədər taleyində cəmləşdirən bir xanım haqqında yazarkən başqa bir başlıq ağlıma gəlmədi.***

***Yəni onun qədirbilən övlad, qayğıkeş bacı, sədaqətli ömür-gün yoldaşı, etibarlı və güvəncli dost, maraqlı müsahib, təcrübəli pedaqoq, oxunaqlı və dəyərli kitablar müəllifi, şair...nə qədər istəsək uzatmaq mümkündü...olduğunu bildiyimdəndi. Çünki Sona xanım Çərkəz bir insan ömrünə neçə-neçə insanın həyatını, yaşamını, ağrısını, acısını, sevinc və kədərini bol-bol yerləşdirib bu çəkilməz yükü təkbaşına zərif çiyinlərində vicdanla, şərəflə daşımağı bacaran bir qadındır.***

***Bəli, qadın. Bu qədər məsuliyyətli, canıyanan olmaq üçün yanasan gərək, yanasan ki, işığın ətrafı aydınlatsın, istisi üşüyən qəlbləri qızdırsın, insanlar doğru yolu seçə bilsinlər, sənin böyükdən böyük qəlbinin mərhəmətindən faydalansınlar. Sona xanım 75 illik ömründə yalnız bu cür yaşadı, başqalaşa bilmədi, istəmədi. Sağlamlığı bahasına, əsəbləri bahasına olsa da hər zaman ona ehtiyacı olanların yanına tələsdi, onlara ilıq təbəssümüylə, yanar ürəyilə ümid verdi, həyata inamlarını artırdı.***

***Müsahibim respublikamızda yetərincə tanınan və sevilən, BDU-nun baş müəllimi, Yazıçılar Birliyinin üzvü, Bakı Dövlət Universitetinin 100 illiyi (1919-2019) yubiley medalının, AKİVİHİ-nin "Qızıl qələm" və "Xan qızı Natəvan" ali media mükafatlarının sahibi, 15 kitab, gözəl şeirlər müəllifi Sona xanım Çərkəzdir.***

**-Xoş gördük əziz insan, yubiley ərəfəsi sizinlə söz yolçuluğuna çıxmaq mənim üçün böyük bir zövqdür.**

-Mən dəfələrlə müsahibələr vermişəm yerli və türk jurnalistlərinə. Amma Əntiqə Qonaq kimi həyatımın hər anını yetərincə bilən, mənimlə bərabər yol gedərək yaşantıma şahidlik edən bir jurnalist və hüquqşünas, mükəmməl və peşəkar söz və qələm sahibinə müsahibə vermək mənə görə çətindir. Siz illərdir qələminizlə təsəllimə dönən, yazılarınızla yarama su səpən, ağrıma-acıma ürəklə sinə gərən, çox böyük coşquyla, sevgiylə, hörmət və ehtiramla yazıb böyük ürəyilə, yanımda duruşuyla təskinliyimə çevrilən bir xanımsız. Fədakar, vətənpərvər insan, cəfakeş ana, etibarlı dost, bacı, rəfiqə, ehtiyacı olanlara dayaq duran, onlara simsar olan, həyatını hərbçilərimizin problemlərinin həllinə və onların qəhrəmanlıqlarının təbliğinə, şəhidlərimizin xatirələrinin əbədiləşdirilməsinə həsr edən bir yazar kimi minnətdarlığımı və sonzuz sayğımı bildirirəm. Qələminiz iti, gözünüz nurlu, qəlbiniz, könlünüz hər zaman rahat olsun, övladlarınızın barını görəsiniz.

-Çox böyük tərif oldu, alışmamışam belə sözlərə, minnətdaram mən də, hər şey qarşılıqlıdı, əziz Sona xanım.

**-Bəzi insanlar fikirləşdikləri kimi deyil, tamam gözlənilməz bir həyat yaşamalı olurlar. Sizin həyatınız bunların hansına uyğundu?**

- Haqlısınız, nə yazıq ki, həyatımız öz istədiyimiz və arzuladığımız kimi olmaya bilir... Nəinki gözlənilməz, ağlıma gəlməyən, xəyalımdan ötməyən, düşünməyi belə özümə çox ağır hesab etdiyim, məni varımdan yox edən bir hadisə baş verdi həyatımda. Nə yazıq ki, düşünmədən, istəmədən çətinliklərlə dolu təlatümlü bir həyat yaşamaq nəsib oldu mənə.

Ömrümün ən xoşbəxt günlərindən birində Çərkəz müəllimlə, ömür-gün yoldaşımla, dayağımla, güvəndiyim bir insanla yol getdiyim anda qəflətən Əzrayıl qarşımıza çıxıb bizi ayırdı. Sanki o da bizi ülvi və saf sevgimizə, gözəl münasibətimizə qısqandı.

**-Sanıram yeniyetməliyinizin 15-16 yaş pəncərəsindən baxanda bugünkü Sona Çərkəz düşüncənizdə belə yox idi.**

- Uşaqlıq illərimdə valideyinlərimin ilk övladı kimi və dünyasını gənc ikən dəyişən ata nənəmin adını daşıyan uşaq kimi çox əzizlənən olmuşam...

Sonra məktəb illərində rusca təhsil aldığımdan və yaxşı oxuduğumdan atam da, anam da təhsil almama xüsusi diqqət göstəriblər və əziyyətimi çox çəkiblər.

Orta məktəbin 11-ci sinfini kəndimizdə oxumalı oldum, istəmədən. Səbəb atamın polis orqanlarında vəzifəyə yüksəlməsi oldu, mən də anamın yanında olmalı idim... O məktəbdə ki, Çərkəz Quliyev ali məktəbi bitirib, təyinatla işləməyə gəlmişdi və dərs hissə müdiri idi...

Anam da uzun illər o məktəbdə ibtidai sinif müəlliməsi işləyirdi... Bu haqda tale kitablarımda ətraflı yazmışam... 5 ay o məktəbdə oxuyarkən, Çərkəz mənim ədəbiyyat müəllimim oldu... Və bir gün dərs danışandan sonra gündəliyimi alıb, qiymət yazmaq istədi. Lakin zəng çalındığından mənim gündəliyimi də jurnalla bərabər götürüb, sinifdən çıxdı...

3 gün sonra gündəliyimi həyətdə mənə uzadıb, diqqətli ol, içindəkiləri salarsan, dedi...

Evə gəlib gündəliyi açanda içindən Çərkəzin uzun bir məktubu çıxdı və bu gözlənilməz sevgi etirafı məktubu mənim ağlımı və düşüncəmi tamamilə başqa səmtə yönəltdi... Sonra baş verənlər isə mənim hamınıza bəlli olan həyat hekayəm oldu.

**-Gözlənilməzliklər labüddü, sizin necə, bu ürəyinizdən oldumu? Təbii ki, müstəqil həyata ilk addımlarınızı nəzərdə tuturam.**

-Haqlısınız. Tamam başqa səmtə çevirə bildi məni həyatın gözlənilməzliyi. Və 6 aydan sonra orta məktəbi bitirdim, elə həmin ay qapımıza Çərkəzin elçiləri gəldi... 1966-cı ilin payızında toyumuz oldu, elə həmin il ali məktəbə qəbul oldum.

Qaynanam atama söz versə də, o, oxumağıma qarşı çıxırdı... Lakin Çərkəz mənə verdiyi sözünü tutdu və ali məktəbi bitirincə yanımda oldu...

**-Əminəm ki, şair olmağı deyil, yazar olmağı deyil, sevdiyiniz və qibtə etdiyiniz bir insanın bütün həyatınız boyu yanınızda olmasını istərdiz.**

- Əlbəttə, kim istərdi ki, gözəl həyatı belə faciəvi sonluqla bitsin. Olan olmuşdu. Çərkəzin xatirəsini necə əbədiləşdirəcəyimin yollarını axtarırdım. Sanki təsəllimi bunda tapacaqdım. 4 ay döymədiyim qapı qalmadı, Soyadımın Quliyeva deyil, qanunla Sona Çərkəz olması üçün... Onu da bacardım... Sonralar əlimə qələmi götürüb, gündəlik yazmaq istədim... nəticədə kitab alındı... O kitaba Bəxtiyar Vahabzadə qəzet vasitəsiylə geniş fikir bildirdi və bəlkə də bu məni ruhlandırdı... Bir-birinin ardınca kitablarım işıq üzü gördü... buna təsəlli demək mümkünsə...

**-Olmadı. Həyatın bu gözlənilməzliyi sizi qəfil yaxaladı və tamam başqa bir səmtə çevirə bildi. Çevirdi deyək.**

-İkimiz də ali məktəbdə işləyirdik... Heç kimdə, heç nədə gözümüz yox idi... Qapımız hamıya açıq idi, doğmalara da, tanışlara da... Hamıya eyni xoş münasibət bəsləyər və çoxlarına o illərdə bacardıqca kömək olardıq...

1994-cü ilin iyun ayının 3-nə qədər... Ağlıma gəlməyənlər o gün gəldi başıma... o gün ömrumə əbədi qış gəldi. Çərkəz yarı yoldaca əbədi ayrıldı bizdən. Əzrayıl qəza adıyla aldı səadətimizi bizdən, məndən və iki övladımdan... İstəmədən və nigaran getdi o da...

**-Arzuedilməz idi sizin üçün. Bunu bilirəm. Amma sizi şair və yazıçı etdi. Və bunu istəməsəniz belə geriyə baxanda bu mənzərə görunməkdədi.**

-Elədir. Bu kitabları necə yazıb ortaya çıxardım bəzən yuxu kimi gəlir mənə. Amma ən çox ünsiyyət etdiyim və dərdimi tökdüyüm qələm və kağızlar çox karıma gəldi.

**-İnsanı dərd yazdırırmış deyirsiniz tez-tez. Şərikəm sizinlə. Amma sonra sizin yaradıcılığınızın tamam başqa, fərqli xətləri cızıldı.**

-Bəli, yenə o fikrimdə qalıram. Dərd dilsizə dil açdırarmış...1995-ci ildə o hadisədən sonra 40 gün anam gecə-gündüz yanımdan çəkilmədi...

Başqaları (doğmalar da) gəlib görünüb gedirdilər... Sən demə, dərdə çiyin vermək çətin məsələ imiş... Uzun müddət universitetə də, yəni işə də gedə bilmədim...

**-Bu, alışqanlıqdan da çox ruhunuzun, beyninizin ehtiyacına, tələbatına çevrildi deyərdim.**

-Bəli, elə oldu. Artıq beynimdəkiləri, ürəyimdəkiləri kağızlara tökdükcə elə bil bir az



da olsa təskinlik tapırdım. Eləcə kitablar bir-birinin ardınca sıralandı. Yaşam tərzimə çevrildi.

**-Vətəndaş Sona, ziyalı Sona, şair Sona, yazar Sona əvvəlki Sonaları üstələdi məncə.**

-Kənardan elə görünsə də, əslində onlar hamısı bir yerdə mənim üçün bir adamdı - bir Sonadı, çünki bütün səmimiyyətimlə deyə bilərəm ki, sadaladığınız insani xüsusiyyətlər və ya titullar mənim üçün sözlə ifadə olunmayan, qanda olan xüsusiyyətlərdir. Xəmirin mayası olduğu kimi, insanın da qayəsi vardır və mənim üçün sadaladıqlarınızı bir-birindən ayırmaq qeyri-mümkündür.

Qəddimiz yaşlandıqca əyilir, gözəl, qalın saçlarımız tökülür-seyrəlir. Yaşadıqlarımızın izləri qırışlara dönüb üzümüzü naxışlandırır. Güclü yaddaşımız bəzən bizi yanılda bilir. Amma xəbislikdən və kin-küdurətdən uzaq təmiz ürəyimiz ay və günəş kimi dəyişməz qalır və yolumuza aydınlıq gətirir. O ürəkdir bizim adımızla sizin sadaladıqlarınızın qoşa çəkilməsini qoruyub saxlayan.

**-Amma nə yaxşı ki, üstələdi və sizin yaradıcılığınıza çox gözəl və mənalı çalarlar qatdı.**

-Mən 1994-cü ildən əvvəlki günləri də, ondan sonrakı (ağrılı, acılı) 29 ilə qatıb yaşadım. O günləri bu günlərdən ayrı yaşamadım ki. Çiyinlərim yüklü olsa da, övladlarımın ata ağrısını, nəvələrimin isə görmədikləri baba həsrətini öz varlığımla yaxşı mənada örtüb, onun yoxluğunu içimə gömüb dik durmağa çalışdım. Çox çətin ötdü bu illər. Pedaqoji fəaliyyətim, ailəmizin problemləri məni qələmimdən ayıra bilmədi. Böyük ürəkli insanların mənim yaradıcılığımda az-çox mənalı çalarlar görə bilməsi isə əlbəttə məni ruhlandırıb, həvəsləndirib.

**-Və bütün bu uğurların və tanıtımın fövqündə sizin insanlara və insanlığa bəslədiyiniz sonsuz, bitməz sevgi dayanır.**

-Mən bu sualınıza bir cümləylə cavab vermək istəyirəm, bəli, məni anlayan, yaxşılarda yaxşılıq, yamanlarda pislik görən, insanlığın ən uca zirvəsində dayanan ləyaqətli, mərd, səmimi və dəyişilməz insanlara bitməyən məhəbbət bəsləyirəm.

**-Və bu sevgi sonradan yaranmır, doğuşdan insanla bərabər olur, onun içini, vücudunu, beynini, ruhunu doldurur.**

-Haqlısınız, həyata gəldiyimiz ilk gündən Yaradanın bizə sevgi ilə bəxş etdiyi yaşamımızda Allaha sonsuz sevgi bəsləməli, əziyyətimizə qatlaşana, qolumuzdan tutana, sonradan özümüzün qazandığı dostlara, tanışlara verə bildiyimiz ülvi sevgi - cəfakeşlikdir məncə. Doğrudur, o bizimlə doğulur və son nəfəsimizə qədər bizi müşayiət edir, insanların gözündə ucaldır. Əlbəttə, əgər varsa...

**-Siz də bu cür sevgilərlə dünyaya göz açan insanlardansınız. Və nə yaxsı ki, beləsiz...**

-Təşəkkür edirəm, çox minnətdaram, nə xoş mənə. Bütün bunlar üçün ən çox və hər zaman məni sevgisiylə doyuran və əzizləyən anama borcluyam.

**-Düşünürəm ki, sizi tanıdığım ilk gündən bu günə qədər bağlarımızın bu qədər möhkəm, davamlı olmasına başlıca səbəb də elə varlığınızdakı sevginin ətrafa saçdığı enerjidir.**

-Əntiqə xanım, siz özünüz də xalqa, el-obaya hər zaman məhəbbət və fədakarlıq göstərən gözəl jurnalist - hüquqşünas xanımsınız. 25 ildən artıq zaman kəsiyində mən də bunu sizin mənə qarşı olan saf münasibətinizdə görmüşəm. Bu gün bu suallarınızla da mənim sizin haqqınızda düşüncələrimə möhür vura bildiniz. Qırılmaz insani bağlılığa səbəb isə dostluqda da, qohumluqda da qarşılıqlı səmimiyyət və sədaqətdir.

**-Gələk həmişə sizin adınızla qoşa çəkilən vəfa, sədaqət, etibar, güvən anlayışlarına.**

-Elə görə bilirsinizsə elədir. Mən dəyişilməyən və dəyişilənləri sevməyən biriyəm, hər mənada. Mənəvi dəyərlərə çox üstünlük verən biriyəm. Haqqı-sayı itirməyənəm. Ürəkdən verilən bir "Salam" da, "Necəsən?" də mənim çiyinlərimdə itirilməyən haqqa çevrilir. Anam rəhmətlik deyərdi: - "Biri bilməyən mini də bilməz..." Onu da deyim ki, mən həqiqətən özümü düşünməyən insanlardanam. Yəni, öncə yaşadığım ömürdə yanaraq yaşamağı özümə həyat devizi seçmişəm, bunu doğru bilmişəm. Həyatımın hər dönəmində belə yaşadım, uşaqla uşaq, böyüklə böyük olmağa çalışdım. Sağolsun bunları görə bilənlər.

**-Mənə elə gəlir ki, həyatınızdan qopan dəyərlər mənəvi anlamda sizinlə bərabər ömür sürməkdədir. Bunu siz bacara bildiniz. Tək Sona həyatını yaşamadınız, Sona Çərkəz oldunuz, etibarlı və vəfalı övlad oldunuz, yanar və yanıb-yaxılan bacı oldunuz, hər şey oldunuz...**

-Taleyim başıma sığal çəkmədi, alın yazım gözləmədiyim "sürprizlərlə" qarşılaşdırdı məni. Mənim üçün həyatımın anlamına dönən dəyərlilərimi ard-ardınca itirdim. Əvvəlcə məni üz ifadəmdən, bircə baxışımdan başa düşən və mənə qadına verilən ən yüksək qiyməti verən ömür-gün yoldaşımı, sirdaşımı, dostumu, güvənc yerimi qəfil itirdim. Atam, qardaşlarım Füzuli və Fəzli məni o ağırlıqda dərd yükünün altından çəkib çıxarmağa çalışdılar. Çıxardılar da. Təskinliyim oldular, hər şeyim oldular. Məni yıxılmağa qoymadılar, ayaqda saxladılar. Amma dağ cüssəli, hər kəsə xeyirxahlıq edən Füzulimin qəfil ölümü, ardınca valideynlərimin dünyalarını dəyişmələri məni yenidən param-parça etdi.

Mən 75 illik həyatımda itirdiyim əzizlərimin hamısını özümdə yaşatdım. Yeri gələndə ana oldum, ata oldum, qardaş oldum, bacı oldum, nənəlik və digərləri bir kənarda qalsın. Bu cür bacardım, bu cür yaşadım. Demək ki, belə də olmalıymış...

**-Sona xanım, ömrünüzün kamillik çağını yaşayırsız. Əslində siz hər yaşda kamil və mükəmməl insan olmusuz. İndi daha olğun və daha dolğunsuz. Ətrafınızda yüzlərlə səvəniniz, məsləhət alanınız var. Sizi görmək, sizinlə ünsiyyət qurmaq üçün can atanlar var və yaşamınız böyunca bu hər zaman belə olacaq. Çünki siz bir Səməndər quşu oldunuz bu həyatda, bütün özəllikləri ilə. Bir daha Sizi yubileyiniz münasibətilə təbrik edir, Sizə sağlıqlı və mənalı ömür diləyirəm. Hər zaman bizimlə qalın, pozitiv enerjinizlə qəlblərə sevginizi və səmimiyyətinizi paylayın.**

**Əntiqə QONAQ,**
**Əməkdar jurnalist**

# TARİXİN QIZIL SƏHİFƏSİ - HEYDƏR ƏLİYEV!

**Dünyada böyük siyasətçilər, tarixi şəxsiyyətlər çox olub. Təbii ki, bu tarixi şəxsiyyətin hər biri yeni bir tarix yazıb, həmi xalqın, həm də tarixin yaddaşında qalıb. Belə tarixi şəxsiyyətlərdən biri də Ulu Öndər Heydər Əliyev olub. O, hakimiyyətə gəldiyi ilk gündən, son ana qədər bu dövlətə, bu xalqa, bu millətə sədaqətlə xidmət edib. Çünki Ulu Öndər həmişə deyərdi ki, ”Qoy ədalət zəfər çalsın!”. Aydındır ki, ədalətin zəfər çalması üçün ədalətli də cəmiyyət qurmaq lazım idi.**

Hələ hakimiyyətə gəldiyi Sovet rejimində belə Heydər Əliyev ölkəmizdə qanunların aliliyinin təmin edilməsi üçün və milli dəyərlərimizin qorunub, saxlanılması məqsədilə çox böyük işlər görüb.

Təkcə bir faktı demək lazımdır ki, Ümummilli Lider 1978-ci ildə Azərbaycan Konstitusiaysı qəbul olunarkən dövlətçiliyimizi, milli dəyərlərimizi və dilimizi qoruyub saxalamağa nail olmuşdur. O vaxtlar hər ölkənin dövlət dili onun dili hesab olunmurdu. Amma Heydər Əliyev 1978-ci ildə qəbul olunmuş Konstitusiyada belə bir maddənin: ”Azərbaycan dilinin dövlət dili olması barəsində maddənin” Konstitusiyaya yazılmasına nail olmuşdur.

Deməli, bu məsələlər də heç də asanlıqla həyata keçməmişdir. Hətta həmin dövrdə Ukraynanın I katibi Şerbitsik ilə Heydər Əliyevin arasında bir mübahisə də olmuşdu. Onda Şerbitski demişdi ki, biz Konstitusiyamızda Ukrayna dilinin dövlət dili olmasını yaza bilmirik. Amma siz yazırsınız. Ulu Öndərsə ona bildirmişdir ki, sizin respublika bizimkindən dəfələrlə böyükdür. Bu sizin öz işinizdir. Amma bizim Konstitusiyada Azərbaycan dili dövlət dili kimi qəbul ediləcək. Həmin dövrdə keçmiş SSRİ respublikaları arasında Azərbaycandan sonra Ermənistan və Gürcüstanda dövlət dili erməni və gürcü dili kimi qəbul edilmişdir.

Digər respublikalarda dövlət dili rus dili hesab olunurdu. Hətta Pribaltika respublikalarında belə dövlət dili rus dili sayılırdı.

Dilimizin dövlət dili statusu alması birbaşa Ümummilli Lider Heydər Əliyevin böyük xidmətləri nəticəsində mümkün olmuşdur. Hətta buna görə Siyasi Büroda müəyyən qara qüvvələr Ulu Öndərə millətçi damğası da vurmağa cəhd eləmşdilər. Mərkəzi Komitənin Siyasi Bürosunda Heydər Əliyevin ağlı və düşüncəsi qarşısında çoxları aciz idi və buna görə də onun həyata keçirtmək istədiyi dövlətçiliyimizlə bağlı bütün tədbirləri heç kəs ləngidə bilmirdi.

Azərbaycan xalqı xoşbəxt millətdir ki, onun Heydər Əliyev kimi böyük tarixi şəxsiyyəti var. Bu tarixi şəxsiyyətə həm Sovet dönəmində, həm də sonrakı müstəqillik dövründə müxtəlif qüvvələr şər və böhtan atıblar. Ancaq onların heç birisi Heydər Əliyevə yapışmayıb.

Çünki Ulu Öndər həmişə öz xalqına, millətinə və dövlətinə sədaqətlə xidmət edib. Təbii ki, xalq da öz siyasi liderini zamandan asılı olmayaraq qoruyub saxlayıb və ona böyük hörmət bəsləyib.

Xalq şairi Zəlimxan Yaqub Ulu Öndər dünyasını dəiyşərkən belə bir misra yazıb: ”Görən torpaq bilirmi qoynunda Heydər yatır?”. Bəli, nəinki insanlar, hətta torpaq da bilirdi ki, qoynuna aldığı bu tarixi şəxsiyyət çox



müdrik bir siyasətçidir. Ümumiyyətlə, Heydər Əliyevin Azərbaycan ədəbiyyatına, Azərbaycan mədəniyyətinə və Azərbaycan yazıçılarına həmişə böyük hörməti və sevgisi olub. Çünki Heydər Əliyev Azərbaycan mədəniyyətini, Azərbaycan ədəbiyyatını, Azərbaycan poeziyasını çox gözəl bilirdi.

Bu tarixi şəxsiyyət ədəbiyyatçı ilə ədəbiyyatçı kimi, tarixçi ilə tarixçi kimi, memarla memar kimi, şairlə şair kimi danışırdı. Əlbəttə, bu elmi təfəkkürə və dünyagörüşə malik olmaq üçün Ulu Öndər saysız-hesabsız kitablar mütaliə eləmişdi.

Hətta şairlərlə görüşündə elə fikirlər səsləndirirdi ki, hamı onun işlətdiyi fikirə məəttəl qalırdı. Çünki bayaq dediyimiz ki, o, ədəbiyyatımızı, folklorumuzu, xalq musiqimizi və aşıq yaradıcılığını çox gözəl bilirdi. Süleyman Rüstəmlə, Qabillə, Zəlimxan Yaqubla söhbətlərini heç vaxt unutmaq olmur. Həmin söhbətlər poeziyadan, şeirdən söz açmaqla yanaşı, həm də bir səmimiyyət və sadəlik rəmzi idi. Çünki Heydər Əliyev nə qədər ciddi və tələbkar idisə, bir o qədər də sadə və səmimi idi və insanlar da onu səmimiyyətinə görə çox istəiyrdi. Heç kimə sirr deyil ki, Ulu Öndər həddindən artıq xalq dilində demiş olsaq, zəhmli şəxsiyyət idi, amma insanlarla görüşəndə özü elə bir ünsiyyət yaradırdı ki, hətta sadə pambıqçı, fəhlə, suçu belə onunla ürək söhbəti edirdi.

Təsadüfi deyil ki, Ulu Öndər pambıq mövsümü dövründə rayonlara gedir, tarlaları gəzir, pambıqçılarla görüşür və onlarla səmimi söhbətlər edirdi. Həmin insanlar da Heydər Əliyevə ürək sözlərini çatdırırdı. Həmin söhbətlərin birində pambıqçı qızlardan biri deyir ki, yoldaş Əliyev, biz Əlibala Hacızadəni ”İtgin gəlin” romanını tapa bilmirik. Ulu Öndər də sonradan nəşriyyata göstəriş vermişdi ki, kitabı yenidən nəşr etsinlər. Kitab da yenidən nəşr olunmuşdu və rayonlara paylanmışdı və eyni zamanda Ulu Öndər hər bir əmək qəhrəmanını mükafatlandırır, ona ya fəxri ad verir, ya da yeni avtomobil hədiyyə etdirirdi.

Təbii ki, zəhmətkeşlərin bu cür yüksək qiymətləndirilməsi xalq arasında Ümummilli Liderin nüfuzunu daha da yüksəldirdi. Əlbəttə, o şəxslər, o siyasətçilər millətin və xalqın yaddaşında qalır ki, onlar sadə insanları həmişə hörmətlə xatırlayıblar və yada salıblar.

Yazıçı-publisist Səməndər Məmmədov Heydər Əliyev haqqında ”Kremlə sancılmış Türk bayrağı” yazısında qeyd edir ki, ”Heydər Əliyev xalqımızın qeyrəti, cəsarəti, bükülməz biləkli pələngi, sıyrılmış qılıncı və Kremlə sancılmış Türk bayrağı idi”.

Biz zaman-zaman onun böyüklüyünü və dahiliyini hiss edəcəyik. Əlbəttə, Səməndər müəllimin bu sözlərində çox böyük həqiqət var. Çünki Azərbaycan xalqı 1969-cu ildən bu günə kimi Heydər Əliyevin necə böyük şəxsiyyət olduğunu yaxşı görüb və bu gün də ona böyük qiymət verir.

Çoxları elə bilirdi ki, Heydər Əliyev ikinci dəfə hakimiyyətə gələndən sonra respublikamızda qara qüvvələr xaos və özbaşınalıq yaradacaqlar. Çünki artıq onlar Xalq Cəbhəsinin hakimiyyəti dövründə və ondan əvvəlki 80-90-cı illərdə bu özbaşınalığı və dərəbəyliyi yaratmışdılar.

Dövlət həmin qüvvələrin qarşısında aciz qalmışdı. Hətta vətənədaş müharibəsinin astanasındaydıq. Belə bir vaxtda Ulu Öndərin xalqın xahişi ilə hakmiyyətə gətirilməsi dövlətimizi və ölkəmizi parçalanmaqdan xilas etdi. Bir neçə ilin içərisində Azərbaycan Heydər Əliyevin apardığı məqsədyönlü siyasət nəticəsində dirçəliş yoluna qədəm qoydu.

Siyasi, iqtisadi və hərbi cəhətdən ölkəmiz möhkəmlənməyə başladı. Xarici və daxili qüvvələrin müdaxiləsinə baxmayaraq, Heydər Əliyev siyasəti həmin qara qüvvələrə qalib gəldi və Azərbaycan zaman-zaman böyük uğurlara və nailiyyətlərə imza atdı.

Belə ki, əsrin müqavilsi - Neft kontranktı bağlandı və eyni zamanda bir çox beynəlxalq layihələr həyata keçirildi, Azərbaycana böyük maraq yarandı. Xarici dövlətlər də gördü ki, Heydər Əliyev ölkədə sabitlik yaradıb, böyük iqtisadi inkişaf var, buna görə də məmləkətimizdə bir çox inkişaf etmiş dövlətlərin şirkətləri, invetisiya yatırdılar. Təbii ki, iqtisadi durumun get-gedə daha da yüksəlməsi və ölkəmizin büdcəsinin artması bir çox layihələrin öz daxili imkanlarımız hesabına gerçəkləşməsinə şərait yaratdı.

**İndən sonra yüz illər keçsə də, min illər keçsə də Heydər Əliyevin xidmətləri Azərbaycan xalqının yadından çıxmayacaq və Ulu Öndərin adı xalqımızın tarixində əbədi yaşayacaqdır.**

**FAİQ QİSMƏTOĞLU**

AZƏRBAYCAN RESPUBLİKASININ MEDİANIN İNKİŞAFI AGENTLİYİNİN MALİYYƏ YARDIMI İLƏ



*Kamran QASIMOV*

# Altaydan Kosmosa qədər

## (“Teknofest” haqqında qeydlərim)

**Tarix çox vaxt Türk dünyasını müxtəlif manələr, fikirayrılılqları, hətta coğrafi məkan baxımından sınağa çəkib.**

**Amma bu gün Türk dünyası, türk coğrafiyası tarixin özünün belə həsəd apardığı, bəlkə də heç vaxt bugünkü kimi birlikvə qardaşlıq nümayiş etdirməyən sülh və tərəqqi mərkəzinə çevrilib. Türkiyə və Azərbaycan nümunəsində. Tarixə nəzər salsaq görərik ki, türk xalqları zamanın tələbləri ilə ayaqlaşmağa, hətta onu qabaqlamağa çalışıblar. Bu gün Türkiyə dördüncü sənaye inqilabının mərkəzində önündə, mərkəzindədir desək bəlkə də bir qədər yanlışlıq olar. Bu gün Türkiyə elə dördüncü sənaye inqilabını yaradan ölkələrdəndir. Səmanı fəth edən Türkiyə aviasiya sənayesi hər il keçirilən ”Teknofest” aerokosmik və texnolgiyalar festivalında ən innovativ yeniliklərini təqdim edir. Yeri gəlmişkən türkçülüyün rəmzi də axı səma rəngidir. Aprelin 27-də başlayan 6-cı ”Teknofest 2023” qardaş ölkənin dəhşətli zəlzələdən sonra dünyaya əsl iradə nümunəsi nümayiş etdirdi Yeri gəlmişkən ”Teknogfest 2023”də nə az, nə çox düz 96 ölkə iştirak edirdi. Ümumiyyətlə ”Teknofest”də bərabərlik imkanları hər kəs üçün eynidir. Yəni burada açıq səma altında təqdim edilən pavilyonlarda dünyanın aparıcı şirkəti ilə özünün innovativ hesab etdiyi layihəsini təqdim etməyə çalışan tələbə yaradılan nümayiş imkanı eynidir. Çünki Türkiyə prezidenti Rəcəp Tayyib Ərdoğan gəncliyə xitab edərək hər zaman belə deyir. Biz artıq sizin zamanınızın müqəvvəti sakinləyirik. Azərbaycan universitetlərinin tələbələri də ”Teknofest 2023” də yeni texnoloji layihələri ilə iştirak edirdi.**

**Və Aprel ayının 29-u. Aerokosmok və Texnologiyalar Festivalının 3-cü günü. Orijinal, bəlkə də dünyada bənzəri olmayan milli türk brendi ”Tog” yüz minlərin alqışları ilə Festivalın keçirildiyi Atatürk hava limanında irəliləyir. Sükan arxasında Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevdir! Türkiyədə baş vermiş dəhşətli zəlzələnin nəticələrinin aradan qaldırılması məqsədilə bir ay öncə Azərbaycan Prezidentinin təşəbbüsü ilə Türk Dövlətləri Təşkilatının Fövqəladə Zirvə görüşü çağırılmışdı. Coşğu ilə qarşılanan milli türk avtomobilinin sükanı əslində elə bütün Türk dünyasının sükanıdır.**

**Bu gün Türk coğrafiyasının güclənməsi 10 il bundan əvvəl inqilablar məngənəsində boğulan və hazırda qismən tərəqqi mərhələsinə qədəm qoyan ərəb dünyasına da öz töhfələrini verir. Bu gün ərəb coğrafiyası türk dünyasına ehtiyac duyur, Türkiyə təcrübəsini öyrənməyə tələsir. Liviyanın baş naziri Əbdülhəmid Dibeydə ”Teknofest”in tribunasında söylədiyi nitqin bəzi məqamlarına diqqət yetirək. ”Bu gün burada iştirak etməyim Türkiyə ilə Liviya arasındakı tarixi bağların, Türkiyə və Liviya xalqları arasındakı əlaqələrin bariz nümunəsidir. Əhatə coğrafiyasını ildən ilə genişləndirən Teknofest Türkiyənin kosmos aviasiya və texnologiya sahələrində necə inkişaf etdiyini göstərir. Liviyanın hava hücumundan müdafiə sistemlərinə verdiyi töhfəyə görə Türkiyə dövlətinə və Baykar şirkətinə təşəkkürümü bildirirəm” Sitanın sonu. Bu fikirlərin isə şərhə ehtiyacı yoxdur. Amma düz on iki il bundan əvvəl Liviyanın ictimai-siyasi mənzərəsi tam fərqli idi, ölkə vətəndaş müharibəsində boğulurdu. ”Ərəb baharı” ssenarisi on minlərlə insanın həyatına son qoydu, on minlərlə insanı evindən didərgin saldı. Ümumən ərəb coğrafiyası tarixən türk coğrafiyası ilə bağlı olub. Osmanlı Türkiyəsi himayəsi altında olan xalqlara, onların mədəniyyətinə hər zaman hörmət və ehtiramla yanaşıb. İllər öncə ərəb ölkələrininbirində olarkən yadıma yaşlı professorun sözləri düşdü. 1922-ci ildə ərəb coğrfasiyasında Qərbin himayəsi altında keçdikdən sonra bütün tarixi incilərimiz eksponatlarımız Avropaya daşındı. Amma yüz illər boyu daha dəqiq desəm türklərin dövründə İstanbula aparılmış bir nümunəmizin belə adını çəkmə bilmərik. Düşünürük ki, bu fikirlər həm də Türkiyənin nə üçün dördüncü sənayesi inqilabının daşıyıcısına çevrilməsi ilə bağlı suallardan birinə cavabdır. Ötən ilin noyabr ayında Ərəb liqasınının Zivrvə Görüşündə Azərbaycan prezidenti İlham Əliyevin xüsusi qonaq statusunda iştirakı ərəb dünyasının türk coğrafiyası ilə tarixi əlaqələrini möhkəmləndirməsi ilə yanaşı, Azərbaycanın malik olduğu dayanıqlı sülh və stabil tərəqqi modelindən qaynaqlanmaq, ərəb ölkələrinin Azərbaycanla strateji əlaqələrdə son dərəcə maraqlı olmasından xəbər verirdi.**

**Qayıdaq Teknofestə. Bu möhtşəm və unikal festivalın pop üslubundan bəstələnmiş himnində də deyildiyi kimi 7-dən 70-ə qədər hər kəsin üzündən maraq, sevinc və gələcəyə dikilən ümidləri sezməmək mümkün deyildi. Bura övladları ilə gələnlər əslində onların gələcəkdə peşə seçimi üçün imkan yaratmış olurdular.Göydə şığıyan Türk şahinlərinin sürəti o qədər yüksək idi ki, kameralarımız belə zəruri anı qeydə ala bilmirdi. Əslində bu Türk coğrafiyasının lokomotivi olan Türkiyənin sürətidir. Onu da qeyd edim ki, Teknofest həm də ölkələrin bir-biri ilə texnoloji təcrübələri bölüşməsi üçün unikal imkandır. Dünyaya imkanı qazandıra isə daim tərəqqi yolunu üstün tutan Türkiyədir.**

**Artıq məlumdur ki, bu ilin sonunda iki Türk vətəndaşı kosmosa yola salınacaq. Bu məqamda biz kiçik bir müqayisə üçün yenə də tarixə boylanmalı olacağıq. Axı əsrlər boyu Türklər yeni torpaqlar tapmağa, məskən saldıqları torpaqlarda sülh və əmin-amanlığı bərqərar etmiş, böyük həvəslə quruculuq işlərini həyata keçirmişlər. Dördüncü sənaye inqilabı isə bu gün həm də, özü də birbaşa kosmosla bağlıdır. Bu gün türkün yeni tarixini artıq Yer Kürəsində yox, kosmosda, bütöv kainatda yazılır.**

***“Mir Şahinin Vaxtı”nda yayımlanmış reportajdan hissələr***

**Dünya tarixində belə bir hadisə yoxdur. Mədinənin əldən çıxacağını görən Paşa Osmanlı sultanlarının uzun illər bu şəhərdəki Peyğəmbərimizin məqbərəsinə göndərdiyi hədiyyələri, başqa sözlə, o möhtəşəm xəzinəni 1918-ci ildə gözətçinin müşayiəti ilə möhürlənmiş İstanbula göndərir. sandıqlarını açır və ölkəmizə gətirir.**

Əks halda bu qiymətli əşyalar dini tacir olan vicdansız səudiyyəlilərin və qətərlilərin əlində qalardı.

İndi sizə Fahrettin Paşa tərəfindən İstanbula göndərilən və bir hissəsi indi



# Fəxrəddin Paşanın sərvəti

Topqapı Sarayı muzeyində sərgilənən o qiymətsiz xəzinənin tam siyahısını təqdim edirəm:

- Ceyran dərisi ilə əli ilə yazılmış Hz.Osmanın Quranı.
- 5 köhnə əlyazma Quran və 4 Quran cüz.
- Qiymətli daşlarla bəzədilmiş 5 ədəd qızılla örtülmüş Quran qabı.
- Hilye-i Şerif (Peyğəmbərin portreti yazılı). Gümüş çərçivəli, yaşıl məxmər üzərində almaz və mirvarilərlə yazılmış Peyğəmbərimizin adı yazılmış gümüş günəş tablosu.
- Üzərində ”Kəlime-i Şehadet” yazısı olan bütöv qızıl lövhənin üzərində almazlı boşqab.
- brilyant, mirvari və mərcanlı 7 təsbeh.
- 2 gümüş naxışlı kürsü.
- Sultan Əbdüləzizin brilyant və qızıl naxışlı monoqramması.
- 4 bayraq başı və 3 qiymətli daş-qaşlı qılınc.
- Kevkeb-i Dürri adlı 4 ədəd böyük almaz. Qızıl üzərində qurulmuş, brilyant və yaqutlarla əhatə olunmuşdur.
- 14 almaz və zümrüdlə bəzədilmiş qızıl asılqan.
- Brilyant, mirvari, yaqut və zümrüdlə bəzədilmiş 11 qızılı yağ lampası asılqanları.
- 1 ədəd qızılı qiymətli daşlarla bəzədilmiş neft lampası.
- 1 qızıl qəhvə üçün asılqan.
- Qiymətli daşlarla bəzədilmiş 7 bərk qızıl şamdan. İkisinin boyu 1,55 metr, çəkisi isə 50 kiloqramdır. Hər birinin üzərində 2680 almaz var.
- 1 ədəd qızıl qayçı.
- 8 qızıl gül suyu qabı və qiymətli daşlarla bəzədilmiş 12 qızıl buxur yandırıcı.
- brilyant, zümrüd, yaqut və mirvarilərlə bəzədilmiş 2 çələng, 10 ulduzlu çiçək və yarpaqlar. Hamısı qızıl.
- 1 brilyant üzük.
- Qızıl və gümüş zəncirlər, qızıl zərgərlik qutuları və çekmeceler.
- 84 karat mirvari, 15 hissə zümrüd, 27 hissə yaqut, 53 hissə brilyant və almaz.
- Həmçinin 3 kilo 985 qram qızıl.
- 908 kilo gümüş.
- 49 ədəd şal və naxışlı pərdə.
- Sultan Mahmut Kitabxanasında və Mədinədə başqa qiymətli əsərlər.

**Eminquey**

# «Bir qadın evindən çıxıb müharibəyə gedirsə...»

**Xəbər verdiyimiz kimi Vətən müharibəsinin tək qadın şəhidi, hərbi feldşeri Arəstə Baxışovanın doğum günüdür.**

Adalet.az-a açıqlamasında Müharibə Veteranı Qadınlarına Sosial Yardım” İctimai Birliyinin sədri, Qarabağ veteranı, cərrah Rada Abbas Arəstə xanım kimi şəhidlərimizin ailələrinin daim diqqətdə saxlanılmasının vacibliyini vurğulayıb:

”Həmişə deyirəm ki, bir qadın evindən çıxıb müharibəyə gedirsə, bu artıq qəhrəmanlıqdır. Üstəlik qadın döyüşdə şəhid olursa, bu görünməyən bir şeydir. Düşünürəm ki, dövlət Arəstə xanımın ailəsinə ciddi qayğı göstərməlidir.

Övladları dövlət hesabına məktəbdə oxuyur. Ailəsinə mənzil verilməliydi, amma başım qarışıq olduğu üçün bundan xəbərsizəm. Şəhid ailələrimiz dövlətin və insanların qayğısıyla əhatə olunmalıdır. Onlar bizə şəhidlərin əmanətidir. Allah bizi şəhidlərin yanında üzüqara çıxarmasın. Onların bizə qoyub getdiyi əmanətlərə xəyanət etməyək. Şəhid analarına səbr diləyirəm. Vətən, başın sağ olsun deyirəm. Torpağımız onsuz da bizim üçün dəyərli idi, onu şəhidlərimiz öz qanlarıyla suvardığı üçün o bizə daha çox əzizdir, dəyərlidir. Şəhid analarına, övladlarına dünyanı bəxş etsək də, onların övladlarını bir dəqiqə gözləri önünə gətirmək kimi gücümüz yoxdur. Ona görə də onların haqqı ödənməlidir”.

Qeyd edək ki, Arəstə Baxışova 1989-cu il mayın 4-də Xaçmaz şəhərində anadan olub. Arəstə Baxışovanın 2 qardaşı



olub. Onun atası - baş leytenant Kərim Baxışov Fövqəladə Hallar Nazirliyində Mühafizə İdarəsinin rəisi vəzifəsində çalışıb və Arəstənin dörd yaşı olanda vəfat edib.

Arəstə Baxışova 1995-2004-cü illərdə Biləcəri qəsəbəsində yerləşən Şuşa şəhər 3 nömrəli tam orta məktəbdə təhsil alıb. 2004-2008-ci illərdə isə Azərbaycan Dövlət Pedaqoji Kollecində ”İngilis dili” üzrə təhsil alıb. Mərdan adında oğlu və Zəhra adında qızı yadigar qalıb.

Silahlı Qüvvələrimizin çavuşu olan hərbi feldşer Arəstə Baxışova 2020-ci il sentyabrın 27-də Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi və Azərbaycanın ərazi bütövlüyünün bərpa olunması üçün başlanan Vətən müharibəsi zamanı Füzulinin, Zəngilanın və Qubadlının azadlığı uğrunda gedən döyüşlərdə yaralı hərbçilərə döyüş meydanındanca tibbi yardım göstərib. Arəstə Baxışova oktyabrın 23-də Qubadlı döyüşləri zamanı şəhid olub. Biləcəri qəsəbəsinin Şəhidlər Xiyabanında dəfn olunub.

Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarına qatılan və hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyi üçün Azərbaycan Prezidenti İlham Əliyevin 15.12.2020-ci il tarixli Sərəncamına əsasən Arəstə Baxışova ölümündən sonra ”Vətən uğrunda” medalı ilə təltif edilib.

Arəstə Baxışova ölümündən sonra 2021-ci il mayın 12-də Beynəlxalq Qırmızı Xaç Komitəsi tərəfindən ingilis tibb bacısı Florens Naytingelin şərəfinə təsis olunan ”Florence Nightingale” medalı ilə təltif edildi.

**Vasif Əlihüseyn**

## *Səssizlik istəyən qonşularını öldürdü*



**ABŞ-ın Texas ştatında yaşayan 38 yaşlı Fransisko Oropeza qonşusunun evinə soxularaq biri uşaq olmaqla 5 nəfəri öldürüb.**

Ötən cümə gecəsi bir qonşu Oropezadan körpələri yata bilmədiyi üçün bağçada tüfəngindən atəş açmağı dayandırmasını istəyib. Polisin verdiyi açıqlamaya görə, sərxoş olduğu bildirilən Oropeza bu istəyə ”bağçamda istədiyimi edirəm” deyərək cavab verib. Bundan sonra ailə polisə müraciət edib. Lakin polis gələnə qədər qonşusunun evinə soxulan Oropeza yaxın məsafədən qurbanlarının boyunlarına atəş açıb. Hadisə yerinə gələn polislər meyitləri evin müxtəlif otaqlarında aşkar ediblər. Sağ qalanlar yalnız evin iki azyaşlı uşağı olub. Federal Təhqiqat Bürosu (FTB) telefonunu qoyub qaçan şübhəlinin yerini tapmaq üçün kömək istəyib.

## *Eyfeldə ürək əməliyyatı baş tutub*



**Parisdə Eyfel qülləsinin ikinci mərtəbəsində ürəyi dayanan şəxs yerindəcə əməliyyat olunub.**

Ziyarətçi qülləni gəzərkən ürək tutması keçirib.

Çağırışa gələn tibb işçiləri təcili olaraq kişini əməliyyat etmək qərarına gəliblər.

Xəstə ECMO (ekstrakorporeal membranın oksigenləşdirilməsi) əməliyyatından keçib.

İki saat sonra həyat əlamətləri olan şəxs Parisin 15-ci rayonundakı tədris xəstəxanasına aparılıb.

**Emin**

## Şövkət Ələkbərovanın ifası “Netflix”-də




**”Netflix” film platformasında2 may tarixində yayımlanan ”Terzi” serialının birinci bölümündə Şövkət Ələkbərovanın ifasında ”Fizuli kantatası” səsləndirilib.**

Qeyd edək ki, serialın ssenaristlərindən biri Rəna Məmmədlioğludur (Rana Mamat). O, Almaniyada doğulub, Londonda isə təhsil alıb.

**Eminquey**

## Kamran Həsənli: “Televiziyalarımız Azərbaycanın bu günki mədəniyyətinin bətnində...”



**”Əgər deputatlarımız da televiziyalarımızdakı bəzi verilişləri tənqid edirsə, bu müsbət addımdır. Biz kampaniya başlamamışıq, amma bizim dediklərimizi davam etdirirlər”**

Bunu Adalet.az-a açıqlamasında məşhur aparıcı, aktyor Kamran Həsənli deyib. K.Həsənli televiziyalarımızda köklü dəyişikliyə ehtiyac olduğunu bildirib:

”Biz həmişə demişik ki, televiziyalarımız köklü şəkildə dəyişilməlidir. Televiziyalarımız Azərbaycanın bu günki mədəniyyətinin bətnində qara yaradır. Bizə böyük ziyan vurur. Rusiyada evlənmə verilişlərinin olduğunu görməmişəm, amma onların televiziyası faşizmi, aqressiyanı təbliğ edən dünyada ən ziyanlı bir televiziyadır. Televiziyalarımız min illərdən gələn mental dəyərlərimizi sındırmaqla məşğuldur və orda işləyən kadırlar hamısı azərbaycanlı psixologiyasını məhv etmək üçün ora gətirilən adamlardır. 44 günlük Vətən müharibəsindən sonra özümüz dəyişmişik, amma televiziyalarımız necə var, elə də qalıb. Deputat Siyavuş Novruzov da iradlarında haqlıdır. Bu verilişlər mənəviyyatsız nənələr üçündür. Bir dəfə demişdim ki, elə bilirdim internet gənclərimizi korlayacaq, sən demə televiziya nənə-babalarımızı korlayacaq imiş.

Qeyd edək ki, Milli Məclisin iclasında Siyavuş Novruzov yaşlı adamların efirdə evlənməsini sərt tənqid edib.

**Vasif Əlihüseyn**

## Baş məşqçi Anar Süleymanlı: Bir məşqçiyə görə bütün idmançılara ləkə vurmaq olmaz

**”İdman federasiyaları mütəmadi olaraq məşqçilərlə seminarlar təşkil etməlidir, cəmiyyətdə riskli davranışların qarşısını alınması məqsədilə seminarlara idmançılar, məşqçilər dəvət olunmalıdır. Çox təəssüf ki, idman federasiyaları belə addımlar atmırlar”.**

Bunu K-1 döyüşçüsü və qadınlardan ibarət kunq-fu üzrə Azərbaycan millisinin baş məşqçisi Anar Süleymanlı son günlərdə gündəm olan 7 yaşlı Fərid Bakarovun ölümü ilə bağlıAdalet.az-a danışarkən deyib.



”Videodan sonra həmin məşqçinin fəaliyyətinə nəzər yetirdim. İdmançıdır, müəyyən nəticələri var, amma hər bir idmançıdan da məşqçi çıxmaz, hər məşqçi də yaxşı insan ola bilməz. Burada qeyri-peşəkarlıqdan da əlavə qeyri-insani hərəkətlərə yol verib. 8 yaşa qədər olan uşaqlar ibtidai yaş qrupuna aiddir.

Bu yaşda uşaqları idmana cəlb etmək olar, amma onların üzərində fəndlər göstərmək, icra etmək, yarışlara cəlb etmək məsləhət deyil. Hərəkətləri öyrətmək olar, bu şərtlə ki, xırda toxunuşlarla olsun.

Videoda isə görünür ki, adam özündə deyil, Birmənalı şəkildə uşaqlara işgəncə verir.

Bu məsələdə həm federasiyanın günahı var. Çünki federasiyalar mütəmadi olaraq məşqçilərlə seminarlar təşkil etməlidir, cəmiyyətdə riskli davranışların qarşısını alınması məqsədilə seminarlara idmançılar, məşqçilər dəvət olunmalıdır. Çox təəssüf ki, idman federasiyaları belə addımlar atmırlar.

Amma federasiya öz açıqlamasında da qeyd edir ki, məşqçinin hərəkətləri bağışlanmazdır. Bu məsələdə həm də valideyn günahkardır. Ona görə ki, hadisənin gedişatı bunu göstərir ki, adam narkotik aludəçisi olub. Elə narkotik təsiri altında da belə hərəkətlər etmək olar. Yəqin ki həmin uşağın anası da bunu bilirmiş.

Bütün bunları nəzərə alsaq, fərdi məsələ olduğuna görə bu hadisə idmançılarımızın, məşqçilərimizin adına ləkə gətirə bilməz. Düşünürəm ki, valideynlər bu hadisədən sonra uşaqlarını idmandan uzaq salmamalıdırlar. Bir nəfərə görə hamını günahlandırmaq olmaz. Bizim kifayət qədər gözəl məşqçilərimiz var. Valideynlər onları tapıb uşaqlarını onlara etibar etməlidirlər”.

**Eminquey**

# Günay Əfəndiyeva: "Şübhəsiz ki, Şuşanı geniş miqyasda tanıdarkən Türk qardaşlığının..."

**Bu sözləri Beynəlxalq Türk Mədəniyyəti və İrsi Fondunun prezidenti Günay Əfəndiyeva Türkiyənin Ankara şəhərində TÜRKPA-nın ”Daha ədalətli dünya üçün parlament diplomatiyası: enerji, miqrasiya, ərzaq” mövzusunda keçirilən 12-ci plenar iclasında çıxışı zamanı söyləyib.**

İclasda çıxış edən Günay Əfəndiyeva Türkiyə Cümhuriyyətinin quruluşunun 100-ci ildönümü münasibətilə təbrik edərək, bu ilin əvvəlində ölkənin böyük təbii fəlakətlə üzləşməsinin bütün Türk Dünyasını dərindən sarsıtdığını qeyd edib. Fondun prezidenti Türkiyəyə dəstək məqsədilə rəhbərlik etdiyi təşkilat tərəfindən müxtəlif layihələrin həyata keçirildiyini bildirib.

Günay Əfəndiyeva Türk Əməkdaşlıq Təşkilatlarından ən gənci olan Beynəlxalq Türk Mədəniyyəti və İrsi Fondunun TÜRKPA ilə əlaqələrindən bəhs edərək, deyib: ”Ötən ildən etibarən beynəlxalq heyətlə tam hüquqlu fəaliyyətinə başlayan Fond tərəfindən türk dövlətlərinin parlament nümayəndələri ilə keçirilən görüşlər, onların təşkilatın müxtəlif tədbirlərində fəal iştirakları TÜRKPA ilə münasibətlərimizi daha da gücləndirməkdədir. Bu dönəmdə Fond tərəfindən Nizami Gəncəvi, Əlişir Nəvai, Yunus Emre, Məhdimqulu Fəraqi, Abay Kunanbayev, Çingiz Aytmatov, Mikloş Radnoti və digər böyük sənətkarlara həsr olunmuş tədbirlər çərçivəsində təşkilatın mərkəzi qərargahında üzv dövlətlərin millətvəkilləri ilə görüşlər gerçəkləşdirildi. Bu ay Özbəkistanla təşkilat arasında mədəni sahədə tərəfdaşlığı genişləndirmək üçün ölkənin Ali Məclisinin sədri ilə görüşdük.




İki gün öncə Bakıda Fondun himayəsi ilə millətvəkillərinin iştirakları ilə Türk Dünyasının böyük oğlu Heydər Əliyevin 100 illiyi çərçivəsində görkəmli qırğız yazıçısı Çingiz Aytmatovun 95-ci ildönümü qeyd olundu. Fondun təşkilatçılığı ilə tamaşa göstərildi. Düşünürəm ki, bunlar TÜRKPA ilə mövcud əməkdaşlığımızın önəmli nümunələrindəndir”.

Günay Əfəndiyeva ”Türk dünyasına baxış - 2040” çərçivəsində Fond tərəfindən aparılan işlərdən söz açaraq, bildirib: ”Təşkilat Türk Dünyasının mədəni irsinə dair saziş sənədi hazırlamaqdadır. Sənəd yaxın günlərdə təşkilatın üzv ölkələrinə və parlamentlərinə göndəriləcəkdir. Eyni zamanda, ümumtürk irsi ilə bağlı, tərəfimizdən bu il Türküstanda Türk Dövlətləri Təşkilatının Zirvə Toplantısı çərçivəsində böyük bir sərginin təşkili nəzərdə tutulur.”

Günay Əfəndiyeva təşkilatın Qarabağın incisi Şuşa şəhərinin 2023-cü il üzrə Türk Dünyasının Mədəniyyət Paytaxtı ünvanını daşıması ilə əlaqədar layihələrindən danışıb: ”Beynəlxalq Türk Mədəniyyəti və İrsi Fondu tərəfindən Şuşanın tarixi və mədəni irsinin müxtəlif ölkələrdə tanıdılması yönündə ”Şuşa Günləri” adlı böyük layihə başladılıb. Şuşa tarix boyu görkəmli sənətkarların məskəni olmuşdur.

Eyni zamanda işğaldan azad edilməsi ilə şəhər bütün Türk Dünyasında qürurun, fəxarətin rəmzinə çevrilmişdir. Təşkilatın ötən il Bursada və bu il Daşkənddə keçirdiyi ”Şuşa Günləri”nin Türk Dünyasının digər şəhərlərində də təşkili planlaşdırılmaqdadır”.

”Şübhəsiz ki, Şuşanı geniş miqyasda tanıdarkən Türk qardaşlığının, birliyinin gücünü dünyaya bir daha sərgiləmiş oluruq”, - deyə Günay Əfəndiyeva bildirib.

# Əməkdar artist: «Əslində çox arzulayardım ki, Ağdamda bir teatr mərkəzi də tikilsin...»

**”Ağdamın Quzanlı qəsəbəsində bir Muğam Mərkəzi var. Orda İlham Əliyev cənabları bir qrup mədəniyyət adamlarıyla görüşəndə Quzanlıda gözəl Muğam Mərkəzi tikdirdiyi üçün Prezidentə təşəkkür etdilər. Cənab Prezident cavabında dedi ki, ”biz Ağdamda bundan da gözəl Muğam Mərkəzi tikəcəyik”. Onda hələ Ağdam rayonu işğalda idi”**

Bunu Adalet.az-a açıqlamasında Əməkdar artist Azad Şükürov deyib. A.Şükürov Cənab Prezidentin həmişə verdiyi sözü yerinə yetirdiyini bildirib:

”Mən dəfələrlə şahidi olmuşam ki, Cənab Prezident verdiyi sözü mütləq yerinə yetirir. Bu bir dövlət başçısı üçün şərəfdi, başucalığıdır. Ona görə də Ağdamdakı Muğam Mərkəzinin təməlqoyma mərasiminə baxanda fikirləşdim ki, orda necə gözəl bina olacaq. Əslində çox arzulayardım ki, Ağdamda bir teatr mərkəzi də tikilsin. Orda çoxlu teatr festivalları keçirilsin. Bu haqda mən öz təklifimi vermişəm. İnşallah o da olacaq. İnanıram ki, Muğam Mərkəzində çox gözəl tədbirlər, Ağdamda gözəl günlər olacaq.



Təbii ki, içimdə heyf hissi var ki, köhnə Ağdamı olduğu kimi qaytarmaq mümkün deyil. Heç ona cəhd etmək də düzgün deyil. Mən yeni Ağdamı gözləyirəm və inanıram ki, doğrudan da dünyanın ən gözəl şəhərlərindən olacaq. Neyləmək olar ki, Ağdamın düşmən tərəfindən dağıdılması heç kəsin üəriyincə olmadı. Amma şükür Allaha ki, Ağdamı şərəflə azad etdik. Həmişə deyirəm ki, ermənilər günlərin bir günü o kəndləri, şəhərləri bizə qaytarıb desəydilər ki, siz bacarmadınız, gəlin bunu götürün. Biz onda bütün dünyada nə günə qalardıq, onu Allah bilir. Amma indi şəstlə gəzirik, başımız ucadır, böyük sərkərdənin rəhbərliyi ilə biz qələbə çaldıq. Ona görə biz Ağdama qürurlu gedəcəyik. Cənab Prezidentin Qarabağa, xüsusilə Ağdama diqqətini bir sənət adamı kimi çox yüksək qiymətləndirirəm. Ona buna görə təşəkkürümü bildirirəm”.

**Qeyd edək ki, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva mayın 2-də Ağdam Muğam Mərkəzinin təməlinin qoyulması mərasimində iştirak ediblər.**

**Vasif Əlihüseyn**

# Firəngiz Sabirqızı: "Ədəbiyyatın inkişafına mane olanlar Elza Seyidcahan kimi "şairlərdir""

***Müsahibimiz gənc yazar Firəngiz Sabirqızıdır.***

**- Müasir ədəbiyyatın inkişafına mane olan amillər nələrdir və ya kimlərdir?**

- Müasir ədəbiyyatın inkişafına mane olan amillər,şairlərin bir-birini bəyənməməsi, sevməməsidir. Televiziyada bir məşhur şairdən soruşurlar ki,gənclərdən kimi bəyənirsiniz, şair ya da yazıçı kimi? Deyir ki, heç kimi. Halbuki baxırsan elə gənclər var ki, həmən məşhur şairdən də gözəl,çalarlı,dərin mənalı yazır. Gənclərə yolu irəlidəki yaşlı şairlər, yazıçılar açmalıdır. Bizdə isə təssüf ki, bu yoxdur. Ədəbiyyatın inkişafına mane olanlar isə Elza Seyidcahan kimi ”şairlərdir”.

**- Müasir ədəbi mühit sizi qane edir?**

- Müasir ədəbi mühit indi çox təssüf ki, internetdən ibarətdir... Kitab qoxusu,kağız qoxusu gəlməyən ədəbiyyat məni qane etmir..



**- Müasir ədəbi mühitdə bəyəndiyiniz imzalar varmı? Kimləri oxuyursunuz?**

- Müasir ədəbi mühitdə bəyəndiyim bir neçə şair var ki, özümü ağrılı hiss edəndə, boş hiss edəndə Səadət Cahangiri,Turac Hilalı və bir neçə gənc şair var ki onları oxuyuram. Hətta bir şerini bir neçə dəfə oxuyuram.

**- Ümumiyyətlə, dövlət yazıçıya və ya şairə dəstək olmalıdır?**

- Şair və yaxud yazıçı maddiyatı düşünüb yazırsa, demək ki, o alver edir. Ramiz Rövşən deyir ki, küləklə doldururam ciblərimi ,kənardan baxanlar elə bilsin ki ciblərim pulla doludur. Amma....Dövlət hər halda yenə də şairinin,yazıçısının yanında olmalıdır.

**- Sosial şəbəkədə daha çox giley edən yazarlardansınız... Səbəb nədir?**

- Səbəbi odur ki,məndən zəif yazarlar daha çox diqqət önündədir, daha çox ictimaiyyətə şair kimi təqdim olunur. Hal-hazırda televiziya kanallarında oturub şeir oxuyan ”şairlər”mənə qıcıq verir. Özəl kanallar olduğuna görə, efirə çıxmaq da maddiyyatla bağlıdır.

**- Azərbaycanda yazıçının və şairin sosial durumu ürəkaçandır?**

- Xeyr, ən istedadlı yazarlar ehtiyac içində çabalayır.

**- Əgər ürəkaçan deyilsə, buna səbəb kimlərdir?**

-Heç kimi səbəb gətirə bilmərəm. Çünki heç kim gəlib bizə deməyib ki, sən şair və ya yazıçı olmalısan.

**- Son dövrlər oxuduğunuz kitablar hamsılardır?**

- Demək olar ki, mənim,stol üstü gündəlik kitablarım var. Ramiz Rövşənin kitabları,yüz dəfə oxuduğum şeirləri hər gün yenidən oxuyuram. Və bu mənə rahatlıq verir. Cavabın axtardığım suallara cavab tapmağa kömək edir.

**- Firəngiz Sabirqızı üçün İNSANLIQ anlayışı nədir?**

- İnsanlıq, Tanrılıqdır. Tanrılıq da İnsanlıq. Allah insanı yaratdı ki, onu tanısınlar. El arasında belə bir söz var, İnsan oğlu. Amma yolunu azanda ona deyirlər ki, adam balasısan.

**Əntiqə Kərimzadə**

# Türkiyə dəbdəbəli toylar üçün ’SevimliDestinasiya’ olaraq seçildi

**Unudulmaz toylar təşkil etməkdə illərin təcrübəsinə malik olan Türkiyə dünyanın aparıcı dəbdəbəli toy planlaşdırıcılar birliyi RSVP tərəfindən təşkil edilən RSVP Qala Mükafatlarında dünyanın ”Sevimli Destinasiyası” seçildi.**

Adalet.az xəbər verir ki, RSVP dəbdəbəli toy və tədbir təşkilatçılarını bir araya gətirən simpoziumlar, konfranslar, mükafatlandırma mərasimləri və şəbəkə tədbirləri təşkil edən tanınmış bir platformadır. 2018-ci ildən etibarən iki ildən bir keçirilən RSVP qlobal dəbdəbəli toy və tədbirsənayesində aparıcı mərasimdir. Builki RSVP yığıncağıİspaniyanın Madrid şəhərində keçirilib. Konfransda bir sıra toy, banket və tədbir sənayesi peşəkarları, eləcə də görkəmli məruzəçilər iştirak edib. 30 ölkədən 250-yə yaxın iştirakçının iştirak etdiyi konfransda dayanıqlıtəşkilatlar, brendinq, toy və tədbir sektorunda trendlər mövzusunda müxtəlif simpoziumlar keçirilib.

Türkiyə mərasimdən mükafatlandırma və ev sahibliyi məsuliyyəti ilə geri qayıdıb.

Konfrans, bu ilki tədbirdə baş tutan mükafatlandırma mərasimində ”birinci yeri” Türkiyəyə təqdim etdi. 20 kateqoriyadan ibarət RSVP Qlobal Mükafatları, Türkiyəni Destinasiya kateqoriyasında Sevimli Destinasiya Mükafatı ilə təltif etdi.

Mərasimdə növbəti konfransın 2-5 aprel 2024-cü il tarixlərində İstanbulda keçiriləcəyi də bildirilib. Tədbirdə həm də bildirilib ki, İstanbul dünya səviyyəli mərasim və şənlikləri mükəmməl təşkil edə bilir və bu günün müasir şəhərlərindən biridir.

Türkiyə Şərqin qədim ənənələrini Qərbin müasir keyfiyyətləri ilə birləşdirən mədəni irsi, eləcə də müxtəlif və bənzərsiz mətbəxi və limitsiz alış-veriş imkanları ilə səyahət edənlərin bir nömrəli seçiminə çevrilib. Ölkə, nikahlarını bu əfsanəvi destinasiyadaqeyd etmək istəyən cütlükləri qəbul etməyə hər zaman hazırdır. İstanbul, Bodrum, Antalya, Kapadokya, Göcek, Çeşme və Fethiye kimi turizm şəhərləri qonaqlama yerlərindən tutmuş qastronomiyaya qədərçoxlu sayda maraqlı seçimlər təklif edən məşhur istiqamətlər arasındadır. Gözəl yaradıcılığı və antik yeməkləri ilə ancaq cütlükləri deyil, həmçinin qonaqları da valeh edən bu cür toy və dəvətlərin hər bir detalını dəqiqliklə planlaşdıran xüsusi təlim keçmiş peşəkarlar mövcuddur. Türkiyənin ”turizm paytaxtı” İstanbul toylar üçün ən populyar variantlardan biridir. Şərqlə Qərb arasında körpü olan İstanbulun bənzərsiz ab-havası, dünyanın demək olar ki, hər yerindən birbaşa uçuşlar təklif edən hava yolları sayəsində müxtəlif qitələrdən gələn ziyarətçilərin bura asanlıqla çata bilməyi ən böyük üstünlüyüdür. İstanbulun göstərişli və dəbdəbəli otellərində 200-dən 2000-ə qədər qonaq qəbul edəbiləcək qapalı və açıq məkanlar var. Möhtəşəm memarlığı və ən müasir infrastrukturu ilə bu otellərdə cütlüklərin romantikadan həzz ala biləcəyi və ömür boyu davam edəcək xatirələr yarada biləcəyi ziyafət salonları, termal hamamları və yamyaşıl bağları mövcuddur.



İstanbulun toy məkanları təkcə lüks otellərlə məhdudlaşmır. Osmanlı İmperiyasının keçmiş paytaxtı olan bu şəhərin özünəməxsus gözqamaşdırıcı sarayları və malikanələri var. Onların əksəriyyəti ilkin formada bərpa edilmiş və müasir elementlərlə təchiz edilmişdir. Əksəriyyəti Boğazda yerləşir, sizə heyrətamiz mənzərələr və möhtəşəm toy üçün mükəmməl şərait yaradır!

Egey bölgəsinin ən məşhur lüks istirahət mərkəzlərindən biri olan Bodrum romantik toylar üçün gözəl bir mühit təqdim edir. İstanbul kimi Bodruma da bir çox ölkənin paytaxtlarından birbaşa uçuşlarla asanlıqla getmək olar.

Toy məkanları baxımından Bodrumda 150-1000 qonaq qəbul edə bilən çox yönlü qapalı və açıq tədbir məkanları olan dünya səviyyəsində məşhur lüks və romantik otel şəbəkələri var. Toyların başdan axıra qədər planlaşdırılması və idarə olunması üzrə mütəxəssisləri bir araya gətirən Bodrum məkanlarıbəylə gəlinin xəyallarını reallaşdırmaq üçün lazım olan bütün xidmətləri təqdim edir.

**Bodrumun dünyada məşhur olan çimərliklərindən birində evlənmək istəyən cütlüklər bölgənin 5 ulduzlu istirahət mərkəzlərini və ya daha səmimi və bənzərsiz atmosferi olan toy məkanlarını seçə bilərlər.**

## Müğənni: “Bir gün mən yenidən...”



**Tanınmış müğənni Çingiz Mustafayev ötən gün bir araya gəldiyi ”Baku” jurnalının təsisçisi, Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyeva haqda bu sözləri yazıb:**

”Bəzən həyatda elə olur ki, şansın və uca yaradanın istəyi ilə əvvəllər tanış olmadığımız insanlarla qarşılaşırıq. Amma ilk dəfə toxunaraq anlayırıq ki, qəlbimiz və ruhumuz gözləri sənə qarşı olan şəxs üçün qohumluq və sevgi melodiyasını oxumağa başlayır”.

O, yaradıcı və musiqi dolu gecənin ardından fikirlərini belə ifadə edib:

”Bu gün mən yenidən ruh yoldaşımla görüşdüm, onunla, mənə elə gəlir ki, bizim qəlblərimiz şeir və musiqinin sufi motivləri ilə uca Allaha məhəbbətlə ahəng içində mahnı oxuyur. Onun lütfünü axtarmaq yollarımız o qədər oxşardır ki, mən hər dəfə bu işıqlı və gözəl ruhun şeirlərini oxuyanda onun yaradana olan məhəbbətini şeir rəngləri ilə necə zərif və incə yarımtonlarla ifadə etməsinə təəccüblənirdim. Ürəklərimiz ona olan gerçək sevgiylə notlar və sözlərlə necə də eyni mahnını söyləyir.

Leyla xanım, bilirəm ki, sizin dərinliyinizi hamı başa düşməyəcək, amma nə olursa olsun, var olun, yaradın və sizdən gələn gözəl və işıqlı olanı göstərin, doğma ruh!”.

## Aygün Anarı təhqir etdi

**Xəbər verdiyimiz kimi stilist Anar Ağakişiyev Xalq artisti Aygün Kazımovadan küsüb.**



Adalet.az xəbər verir ki, stillist bu dəfə Kazımovadan küsmə səbəbini söyləyib.

Belə ki, müğənni illər əvvəl onunla bağlı efirdə təhqiramiz ifadə səsləndirdiyini bildirib. Həmçinin estrada ulduzunun onun haqda yaxın dostlarına xoşagəlməz ifadələr söylədiyini deyən Anar Kazımovanın səsyazısını yayıb:

”Məni məcbur elədiniz ki, təhqirin nə olduğunu sizə sübutla göstərim! İllər öncə ATV kanalında yayımlanan ”Xeyir ola” verilişində canlı yayımda məni təhqir edib, ələ sala-sala ”Kosoy Anar” deyib. Önəm vermədim. Lakin yenə də anlayıram ki, hər bir insana yerində cavabını vermək lazımdır. Mən susduqca, elə bilir ki, həmişə susacağam. Və illər keçir, bu, davam edir. Dosta, tanışa haqqımda təhqiredici səsli mesajlar, fikirlər söyləyir. Nə vaxta qədər susacağam?! Öz aləmində mənə ləq?b qoyub - ”Kosoy”. Mənim xarici ölkələrdə tanınmağım nədənsə onu narahat edir. Bu gün gördüyünüz video-müsahibə məhz bu səsli mesaja cavab idi. Özü xarici ulduzla duet oxumaq üçün milyonlar ödəməsinə baxmayaraq, yalan məlumat yayır ki, guya mən dünya ulduzları ilə işləmək üçün ödəniş edirəm. Halbuki hər şey əksinədir. Çox səbr etdim, görürəm alınmır. Məni çox yaxşı tanıyırsız ki, atalar sözləri ilə yaşayıram: ”Döymə taxta qapımı, döyərəm dəmir darvazanı!”.

## Məşhur futbolçunun adından dələduzluq etdilər



**Məşhur futbolçu oğlu Mahir Emrelinin adından yenə dələduzluq edilib.**

Adalet.az xəbər verir ki, bu dəfə də futbolçunun şəxsiyyətini vəsiqəsindən istifadə olunub.

Belə ki, telefon almaq istəyən şəxs instaqram səhifələrindən birinə müraciət edib. Hesabı idarən edən admin ona şəxsiyyət vəsiqəsi və kart nömrəsi göndərib. Alıcı həmin kart hesabına pul göndərdikdən sonra nömrəsi admin tərəfindən bloklanıb. Telefon almaq istəyən şəxs yaşı az olduğundan şəxsiyyət vəsiqəsindəki şəkilə diqqət etməyib. Ailə üzvləri vəsiqədəki şəkilə baxandan sonra məlum olub ki, bu, Mahir Emreliyə məxsus sənəddir

Qeyd edək ki, Mahir Emreli tanınmış prodüser Anar Mədətovun oğludur.

**Əntiqə**

## Gündə dörd dəfə Çarli Çaplinin filminə baxaraq xərçəngə qalib gəldim

**Fikirlər beyində neyropeptid istehsalını sürətləndirir. Xoşbəxt və kədərli insanın neyropeptidləri bir-birindən fərqlidir.**



Yaxşı fikirlər düşünürsənsə, yaxşı neyropeptidlər istehsal edirsən. Bunlar qan vasitəsilə bütün bədənə yayılır və immun hüceyrələrini aktivləşdirir. Bu, bir növ enerji hissəciklərinə bənzəyir. Pasiyentlərimə şən insanlarla görüşməyi, gülməli kitablar oxumağı və komediya filmlərinə baxmağı tövsiyə edirəm. Norman Kazanın bir kitabı var, orada deyir: ”Gündə dörd dəfə Çarli Çaplinin filminə baxaraq xərçəngə qalib gəldim'.

Təhtəlşüur gülməklə aldadıla bilər.

Xəstə bədbəxtdirsə, gülməli filmlər hələ də işə yarayırmı?

Əslində heç bir səbəb olmadan gülə bilərsiniz. Xəstə gündə iyirmi dəfə ”Hahahahah” deyərək durduq yerə gülə bilər. Amma indi bunu kimə deyəcəksən, bizim millət belə şeylərə inanmır, şübhə ilə yanaşır. Halbuki beyin bunun real olduğunu düşünür. Şüuraltı aldanar. Nə deyirsənsə inanır.

Gülün və yaxşı oldunüzü söyləyin.

İnsan bədəni gəmi kimidir. Kapitan əmr verir, maşın otağı əmrləri yerinə yetirir. Bizdə kapitan beyindir. Şüuraltı maşın otağıdır.

Təklif çox vacibdir. Oturub gündə on dəfə ”Bu gün çox yaxşıyam, Allaha şükür” deyin, qaraciyəriniz, dalağınız və ağciyəriniz buna uyğun işləyir. Kapitan yaxşı olduğumuzu desə, beyin yaxşı endorfinlər ifraz edir.

İstanbul Universitetinin keçmiş rektorlarından biri, Cərrahpaşa Tibb Fakültəsinin təqaüdçü professoru, dəyərli alim və onkologiya müəllimi Prof. Dr. Bülent Berkardanın məqaləsi...

**Eminquey**

Hərbi qulluqçu Abdullayev Samir Abdulla oğluna məxsus AD 0043040 nömrəli hərbi vəsiqə naməlum şəraitdə itdiyinə görə etibarsız sayılır.

Səməndər Məmmədov, İlqar Hüseynov və Faiq Qismətoğlu pedaqoji elmlər üzrə fəlsəfə doktoru **Şikar Hüseynova** həyat yoldaşı

**Mahirə xanımın**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Təsisçi və baş məsləhətçi:
Aqil ABBAS

Baş redaktor:
İradə TUNCAY

Qəzet “Ədalət” qəzetinin bilgisayar mərkəzində yığılıb səhifələnmiş və “Son dakika” MMC Nəşriyyatında ofset üsulu ilə çap edilmişdir.

Müəlliflərin mövqeyi ilə redaksiyanın mövqeyi üst-üstə düşməyə bilər.

KAPİTAL Bankın 1 saylı Nəsimi rayon filialı.
kod: 200112 h\h VÖEN 9900003611
Müxbir hesabı: AZ37NABZ01350100000000001944
S.W.I.F.T. Bik: AIIBAZ 2x hesab N:
AZ42AIIB38070019441100451111 VÖEN: 1300456161
İndeks:0107 Qeydiyyat nömrəsi 100

Ünvan: Bakı AZ.1073 Mətbuat prospekti, 529-cu məhəllə, “AZƏRBAYCAN” nəşriyyatı, 6-cı mərtəbə.
Telefon: 538-05-50, 538-51-31. 434-55-98
Faks: 539-80-26
adaletqezeti@rambler.ru
adaletqezeti@mail.ru, adaletqezeti@box.az

Tiraj: 1500
Sifariş: 128
Çapa imzalanmışdır: 04.05.2023